www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 aprel 2018-ci il Cümə № 91 (6980) Qiymətı 60 qəpik

Xəbər

## Bakıda "Formula-1" başladı

yazısı səh.13-də

Gündəm

### Avropa Şurasında Azərbaycanla bağlı kritik müzakirələr



**Nümayəndə heyətinin rəhbəri Səməd Seyidovdan sərt mövqe:** "Mən belə Avropa Şurasında təmsil olunmaq istəmirəm"

yazısı səh.4-də

### Prezidentin İngiltərəyə səfəri başladı

yazısı səh.2-də

### İşini itirən iki sabiq nazirlə bağlı ilginc iddialar

yazısı səh.5-də

### Kreml Ermənistanla bağlı hərəkətə keçir - mühüm gəlişmə

yazısı səh.8-də

### Antalyada Rusiya-Türkiyə iş adamları konfransı keçirilir

yazısı səh.3-də

### Pensiya Fondunda 2 milyardlıq maxinasiya

yazısı səh.10-da

### Trampı İranla düşmən edən üç mühüm səbəb

yazısı səh.12-də

### Qərbin postsovet məkanında yeni inqilab ssenariləri

yazısı səh.7-də

### İki nazirlikdə az maaş problemi

yazısı səh.10-da

### Bakıda böyük yarışlar ərəfəsi saxta dollar artır-daha bir dəstə tutuldu

yazısı səh.11-də

### Baş pediatrdan özəl klinikalara ittiham

yazısı səh.14-də

### Akif Çovdarovun yeni məhkəməsi başlayır-təfərrüat

yazısı səh.11-də

## Ermənistanla bağlı "həqiqət anı" yaxınlaşır

# "LAVROV GEDİR, QARABAĞ QAYIDIR..." - KREMLİN İLGİNC SSENARİSİ İŞƏ DÜŞÜR

Ermənistandakı olaylar Rusiyanı iki seçimdən birinə itələməkdədir; Azərbaycan Moskva üçün regionda əvəzedilməz tərəfdaşa çevrilə bilər, əgər...; rusiyalı analitikdən sensasiyalı iddia və proqnozlar...



yazısı səh.9-da

## Abutalıbov kabinetini boşaltdı - mer sürpriz isim ola bilər

Sabiq BŞİH rəhbəri Nazirlər Kabinetində 17 il əvvəlki görəvini icra edəcək; onun yerinə kim gələcək?

yazısı səh.5-də



*Şirməmməd Hüseynov:*

### "Cümhuriyyət medalını İlham Əliyevə vermək lazımdır"

yazısı səh.6-da



*İlham Rəhimov:*

### "Təyyarə böhranından sonra çoxları elə düşünürdü ki..."

yazısı səh.7-də



### Rusiya kəşfiyyatının rəhbəri Bakıya niyə gəlmişdi?

yazısı səh.3-də



## Prezidentin Böyük Britaniyaya səfəri başlayıb

**Azərbaycan prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin dəvəti ilə bu ölkəyə səfəri başlayıb. Azərtac xəbər verir ki, aprelin 26-da Prezident İlham Əliyev Londonda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.**

Görüşdə "Şahdəniz" layihəsi üzrə görülən işlər, həmçinin bu ilin iyununda TANAP layihəsinin açılışı ilə bağlı fikir mübadiləsi aparıldı. "Şəfəq-Asiman" strukturu üzrə imzalanmış hasilatın pay bölgüsü sazişi əsasında görülən işlərin intensivləşdirilməsinin əhəmiyyəti qeyd edilib.

Söhbət zamanı Azərbaycan ilə BP şirkəti arasında uzun illərdir davam edən əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə olunub.

Prezident Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa və Amerika məsələləri üzrə dövlət naziri Alan Dunkan ilə görüşüb.

APA-nın məlumatına görə, görüşdə Alan Dunkan dövlət başçısını yenidən prezident seçilməsi münasibətilə təbrik edib və ona fəaliyyətində uğurlar arzulayıb. Qeyd edib ki, prezident İlham Əliyevin yenidən prezident seçilməsi Azərbaycanın sürətli inkişafının davamlı olmasını təmin edəcək.

Söhbət zamanı ikitərəfli və regional əməkdaşlıq, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

## Mayda neçə gün iş olmayacaq?

**May ayında 2 qeyri-iş günü olacaq. Belə ki, Əmək Məcəlləsinin 105-ci maddəsinin 2-ci hissəsinə əsasən, 9 May - Faşizm üzərində Qələbə Günü və 28 May - Respublika Günü iş günləri hesab edilmir.**

Bu barədə "APA-Economics"ə Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin İctimaiyyətlə Əlaqələr Şöbəsinin müdiri Elman Babayev məlumat verib.

Şöbə müdiri qeyd edib ki, 9 May- Faşizm üzərində Qələbə Günü çərşənbə gününə təsadüf edir və qeyri-iş günüdür: "28 May - Respublika Günü isə bazar ertəsinə düşdüyündən həmin günün qeyri-iş günü olması ilə yanaşı, bu, eyni zamanda beşgünlük iş həftəsi üzrə işləyənlərin üç gün (şənbə, bazar və bayram günü olan bazar ertəsi) ardıcıl olaraq istirahət etməsinə imkan verəcək".

E.Babayev onu da qeyd edib ki, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin Kollegiyasının müvafiq qərarı ilə təsdiq edilmiş "2018-ci ilin istehsalat təqvimi"nə əsasən, 2018-ci ilin may ayı üzrə aylıq iş vaxtı norması 167 saat, 2018-ci il üçün illik iş vaxtı norması isə 1 919 saatdır: "Bu norma altıgünlük iş həftəsi olan iş yerlərində 40 saatlıq iş həftəsi üzrə çalışanlara da şamil edilir".

## Bidzina İvanişvili Gürcüstanın hakim partiyasının rəhbəri olacaq

**Gürcüstanın hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasının sədri dəyişir. APA-nın yerli bürosunun məlumatına görə, baş nazir Giorgi Kvirikaşvili partiya sədrliyindən istefa verib.**

Keçmiş baş nazir, "Gürcü Arzusu" blokunun yaradıcısı, iş adamı Bidzina İvanişviliyə hakim partiyanın sədri vəzifəsi təklif olunub. G.Kvirikaşvili deyib ki, B. İvanişvili təklifi qəbul edib. Baş nazir qeyd edib ki, yaxın gələcəkdə partiyanın qurultayı keçiriləcək: "İnanıram ki, partiya Bidzina İvanişvilinin sədrliyini yekdilliklə dəstəkləyəcək".

## Aprelin 29-da sınaq imtahanı keçiriləcək

**Dövlət İmtahan Mərkəzi (DİM) I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün aprelin 29-da 12 şəhər və rayonda sınaq imtahanları keçirəcək. DİM-dən APA-ya verilən məlumata görə, imtahanlar Bakı, Sumqayıt, Xırdalan, Naxçıvan, Gəncə, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran, Xaçmaz şəhər və rayonlarında, ümumilikdə 56 binada təşkil olunacaq.**

İmtahanda iştirak etmək üçün yazılış internet vasitəsilə aparılıb və 29925 abituriyent qeydiyyatdan keçib.

Sınaq imtahanı 1 növbə üzrə keçiriləcək və bütün binalarda saat 11:00-da başlanacaq.

İmtahanların idarə edilməsi üçün 182 imtahan rəhbəri, 1785 nəzarətçi-müəllim ayrılıb.

İmtahan binalarına buraxılış yalnız abituriyentin şəxsiyyət vəsiqəsinin əsli və "İmtahana buraxılış vərəqəsi" əsasında həyata keçirilir. Göstərilən sənədlərindən biri olmayan, imtahana şəxsiyyət vəsiqəsinin surəti ilə gələn, başqasının şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçən abituriyentlər imtahana buraxılmır.

# Erməni girovluğunda olan kəlbəcərli ailəsinə videogörüntü göndərib

**Erməni girovluğunda olan Şahbaz Quliyev ailəsinə videogörüntü göndərib. Bu barədə APA-ya Ş. Quliyevin əmisi oğlu Natiq Quliyev məlumat verib. Onun sözlərinə görə, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndələri Ş. Quliyevin videogörüntüsünü ailəsinə çatdırıb.**



Videomüraciətdə Ş. Quliyev əhvalının yaxşı olduğunu dilə gətirib, ailə üzvlərini anasından və qızından muğayat olmağa çağırıb.

Videogörüntüdə Şahbaz Quliyevin vəziyyətinin o qədər də yaxşı olmadığı müşahidə edilib: "Şahbaz çox arıqlayıb, çətinliklə nəfəs aldığı açıq şəkildə hiss olunurdu. Bildiyimizə görə, onun qara ciyərinin sıradan çıxmaq təhlükəsi var".

N. Quliyev bildirib ki, BQXK nümayəndələri baxdıqdan sonra görüntüləri özləri ilə aparıblar.

N. Quliyev həmçinin qeyd edib ki, Ş. Quliyev 2015-ci ildə əməliyyat olunub, onun öd kisəsi götürülüb. Əməliyyat müsəlman ölkələrinin birindən gəlmiş həkim tərəfindən həyata keçirilib. Həmin həkim o vaxt Azərbaycana gələrək ailəsinə Ş. Quliyevin əməliyyatdan sonrakı durumu barədə məlumat verib.

Qeyd edək ki, hazırda Dağlıq Qarabağda üç azərbaycanlı saxlanılır.

2014-cü ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər, Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib. İşğal altındakı Dağlıq Qarabağda D. Əsgərov və Ş. Quliyev üzərində qanunsuz "məhkəmə" qurulub. "Məhkəmə"nin qərarı ilə D. Əsgərov ömürlük, Ş. Quliyev 22 il müddətinə azadlıqdan məhrum edilib.

Azərbaycan vətəndaşı Elnur Hüseynzadə isə 2017-ci ilin fevralında Talış kəndi istiqamətində naməlum şəraitdə ermənilərin əlinə düşüb.

## Ermənistan prezidenti öz partiyasını yaradır

**Ermənistan prezidenti Armen Sarkisyan da öz partiyasını yaradaraq sonrakı siyasi proseslərdə daha fəal iştirak etmək niyyətindədir.**

Virtualaz.org "Jamanak" qəzetinə istinadən xəbər verir ki, o, müxtəlif ekspertlərlə və incəsənət xadimləri ilə görüşlər keçirərək onların əhvali-ruhiyyəsini öyrənməyə çalışır.

"Sarkisyan anlayır, Ermənistan prezidentinin səlahiyyətləri o qədər cılızdır ki, hansısa icmanın rəhbəri olmaq prezident olmaqdan daha yaxşıdır. Seçkilərdə hər hansı müvəffəqiyyət isə Ermənistanın siyasi həyatında real rol oynamaq üçün əsas yaradacaq", - qəzet yazır.

## İtaliyada terror aktı hazırlayan miqrant tutuldu

**İtaliyanın Neapol şəhərində uğurlu antiterror əməliyyatı keçirilib. Trend-in məlumatına görə, əməliyyat Neapol prokurorluğunun təlimatı əsasında aparılıb.**

Əməliyyat nəticəsində terror aktının hazırlanmasında şübhəli bilinən Qambiya vətəndaşı saxlanılıb.

Məlumata görə, saxlanan Qambiya vətəndaşı İtaliya vətəndaşlığını almaq üçün müraciət edibmiş.

Əməliyyatın təfərrüatları barədə məlumat verilməyib.



## "Bakcell"dən Frankofoniya gününə həsr edilmiş konsertin keçirilməsinə dəstək

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Bakcell" şirkəti Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası ilə birlikdə Azərbaycan-Fransız Universitetinin (UFAZ) təşkil etdiyi Frankofoniya gününə həsr edilmiş konsertin keçirilməsinə dəstək göstərib.**

**Konsertdə UFAZ-nın mühəndislik fakültələrinin tələbələri çıxış ediblər. Tədbir zamanı tələbələrin teatr tamaşaları, piano və mahnı ifaları və həmçinin çəkdikləri qısa videolar nümayiş etdirilib.**

**Qeyd edək ki, "Bakcell"in dəstəyilə keçirilmiş konsert Lycee Français de Bakou (UFAZ universitetinin xor ansamblı) və "ADO Theatre-Collective"in səhnə rejissoru Elza Furtadonun iştirakı ilə təşkil edilib.**

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universiteti (UFAZ) ölkənin ən nüfuzlu təhsil ocaqlarından biridir. Frankofoniya günləri və digər tədbirlərin təşkili vasitəsilə UFAZ fransız dili və mədəniyyətini təşviq edir və tələbələrin bədiilik və musiqi bacarıqlarının artırılmasına öz töhfəsini verir.**

**"Bakcell" şirkəti tədbirin sponsoru olaraq Azərbaycan tələbələri və gənclərinə xüsusi diqqət ayırmaqla ölkədə təhsilin inkişafına öz dəstəyini əsirgəmir.**

## Lavrov və Nalbəndyan arasında görüş keçirilib

**Moskvada Rusiya və Ermənistanın xarici işlər nazirləri Sergey Lavrov və Edvard Nalbəndyan arasında görüş keçirilib.**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinqdə bildirib.

"Bu gün nazir Sergey Lavrov və erməni həmkarı Edvard Nalbəndyan arasında qısa görüş keçirilib. Görüşdə nazirlər Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttindəki vəziyyəti müzakirə ediblər", - deyə Rusiya XİN sözçüsü qeyd edib.

## Direktor və müəllimlərin işə qəbulu qaydalarında yenilik olacaq

**"Bu il məktəb direktorlarının və müəllimlərin işə qəbulu qaydalarında yeniliklər olacaq".**

APA-nın xəbərinə görə, bunu Təhsil Nazirliyinin İnsan Resursları Şöbəsinin müdir müavini Eşqi Bağırov bildirib.

Onun sözlərinə görə, müəllimlərin işə qəbul qaydaları ilə bağlı layihə hazırlanıb, qaydalarda yeniliklərin tətbiqi planlaşdırılır: "Müəllimlərin işə qəbul qaydaları növbəti həftələrdə təsdiq olunacaq. Layihə təsdiqləndikdən sonra əlavə məlumat veriləcək".

E. Bağırov qeyd edib ki, bu il məktəb direktorlarının işə qəbulu ilə bağlı müsabiqənin keçirilməsi də nəzərdə tutulub: "Direktorların işə qəbulu qaydalarında da dəyişikliklər ediləcək. Lakin hələlik qaydalar hazır deyil".

## Havalar istilənir

**Bakıda və Abşeron yarımadasında sabah hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin gecəyə doğru bəzi yerlərdə çiskinli olacağı gözlənilir. Səhər zəif duman olacaq. Cənub küləyi əsəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Qafqazinfo"ya verilən məlumata görə, havanın temperaturunun Abşeron yarımadasında gecə 9-11, gündüz 19-24, Bakıda gecə 9-11, gündüz 21-23 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 764 mm civə sütunundan 760 mm civə sütununa enəcək, nisbi rütubət gecə 75-85, gündüz 45-50 faiz təşkil edəcək.

YENİ MÜSAVAT
N 91 (6980) 27 aprel 2018







# Antalyada Rusiya-Türkiyə iş adamları konfransı

## Konfransda bank işi, təhsil, enerji, inşaat, müdafiə sənayesi, kənd təsərrüfatı və digər sahələrdə iki ölkənin işbirliyi müzakirə edilib

**Türkiyənin Uluslararası İşbirliyi Platformunun təşkilatçılığı ilə aprelin 26-da Antalyada "Türkiyə-Rusiya iş adamlarının "Yüksələn Avrasiyada Türkiyə-Rusiya ilişkilərinin gələcəyi" konfransı öz işinə başlayıb.**

Konfransda iştirak edən əməkdaşımızın verdiyi xəbərə görə, Bələkdəki "Maxx Royal" Hoteldə düzənlənən tədbirə qatılmaq üçün iki ölkənin iş dünyasının tanınan isimləri ilə yanaşı, siyasilər də qatılıb.

Onların sırasında Azərbaycan əsilli iş adamı, hüquq professoru İlham Rəhimov, Türkiyə İqtisadiyyat nazirinin müavini Fatih Metin, Antalya Böyük Şəhər Bələdiyyəsinin başqanı Menderes Türel, SETA Genəl Koordinatoru Burhanettin Duran, politoloq Aleksandr Duqin, OİC Ölkələri Parlamentlər Birliyinin baş katibi Mahmut Erol Kılıç, İPSA başqanı, professor İlter Turan, Rusiya-Türkiyə İşbirliyi Şurasının başqanı Ahmet Palankoev, Rusiyanın Ankaradakı səfiri Aleksey Yerxov, Rusiya prezidentliyinə namizəd olmuş Sergey Baburin, Rusiya və Türkiyənin fikir və siyasət adamları, Rusiyada böyük iş fəaliyyətində olan Azərbaycan kökənli biznesmenlər Antalya sammitində iştirak edirlər.

Antalya zirvəsində çıxış edən Aleksandr Duqin türk və rus xalqları arasında müxtəlif sferalar üzrə əməkdaşlıq barədə danışıb, eyni zamanda tarixdən də maraqlı xatırlatmalar edib, paralellər aparıb.

A.Duqin bildirib ki, ümumən Rusiya ilə Avrasiya münasibətləri haqda danışanda təkcə provaslav və slavyan dünyası nəzərdə tutulur. Onun sözlərinə görə, burada bütün sivilizasiya öz əksini tapmalıdır: "Siyasətdə, iqtisadiyyatda anlaşma əldə etmək əsas deyil. Prezidentlər anlaşma nəticəsində buna nail olur. Amma cəmiyyətlər də bu əməkdaşlıqdan kənarda qalmamalıdır. Əks halda bu, bizim layihələrimizi uğursuz edir. Eyni məqam Azərbaycan üçün də keçərlidir. Hazırda Azərbaycan-Rusiya münasibətləri çox gözəl inkişaf edir".

Çıxışçı eyni zamanda türk xalqlarının tarixi, Türkiyə cəmiyyətində yaşayan xalqlar barədə də danışıb.

Türk ədəbiyyatı barədə də xatırlatmalar edən Duqin eyni zamanda vurğulayıb ki, əgər türk və rus xalqları öz aralarında anlaşsalar, bu halda millət olaraq öz tarixi köklərindəki ortaq cəhətləri, zamanında aparılan rəqabətin daha sonradan ortaq əməkdaşlıqlar üçün zəmin yaratdığını görə bilərlər: "Biz tarix boyu, hər zaman Avrasiyanı təmsil etmək üçün rəqabət şəraitində olmuşuq. Daha bir imperiya Qərblə Şərq arasında keçid olmaq istəmişdi. Bu da İran imperiyası idi. Və bu üç qüvvə - İran, Rusiya və Türkiyə öz aralarında Avrasiya üzərində nəzarəti təmin etmək üçün vuruşurdular. Nəticədə biz bu rəqabətdə uduzduq, amma Avropa qazandı".

Dövlətlərarası əməkdaşlıq mövzusuna toxunan A.Duqin bildirib ki, bu mövzuda çox adam hər şeyin rəqəmlərdən, iqtisadi göstəricilərdən asılı olduğunu deyə bilər.

"Amma biz bununla razılaşan andan etibarən Avrasiya xalqları olmaqdan çıxırıq" deyən filosofun fikrincə, biz əgər maddi məqamların mənəvi detallardan üstün olması ilə razılaşsaq, bu, bizim axırımızdır: "Biz bu zaman nə rus, nə azərbaycanlı, nə türk, nə farsıq. Bu halda bizim ruhdan hər hansı fərqimiz olmayacaq".

Türklərin zamanında imperiya qurduğuna diqqət çəkən A.Duqin həmin vaxt onların insan həyatını daha aşağı qiymətləndirməsinə diqqət çəkdi: "Onda insan həyatı daha aşağı qiymətləndirildi, nəinki ideallar, sədaqət, cəsarət, kişilik. Türklərdən kişiliyi və cəsarəti götürün, heç nə qalmayacaq. Ruslardan mistik inamı götürün, yenə heç nə qalmayacaq. Azərbaycanlıdan mənəvi dəyərlərini, dərinliyini götürün, heç kimə lazım olmayan taciri görəcəksiz və bu, heç kimə lazım deyil. Bu yaxınlarda bir konfransa iştirak etdim. Bir alman filosofu iddia edirdi ki, robotlar niyə daha çox lazımdır. Çünki robotlar vergini daha yaxşı ödəyəcəklər. Çünki onların strukturu elə qurulub. Həmin nəzəriyyə ilə robotlar daha məsuliyyətli vətəndaş, daha bacarıqlı, intizamlı işçi sayıla bilərlər. Onlar qanunu pozmurlar. Material-texniki qanunauyğunluqlar əsasında hərəkət etməli olsaq, nəinki türklərdən, ruslardan, farslardan, ümumən insanlıqdan heç nə qalmayacaq".



Konfransda bank işi, təhsil, enerji, heyvandarlıq, inşaat, müdafiə sənayesi, kənd təsərrüfatı, tekstil, turizm və nəqliyyat sektorlarında iki ölkənin işbirliyinin dərinləşdirilməsi yolları müzakirə edilib.

❑ **Musavat.com**

# Rusiya kəşfiyyatının rəhbəri Bakıya niyə gəlmişdi?

## Elxan Şahinoğlu: "Bu səfər iki amillə əlaqəli idi"

**Aprelin 24-də Rusiyanın Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkinin Azərbaycana səfər etməsi gündəmdən düşmür. Səfərin 11 apreldəki prezident seçkilərdən sonraya təsadüf etməsi və bu səfərin ardından ölkə başçısı İlham Əliyevin Türkiyəyə getməsi müzakirələri durmadan artırır.**

Xüsusilə səfər zamanı müzakirə edilən məsələlərin ictimaiyyətə açıqlanmaması suallar doğurur. Belə iddialar var ki, təcavüzkar Ermənistanda son günlərdə gedən inqilabi proseslərlə bağlı Narişkin ölkəmizə gəlib. Azərbaycanın işğal altında olan torpaqlarını azad etmək üçün əməliyyatlara başlaya biləcəyi ehtimallarını görən Kremlin rəsmisini Bakıya göndərdiyi iddiası da var. Bundan əlavə, Narışkinin Bakı səfərinin İ.Əliyevin Türkiyə səfəri ilə bağlı da ola biləcəyi ehtimal edilir.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** hesab edir ki, Rusiya kəşfiyyatının rəhbərinin Bakıya gəlişi qəfil olub: "Narışkinin Bakıya gəlişi əvvəlcədən planlaşdırılana oxşamırdı. Böyük ehtimalla bu səfər iki amillə əlaqəli idi, biri Ermənistan, o biri Türkiyə. Görüşün rəsmi hissəsi haqqında xəbərlərdə deyilir ki, Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olunub, əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Ancaq Sergey Narışkini Azərbaycana gəlməyə məcbur edən səbəblərdən başlıcası qonşu Ermənistandakı vəziyyətdir. İki ehtimal irəli sürülür. Birinci ehtimal odur ki, Kreml Azərbaycanın Ermənistandakı hakimiyyət boşluğundan istifadə edərək işğalçıya qarşı təzyiqini artıracağından ehtiyat edir. Böyük ehtimalla Kreml öz emissarını Bakıya ona görə göndərib ki, Ermənistanda yeni hakimiyyət formalaşana qədər işğalçıya qarşı təzyiqi artırmaqdan bizi çəkindirsinlər. Bunun qarşılığında Kremlin rəsmi Bakıya hansı vədi verdiyi maraqlıdır. İkinci versiya birinci versiyanın tam tərsidir. Yeni Kreml Ermənistandakı durumdan narazıdır və onun sözünə baxmayan yeni qüvvələri Azərbaycan ordusunun hansısa həmləsi ilə cəzalandırmaq istəyir. Doğrusu, mən daha çox birinci versiyaya üstünlük verirəm. Çünki Rusiya bilir ki, Ermənistanda hakimiyyətə gələn istənilən qüvvə onun maraqları ilə hesablaşmalıdır. Belədirsə, Moskva Ermənistanın yeni hakimiyyətini Azərbaycan ordusunun hücumuna seyrçi qalmaqla niyə cəzalandırsın ki? Narışkinin Bakıya səfərinin Türkiyə əlaqəli hissəsi də ola bilər. Məsələ burasındadır ki, İlham Əliyev Narışkinlə görüşdən bir gün sonra Türkiyəyə rəsmi səfərə getdi. Kreml İlham Əliyevin Türkiyəyə səfər tarixini bilirdi. Ankara və Bakı Moskva ilə dialoqu artırıb Kremlin Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirməsinə təşviq edə bilərlər. Moskva, hələ ki, Qarabağ münaqişəsinin həllinə maraq göstərmir. Ancaq Ermənistanda baş verən son hadisələrin fonunda, o cümlədən Azərbaycan və Türkiyə ilə tərəfdaşlıq fonunda müəyyən addımlara üstünlük verə bilər. Ancaq bunun baş verməsi üçün Moskva Azərbaycanın, Türkiyənin və Ermənistanın Rusiyanın yanında olmasını, Rusiyaya qarşı Qərbin yanında yer almamasının təminatını istəyə bilər. Belə bir vədin verilməsi, çətin olsa da, hər halda Ankara-Moskva-Bakı formatında dialoq intensivləşə bilər".



Sergey Narışkin

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 91 (6980) 27 aprel 2018

**Azərbaycanla Avropa Şurası arasında əlaqələr yenidən gərginləşməyə doğru gedir. AŞ PA-nın yaz sessiyasının aprelin 26-da keçirilən iclasında gündəliyə qurumun daxilindəki korrupsiya hallarının olması barədə məsələnin salınması və orada Azərbaycanın insan hüquqları və azadlıqlarla bağlı problemlərin susdurulması yönündə "bazarlıq" etdiyi barədə ittihamın olması münasibətləri ən kritik həddə çatdırıb.**



# Avropa Şurasında Azərbaycanla bağlı kritik müzakirələr

## Nümayəndə heyətinin rəhbəri Səməd Seyidovdan sərt mövqe: "Mən belə Avropa Şurasında təmsil olunmaq istəmirəm"

Bundan əlavə, AŞ PA-nın 24 deputatı baş katib Torbörn Yaqlandı Azərbaycanda siyasi məhbuslar haqqında hesabata yenidən qayıtmağa çağırması "odun üzərinə benzin töküb". Yaz sessiyasında **nümayəndə heyətimizin rəhbəri Səməd Seyidovun** Müstəqil Araşdırma Qurumunun korrupsiyaya dair hesabatı barədə müzakirələrdəki çıxışı məsələnin nə qədər ciddi olduğunu göstərib. S.Seyidov deyib: "Mən Azərbaycanı təmsil etməklə fəxr edirəm. Düşünürəm ki, mənim ölkəmi rüsvay etməyə dair istənilən cəhdin özü korrupsiyadır. Təxminən bir ay əvvəl bu zalda siz Serj Sərkisyanı alqışladınız. Lakin o, iki gün əvvəl korrupsiyaya görə erməni xalqı tərəfindən hakimiyyətdən qovuldu. Hanı onu burada demokrat kimi təqdim edənlər?

Azərbaycan müharibə vəziyyətində yaşayır. Ərazimizin bir hissəsini itirmişik, 1 milyona yaxın məcburi köçkünümüz var. Biz təşkilata gəlmişik ki, hüququn aliliyini görək. Lakin burada yeni beynəlxalq hüquq görürük. Mənim adım da korrupsiyaya dair siyahıdadır. Halbuki araşdırma orqanı deyib ki, mənim korrupsiya ilə əlaqəm yoxdur. Mənim dünyanı başa salmağım çətindir ki, niyə adım bu sənəddə göstərilir? Bu, ədalətsizlikdir. Biz adımız üçün mübarizə aparacağıq və qalib gələcəyik. Mən illər əvvəl demişdim ki, bu bizim Avropa Şuramızdır. İndi isə deyirəm ki, bu sizin Avropa Şuranızdır. Mən belə Avropa Şurasında təmsil olunmaq istəmirəm".

Məlumat üçün bildirək ki, AŞ PA-nın Müstəqil Araşdırma Qurumu təşkilat daxilində korrupsiya faktları ilə bağlı hesabat hazırlayıb. Hesabatda Azərbaycanla münasibətdə korrupsiya faktı ilə bağlı Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, həmməruzəçilər Stefan Şennak, Sezar Florin Preda, keçmiş AŞPA sədri və keçmiş Azərbaycan üzrə həmməruzəçi Pedro Aqramunt, parlamentar Yordi Çukla və digərlərinin adı çəkilir.

Ekspertlər gərginləşən münasibətlərin artan xətlə gedəcəyini düşünürlər. Hökumətin may ayında geniş amnistiya qəbul edəcəyi və əfv sərəncamı imzalayacağı ehtimallarının yüksək olduğu bir zamanda AŞ PA-dan Azərbaycana yönəlik bu cür münasibətin göstərilməsi birmənalı qarşılanmır.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** bildirdi ki, Azərbaycanla Avropa Şurası arasındakı münasibətlər dalğavari mənzərə yaradır: "Prosesləri aktiv şəkildə izləyən və obyektiv dəyərləndirən, demokratiyanın inkişafı, vətəndaş cəmiyyətinin quruculuğu ilə bağlı atılan addımları düzgün qiymətləndirənlər bir qayda Azərbaycana qarşı ədalətli mövqe sərgiləyirlər. Amma, çox təəssüflər olsun ki, bu, həmişə belə deyil. AŞ PA-da rəhbərliyin dəyişməsi, ayrı-ayrı ölkələrdən tərkibə müxtəlif şəxslərin gətirilməsi və yeni tərkibdə anti-Azərbaycan deputatlarının yer alması bu cür vəziyyət yaradır. Orada söylənilən fikirlər həqiqəti əks etdirmir. Azərbaycanda insan haqları, siyasi məhbuslarla bağlı Avropa Şurasının, eyni zamanda ölkəmizə gələn məruzəçilərin hesabatlarında yaxşı yadımdadır ki, normal münasibətlər sərgiləyirdilər. Bunun keçirilən görüşlərdə də az şahidi olmamışıq. İndi isə tamam başqa bir vəziyyətin şahidi oluruq. Çox istərdik ki, Avropa Şurası bu cür qərəzli

### Mirvari Qəhrəmanlı: "AŞ PA-nın özündə təmizləmələr aparılmalıdır"

mövqedən uzaq dursun. Gözlənilirdi ki, Azərbaycanda 28 maya, yeni Xalq Cümhuriyyətinin yüz illik yubileyinə qədər geniş amnistiya verilsin. Belə bir vəziyyətdə onlar yenə də Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirməklə böyük ədalətsizliyə yol verirlər. Dövlətimizin güclənməsi, xüsusilə aprelin 11-də yüksək səviyyədə prezident seçkilərinin keçirilməsi, xalqımızın yüksək səviyyədə iradə nümayiş etdirməsi və İlham Əliyevin bir daha prezident seçilməsi Avropadakı ayrı-ayrı qüvvələr tərəfindən qəbul olunmur. Ona görə də ən müxtəlif yollarla bizə qarşı qərəzli mövqelər ortaya qoyurlar. Yaz sessiyasının gündəliyinə salınanlar da bunun bir nümunəsidir. Ümidvaram ki, Avropa Şurasında ədalətli mövqeyə qayıdılacaq, konkret faktlara söykənən münasibətlər ortaya qoyulacaq. Orada Azərbaycanın dostları da var. Bu dostlar ölkəmizdəki həqiqi mənzərənin digər deputatların diqqətinə çatdırılmasında iradə nümayiş etdirəcəklərinə inanıram. Gələcəkdə də Avropa Şurası bu qərəzli münasibətlərini davam etdirəcəksə, Azərbaycan buna uyğun adekvat addımlarını atacaq. Əminəm ki, Avropa Şurasındakı sağlam qüvvələr qalib gələcək və Azərbaycana qarşı qərəzli münasibət əhəmiyyət daşımayacaq".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı** bir müddət əvvəl də oxşar situasiyasının yarandığına işarə vurdu: "5-6 ay bundan əvvəl AŞ PA-dan çağırışlar gəlirdi ki, Azərbaycana qarşı sanksiya tətbiq olunacaq, yaxud da Avropa Şurasından ölkəmiz çıxarılacaq. O zaman dediyim kimi bir daha deyirəm ki, Azərbaycana qarşı heç bir sanksiya tətbiq edilməyəcək. Ona görə ki, TANAP və TAP layihəsi demək olar sona çatır. Bu layihələr qazla bağlı Avropanın Rusiyadan asılılığını xeyli azaldacaq. Sanksiya tətbiq etmək üçün quruma daxil olan ölkələrin səsi lazımdır ki, bu, hazırda mümkünsüz görünür. Digər tərəfdən, amnistiya və əfvin qarşıdakı ayda veriləcəyi gözlənilir. Bunlar olarsa, bir xeyli siyasi məhbus azad ediləcək. Müzakirələr olacaq, amma ölkəmizə qarşı heç bir sanksiya və ya digər sərt qərarlar verilməyəcək. Korrupsiya ittihamına gəlincə, Səməd müəllimin çıxışı zamanı dediklərinə qulaq asdım. Onu deyə bilərəm ki, rüşvəti alana verirlər. AŞ PA-nın üzvü olanlar əgər Azərbaycandan rüşvət alıblarsa, bunu nə üçün edirdilər? Onların nə maraqları ola bilərdi? AŞ PA-nı təmsil edirsinizsə, yaxud məruzəçisinizsə, rüşvət almaqla sizlər də korrupsiyaya bulaşmısınız. Rüşvət alan da, verən də cəzalandırılmalıdır. Bütün dünyada belədir. AŞ PA-nın özündə təmizləmələr aparılmalıdır. Əvvəl öz deputatlarını rüşvət və korrupsiyadan uzaq tutmalıdırlar. Düzdür, hökumət siyasi məhbus anlayışını qəbul etmir, lakin siyasi məhbus var. Bu problem həllini tapmalıdır. O da reallıqdır ki, siyasi məhbuslarla bağlı şişirdilmiş siyahılar mövcuddur. Həm əfv, həm də amnistiya olmalıdır. AŞ PA bilir ki, Azərbaycan siyasi məhbuslarla bağlı ciddi qərarlar verməyə hazırlaşır. Bu baxımdan gözləməli idilər ki, Azərbaycan müəyyən addımlar atsın. Bunlar olmasa, müəyyən addımlar atardılar. Bu baxımdan məsələnin yaz sessiyasının gündəliyinə salınmasının özü şübhələrə yol açır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Müxalifət nə mitinq etmək, nə də cərimələnmək istəyir

## Bəs cəza tədbirləri nədən artırılır?



**Azərbaycanda mitinq, küçə yürüşləri, nümayiş, piket və digər kütləvi tədbirlərin keçirilməsi ilə bağlı qadağaları pozanların cəzasını artıran qanun layihəsi hazırlanıb. Layihədə İnzibati Xətalar Məcəlləsinə yeni maddənin əlavə edilməsi və sözügedən pozuntuya görə həm cərimələrin, həm də həbs müddətinin artırılması nəzərdə tutulur. Layihəyə əsasən, yığıncaqlar, mitinqlər, küçə yürüşləri, nümayişlər və piketlərin, habelə digər kütləvi tədbirlərin keçirilməsi ilə bağlı qoyulmuş qadağa və ya məhdudiyyətlərə əməl olunmamasına görə fiziki şəxslər 300 manatdan 500 manata qədər cərimə edilməli və ya işin halları, pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla 30 günədək müddətdə inzibati həbs cəzası almalıdırlar.**

Layihədə eyni əmələ görə vəzifəli şəxslərin 600 manatdan 900 manata, hüquqi şəxslərin isə 4000 manatdan 6000 manata qədər cərimələnməsi təklif edilir.

Layihənin may ayının əvvəllərində Milli Məclisdə müzakirəyə çıxarılacağı gözlənir.

İnzibati Xətalar Məcəlləsinə yuxarıda qeyd olunan dəyişiklik və əlavənin həyata keçirilməsi cərimələrin 10 dəfəyə yaxın, həbs müddətinin iki dəfə artırılması deməkdir.

Müxalifətin onsuz da son illərdə razılaşdırılmamış aksiyalar keçirməməsi bəllidir. O zaman cəzanın sərtləşdirilməsi hansı zərurətdən meydana gəldiyi maraqlıdır.

*Müxalifət düşərgəsi qanunun sərtləşdirilməsini necə qarşılayır?*

**AĞ Partiyanın sədri Tural Abbaslı** bildirdi ki, qanunvericilikdə belə sərtləşdirmə siyasəti ilk hal deyil. Əgər diqqət etsək görərik ki, bu siyasət YAP hakimiyyəti dönəmində artan istiqamətdə davam edib. Bu gün də bu davam edir. Cəmi bir neçə il bundan öncə də İnzibati Xətalar Məcəlləsində dəyişiklik edərək cərimə və həbs müddətlərini 10 dəfəyə qədər artırmışdılar. Bu dəyişikliklərin ictimai asayişi və stabilliyi qorumaq üçün deyil, məhz öz iqtidarlarını qorumaq üçün edildiyinin sübutu dəyişiklik olan maddələrdə özünü açıq şəkildə göstərir: "Analiz etsək görərik ki, sərtləşdirmə ancaq insanların konstitusion hüquqları olan sərbəst toplaşmaq azadlığını və bunun müxtəlif formalarını əks etdirən maddələrdə edilib. Bu bir daha dəyişiklikdə niyyətin nə olduğunu ortalığa qoyur. Hazırda Azərbaycanda istər müxalifətin təşkilatçılığı ilə, istərsə də əhalinin özü tərəfindən kortəbii şəkildə təşkil olunan razılaşdırılmamış etiraz aksiyaları keçirilmir. Ancaq regionda daxili stabillik çox kövrəkdir. Hakimiyyət düşərgəsi də dediyim bu halları görür və analiz edir və qanunda bu istiqamətdə, belə demək mümkündürsə, preventiv, önləyici addımlar atır. Bu qanunun müzakirəyə çıxarılması vaxtını da qətiyyən təsadüfi hesab etmək olmaz. Hökumət qonşuda baş vermiş hadisələrin daxildə dəyişiklik istəyən siyasi qüvvələrdə və ən əsası narazı elektoratda yarada biləcəyi inam və ruh yüksəkliyindən sığortalanmağa çalışır".

T.Abbaslının fikrincə, cəzaları sərtləşdirməklə ciddi etirazların qarşısını almaq taktikası həmişə müsbət effekt vermir. Daha möhkəm və uzunmüddətli stabillik təcili olaraq genişmiqyaslı islahatlara başlanmasından keçir: "Bu islahatlar siyasi arenanı, idarəçilik institutunu, iqtisadi sahəni, təhsili, səhiyyəni və s. əhatə etməlidir. Əks təqdirdə heç bir sərt qanunlarla həqiqi dayanıqlı stabilliyə və inkişafa nail olmaq olmaz. İnsanları etiraz vasitə və imkanlarını məhdudlaşdırmaqdan və cəzaları sərtləşdirməkdənsə, etiraza səbəb olan problemlərin həllinə başlamaq lazımdır".

**AMİP katibi Əli Orucov** isə bildirdi ki, kütləvi aksiyalarla bağlı qanunvericiliyin pozulmasına görə cəzaların sərtləşdirilməsi haqqında qanun layihəsi antidemokratik mahiyyətli dəyişiklikdir.

İnsanların sərbəst toplaşmaq haqqı onun konstitusion haqqıdır və bunun məhdudlaşdırılması beynəlxalq hüquq normalarına da ziddir: "Nazirlər Kabinetinin müəyyən qədər yeniləşdirilməsinin və yeni gənc kadrların yüksək postlara gətirilməsinin ardınca kütləvi aksiyalarla bağlı pozuntulara görə hüquqi məsuliyyətin sərtləşdirilməsi islahatlara və yeniləşməyə olan inamı zərbə altına qoyur. Bundan belə nəticəyə gəlmək olur ki, fundamental və əsaslı islahatlara gedilməyəcək. Sadəcə, kosmetik dəyişikliklər etməklə əslində köhnəlik qorunub saxlanacaq. Əks halda qanunda bu cür dəyişikliyə gedilməzdi. Ümid edirəm ki, hakimiyyət bu layihəni dayandıracaq. Partiya olaraq bu dəyişikliyin qəti əleyhinəyik və iqtidarı bu cür neqativ addımlardan çəkindirməyə çağırırıq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Abutalıbov kabinetini boşaltdı - mer sürpriz isim ola bilər

## Sabiq BŞİH rəhbəri Nazirlər Kabinetində 17 il əvvəlki görəvini icra edəcək; onun yerinə kim gələcək?



**Prezident İlham Əliyev aprelin 21-də Nazirlər Kabinetinin yeni tərkibi haqqında imzaladığı sərəncamla Bakı Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilən Hacıbala Abutalıbov baş nazirin müavini vəzifəsinə təyin olundu. Abid Şərifovun hökumətdəki yerini tutan H.Abutalıbov yenə də Bakıdakı tikinti-söküntü işlərinə, Bayılda və digər ərazilərdə sürüşmə zonalarındakı vəziyyətə cavabdeh olacaq.**

Yada salaq ki, A.Şərifov istefaya göndərilməmişdən bir neçə gün əvvəl "Sovetski" adlanan ərazidə yeni söküntülərin başlayacağının anonsunu vermişdi.

A.Şərifov demişdi ki, ərazidə yaşayan sakinlər köçürülmə ilə bağlı məlumatlandırılıblar. Mayın əvvəlindən "Sovetski"də köçürülmənin növbəti mərhələsinə başlanılacaq. Bu mərhələdə 2500-ə qədər evin sökülməsi nəzərdə tutulur. A.Şərifovun bu görəvini indi H.Abutalıbov icra edəcək. Yeri gəlmişkən, Abutalıbov 2000-ci ilin yanvar ayından 2001-ci ilin yanvar ayına qədər də baş nazirin müavini vəzifəsində çalışıb. Onun mer təyinatından sonra bu postu A.Şərifov tutub. Yəni prinsipcə, Abutalıbov köhnə iş yerinə və görəvinə qayıdıb.

"Yeni Müsavat" a verilən məlumata görə, H.Abutalıbov artıq kabinetini boşaldıb və sabiq merin əşyaları Nazirlər Kabinetinə daşınıb. İndi diqqətlər həm də Bakı meriyasında H.Abutalıbovun boşalan yerinə kimin təyin ediləcəyinə yönəlib.

Modern.az saytının məlumatına görə, hazırda Bakı Şəhər İcra Hakimiyyətinə faktiki olaraq Fidumə Hüseynova rəhbərlik edir. Məsələ burasındadır ki, Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyində 3 vəzifə var - başçı və iki müavin. Amma hazırda başçı və bir müavin vəzifəsi boşdur. Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Rauf Pənahov ötən ilin iyununda vəfat edib və onun yerinə də hələ təyinat olmayıb. R.Pənahov 2001-ci ildən Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini idi.



Hazırda Bakı Şəhər İcra Hakimiyyətində yeganə rəhbər şəxs olan Fidumə Hüseynova 2005-ci ildən şəhər merinin müavini vəzifəsində çalışır. O, uzun illərdir ki, BŞİH müavin postundadır. 2003-cü ilin yayında H.Əliyevin sərəncamı ilə müavin vəzifəsindən azad edilərək Binəqədiyə icra başçısı təyin edildi. Amma cəmi ik il sonra-2005-ci ildən yenidən BŞİH-ə qaytarıldı.

BŞİH-ə təyinatın ləngiməsi ilə bağlı ən müxtəlif iddialar var. Məlumdur ki, Azərbaycan Avropa Şurasına üzv olan yeganə dövlətdir ki, onun böyük şəhər bələdiyyəsi yoxdur. Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv qəbul edildiyi vaxt üzərinə götürdüyü öhdəliklərdən biri də iri şəhərlərdə böyük şəhər bələdiyyəsinin yaradılması idi.

Müxtəlif vaxtlarda bu məsələ gündəmə gətirilsə də, hələ də müsbət sonluqla nəticələnməyib. Bələdiyyələr Bakının 11 rayonunda yaradılıb. Amma Bakı Şəhər Bələdiyyəsinin yaradılması yubanır. Yaxın illərdə də Bakı Şəhər Bələdiyyəsinin yaradılması real olmadığı üçün təyinatın gecikməsinin, şübhəsiz ki, bununla əlaqəsi yoxdur.

Mer postuna ən müxtəlif adamların adı çəkilir. Məsələn, bir iddiada deyilir ki, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov mer ola bilər. O, həm də gənclər və idman naziri Azad Rəhimovun qudasıdır. SOCAR-ın vitse-prezidentlərindən birinin bu vəzifəyə gətiriləcəyi də deyilir. Səbayel RİH-in başçısı Eldar Əzizov, Nəsimi RİH-in başçısı Asif Əsgərov və Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin sədri Rəfail Mehrəliyevin adı da son günlər daha çox çəkilir.

Amma prezidentin son təyinatları bir daha göstərdi ki, medianın bu istiqamətdə cəhdləri əbəsdir. Bu səbəbdən də mer postuna sürpriz isim gətiriləcəyi daha çox gözləniləndir. Amma kim?

❑ **"Yeni Müsavat"**



# Ramiz Mehdiyev Soçidən çağırış etdi

## PA rəhbəri bir sıra mühüm görüşlər keçirib

**Soçidə təhlükəsizlik məsələlərinə nəzarət edən yüksək vəzifəli nümayəndələrin 9-cu Beynəlxalq görüşü keçirilir. AZƏRTAC xəbər verir ki, görüşdə 117 ölkə, o cümlədən Azərbaycan da təmsil olunur.**

Görüşü açan Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Rusiya prezidenti Vladimir Putinin təbrik məktubunu oxuyub, gündəliyə daxil edilən mövzular barədə məlumat verib.

Görüşdə ölkəmizi Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov və Prezident Administrasiyasının sektor müdiri Otari Qvaladze təmsil edirlər.

Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev təhlükəsizlik məsələlərinə nəzarət edən yüksək vəzifəli nümayəndələrin 9-cu görüşündə "Beynəlxalq terror təşkilatlarının strategiyası və taktikasının təkamülü" mövzusunda çıxış edib. Çıxışda beynəlxalq terrorçu təşkilatların fəaliyyətində müşahidə olunan son tendensiyalar barədə məlumat verilib, habelə bu destruktiv fəaliyyətin qarşısının alınması üçün bütün dövlətlərin səylərinin birləşdirilməsinin və terrorçuluğa münasibətdə ikili standartlar siyasətindən imtina edilməsinin vacibliyi vurğulanıb.

Ramiz Mehdiyevin Belarus Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas ilə görüşündə regionda və dünyada vəziyyət və təhlükəsizlik məsələləri təhlil olunub, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Bir sıra ölkələrin təhlükəsizlik şuraları katiblərinin, prezidentlərin və baş nazirlərin milli təhlükəsizlik üzrə köməkçilərinin, güc qurumlarının rəhbərlərinin iştirak etdikləri beynəlxalq görüşdə qlobal və regional təhlükəsizlik məsələləri müzakirə olunub. Diqqətə çatdırılıb ki, Soçi görüşü beynəlxalq təhlükəsizlik sahəsində çoxtərəfli əməkdaşlığın qurulması üçün əlverişli platformadır.

Qeyd edək ki, tədbir çərçivəsində Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevlə görüşüb. Nikolay Patruşev qeyd edib ki, Azərbaycanla Rusiya arasındakı əlaqələrin inkişafında xidmətlərinə görə Rusiya prezidenti Vladimir Putin Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin Rusiyanın "Şərəf" ordeni ilə təltif edilməsinə dair sərəncam imzalayıb. Nikolay Patruşev sərəncamı və ordeni Ramiz Mehdiyevə təqdim edib. Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Rusiya prezidentinin ona göstərdiyi yüksək diqqətə görə təşəkkürünü bildirib. Vurğulayıb ki, Rusiya-Azərbaycan əlaqələri dinamik inkişaf edir, ölkələrimiz arasında daim dialoq aparılır və bu işdə dövlət başçılarının mühüm rolu var.

# İşini itirən iki sabiq nazirlə bağlı ilginc iddialar

## Səlim Müslümov yolda öyrənib ki...; ləğv olunan Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sabiq sədri Ramiz Həsənov səfir göndərilə bilərmi?





**Prezident İlham Əliyevin Nazirlər Kabinetinin yeni tərkibi haqqında sərəncamı hələ də gündəmin əsas müzakirə mövzularından biridir. Vəzifəsini itirənlər sırasında Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənovun və əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun da adı var.**

Məlum olduğu kimi, R.Həsənovun rəhbərlik etdiyi Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ləğv olundu, funksiya və səlahiyyətləri 2 qurum arasında bölüşdürüldü.

Ramiz Həsənov İlham Əliyev ölkə prezidenti seçildikdən qısa müddət sonra isə əvvəlcə Azərbaycanın Gürcüstandakı səfiri vəzifəsinə təyin edilib. 2005-ci ildə isə o vaxt Agentlik olan, 2008-ci ildən Komitəyə çevrilən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə rəhbər gətirilib.

Azpolitika.az saytının iddiasına görə, Ramiz Həsənov yeni yaradılan Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin rəhbəri təyin edilə bilər. İkinci iddiaya görə isə, Ramiz Həsənovun yenidən əvvəlki sahəsinə qaytarılacağı, səfir kimi xarici ölkələrdən birinə göndəriləcəyi ehtimal edilir. Ramiz Həsənovun qardaşı Dursun Həsənov Azərbaycanın Gürcüstandakı indiki səfiridir, qayını Elxan Poluxov da uzun illərdir ki, diplomatik xidmətdədir.

"Mümkündür ki, Ramiz Həsənov Prezidentin etimadını itirdiyindən ona heç bir vəzifə verilməsin. Ekspertlər bu ehtimala daha çox üstünlük verirlər. Bu da Ramiz Həsənovun rəhbərliyi dövründə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən narazılığın artması, qurumun bir növ sahibkarların "qəniminə" çevrilməsi ilə bağlı ola bilər",- deyə bildirilir.

Saytın daha bir iddiası da ilgincdir. Bildirilir ki, sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov istefaya göndərildiyi barədə xəbəri doğulduğu Ağsu rayonuna gedərkən yolda alıb. Xəbər nazir üçün son dərəcə gözlənilməz, hətta sarsıdıcı olub. "Nazirin yenidən təyin olunacağına zərrə qədər şübhəsi yox idi. Çox rahat idi. Bu səbəbdən istefaya göndərilməsi xəbəri onu sarsıtdı",- deyə mənbə bildirib.

Mənbə həmçinin əlavə edib ki, "çox mötəbər" adamların təskinliyindən sonra S.Müslümov bir qədər sakitləşib.

Fəaliyyəti geniş əhali qruplarının diqqətində olan S.Müslümov nazir təyin olunduqdan sonra əlilliyin təyinatı və sair sahələrdə müəyyən dəyişikliklər həyata keçirildi. Lakin bunlar rüşvətxorluğun, qeyri-qanuni ödənişlərin qarşısını ala bilmədi. Əvəzində isə həqiqətən əlil olan şəxslərin əlilliyinin təsdiqi prosesi çətinləşdi. Eyni zamanda Qarabağ müharibəsində əlil olan şəxslərin avtomobil, mənzil növbəsinə götürülməsi prosesi, demək olar ki, tamamən dayandırıldı.

DSMF-nin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tərkibinə verilməsindən sonra S.Müslümovun rəhbərliyi ilə pensiya islahatlarının yeni mərhələsi başladıldı. Bu dəfə tətbiq edilən yeniliklər sayəsində isə həm pensiya yaşı artırıldı, həm də elə qaydalar müəyyən olundu ki, mütəxəssislərin fikrincə, indiki şərtlər daxilində, işləyən hər 100 nəfərdən 35-40 nəfəri ancaq o qaydalar əsasında pensiya ala biləcək.

Xatırladaq ki, Səlim Müslümovun yerinə 38 yaşlı Sahil Babayev təyin edilib.

Aprelin 26-da isə məlum olub ki, Səlim Müslümovun nazir olduğu vaxtında elan etdiyi müsabiqə ləğv olunub.

"Qafqazinfo" xəbər verir ki, müsabiqə haqda elan S. Müslümov vəzifədən azad olunmazdan bir gün əvvəl verilib. Müsabiqənin mövzusu "Sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi" olub və QHT-lər üçün nəzərdə tutulub. Tədbirin mayın 4-də keçiriləcəyi elan olunub.

Lakin nazirlik həmin müsabiqəni ləğv edib və bu gün rəsmi mətbuatda bu haqda elan yayıb. Tədbirin ləğv olunmasının səbəbləri açıqlanmayıb.

❑ **"YM"**



# Bir dəqiqəlik sükuta dəymədi?

Xalid KAZIMLI

**Ölkəmizin virtual cəmiyyəti çox amansızdır, ona qarşı gələn yanır.**

Bu cəmiyyət son illərdə, sosial şəbəkələrin populyarlaşması ilə formalaşdı, gün keçdikcə mütəşəkkilləşdi və indiki halını aldı.

Elə bir gün olmur ki, hansısa bir hadisə, yaxud kiminsə bir ehtiyatsız sözü burada müzakirə predmetinə çevrilməsin.

İndiyədək bu məkanda adı dillərə düşən, personası qınanılan, məzəmmət edilən, nəinki ölkədəki problemlərin başlıca səbəbkarı kimi göstərilən, "cümlə xəyanətlərə bais" sayılan onlarca adam olub.

Əslində burada heç kəsi durduğu yerdə topa tutmurlar, şəkli hədəf taxtasına yapışdırılan şəxslər mütləq ictimai mənafelərə toxunan, ayrı-ayrı sosial qrupları incidən sözlər demiş, hərəkətlər etmiş olurlar.

Problem ondadır ki, biz harada dayanmağı bacarmırıq, öz qınama-qısnama, tənbeh-tənə-məzəmmət etmə fəaliyyətimizdə sürətlə irəliləyir, sarı, qırmızı xətləri keçir, məsələyə insanların yeddi arxa dönəni qatır, fikirlərimizi təhqiramiz sözlərlə ifadə edirik.

Bir də baxırıq ki, kimsə adi, cavabı "elə deyil axı, müəllim" olacaq söz deyib, amma biz onun ağır şəkildə cəzalandırılmasını tələb edirik, adamın özünə ölüm arzulayırıq. Hətta adam vəfat etdikdə belə əl çəkmir, şəxsiyyətini təhqir etməkdən çəkinmirik.

Bunun bariz nümunəsi deputat Astan Şahverdiyevə münasibətdə oldu.

Vəfat etdiyi gündən bəri onu yaxından tanıyan bir neçə şəxs mərhum deputat haqqında "o kişi bu münasibəti haqq etmirdi, tamam fərqli adam idi" kimi sözlər eşidirəm.

Mərhum deputatın dilindən səslənmiş bir ehtiyatsız, redaktəsiz ifadə onu ölkənin ən arzuolunmaz adamlarından birinə çevirmişdi.

Bu, ona görəydi ki, ölkədə onun sözünün toxunmadığı bir ailə, bir adam belə qıraqda qalmamışdı. Rusiyada hər kəsin yaxın qohumları var axı.

Fəqət bir professor heç də Rusiyada yaşayanların hamısını nəzərdə tutub elə söz deməzdi. Bu, mümkün deyil. Ona qalsa, hər gün sosial şəbəkədə belə statuslar oxuyuruq: "Bu gün hamı bu düşük mövzudan yazır". Halbuki heç də hamı yazmır, "o düşük mövzu"ya dair heç bir fikir bildirməyən minlərlə adam var.

Yəni bizim camaat hər şeyi ümumiləşdirərək, danışmağı, yazmağı sevir. Güman ki, deputat Şahverdiyev də öz tanıdığı və gerçəkdən də Rusiyada qəbahət əməllər (qarət, qətl, zorlama, dələduzluq) törədərək millətin adını batıranları nəzərdə tutmuşdu. Onun namusuyla pul-para qazanan adamlarla nə problemi ola bilərdi ki?

Ancaq sosial şəbəkə fəalları ona manevr etmək, sözünü düzəltmək, konkretləşdirmək imkanı vermədilər, söydükcə söydülər, təhqir etdikcə etdilər, üstünə ad qoydular... İndi o adam artıq həyatda yoxdur.

Əslində Astan Şahverdiyev çox bəxtsiz adam imiş. Ola bilər ki, həyatının əvvəli yaxşı gətirmişdi, gənc yaşından pul, şöhrət qazanmış, yaxşı, rahat işlərdə çalışmışdı, amma ömrünün sonu faciələr və sıxıntılarla keçdi.

Çox adam bilmir, müəllimin deputat yoldaşları parlamentin iclasında onun xatirəsini bir dəqiqəlik sükutla yad etməyiblər.

Birinci dəfə bu, yeni baş nazirin təyin olunmasına həsr olunmuş plenar iclasda baş verməyib, ikincidə də yada düşməyib. Bundan əvvəl vəfat etmiş deputatların hamısı üçün sayğı duruşu olub, ancaq həmkarları Şahverdiyev üçün toplam 10-15 saniyə çəkən "bir dəqiqəlik sükutu" rəva görməyiblər.

Bu, vəfasızlıq deyil, adi etinasızlıqdır. Dünənə qədər sözü-söhbəti hər yerdə gedən insan ölür və dərhal da unudulur. Artıq nə onun özü, nə də xatirəsi heç kəsə lazım deyil.

Əlbəttə, həmin gün hamının başı yeni təyin edilən baş nazirə, digər yeni nazirlərə qarışmışdı, bir çox deputatlar onlarla qura biləcəkləri münasibətlər haqda düşünürdülər.

Ya yüksək vəzifəyə təyin edilənlərdən biri də Astan Şahverdiyev olsaydı...

Bax, onda görərdik ki, onun şəxsiyyətinə dair necə bəlağətli sözlər səslənir, təriflər dilə gətirilir. Elə olsaydı, onda deputatın dilindən səslənmiş o bədnam söz də unudulub gedərdi, əksinə, bəzi məddahlar deyərdilər ki, müəllim sözü həmişə açıq deyən, cəsarətli adamdır.

Bu da bizim xasiyyətimizdir, aşağı-yuxarı beləyik.

Bircə bir adamın üstünə elliklə düşmək vərdişimizi tərgidə bilsəydik... Heç birimizin nəsə bir ehtiyatsız söz deyən adama mütləq cavab vermək kimi öhdəliyimiz yoxdur, belə sözlərə məhəl qoymamaq hüququmuz da var. Hər kəs əmin olsun ki, xalqa, millətə, sosial qruplara qarşı söz deyənin cavabını tutarlı şəkildə verən adamlar var, sadəcə, onların cavabı ümumi xorda eşidilməz olur.

**2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın-Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olacaq. 2017-ci il mayın 16-da Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında sərəncam imzalayıb.**

# Rəsulzadənin məzarı önündə dövlət tədbiri təklifi

## Müxalifət təşkilatları cümhuriyyət qurucusunun məzarını ziyarət edə bilər




Bu tarixi hadisənin həm də Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin Türkiyənin paytaxtı Ankara şəhərindəki Əsri qəbiristanlığındakı məzarı önündə də dövlət səviyyəsində qeyd edilməsi, oraya yüksək dövlət rəsmilərinin də iştirakı ilə nümayəndə heyətinin getməsinə ehtiyac olduğu təklifləri irəli sürülməkdədir.

**Bütöv Azərbaycan Xalq Cəbhəsinin sədr müavini, politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a** bu barədə açıqlamasında bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi dünyada yaşayan bütün azərbaycanlılar, bütövlükdə türk dünyası üçün böyük tarixi hadisədir, bayramdır. Cümhuriyyətimizin 100 illiyi siyasi hakimiyyətlərin, partiyaların bayramı deyil, Azərbaycan dövlətinin bayramıdır. Bu baxımdan Məhəmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Nəsib bəy Yusifbəylinin və bütün cümhuriyyət qurucularımızın məzarları önündə tədbirlər keçirilməli, onların Azərbaycan xalqı qarşısındakı müstəsna tarixi xidmətləri xatırlanmalıdır: "Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan Respublikasının sələfidir. Bir oğul ata-babasının mirasına, ənənəsinə, xatirəsinə necə sahib çıxırsa, biz də Cümhuriyyətimizə eləcə sahib çıxmalıyıq".

**Yeni AXCP-nin sədri Razi Nurullayev** isə bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti böyük öndər Məhəmməd Əmin Rəsulzadənin adı ilə xarakterizə olunur. Bunun üçün də Rəsulzadə şəxsiyyətinə tam önəm vermədən, onun adını bir neçə yerdə əbədiləşdirmədən, Bakının görkəmli yerlərinin birində abidə qoymadan, dövlət səviyyəsində onun məzarını Ankarada ziyarət etmədən bayram tədbirləri çılpaq görünər: "Biz Məhəmməd Əmin Rəsulzadə və digər qurucu atalara layiqli və xalqın da razı qalacağı önəmin verilməsini istəyirik. Daha iki vacib məsələni də qeyd etmək istəyirəm. Birincisi, Cümhuriyyətimizin 100 illiyinin qeyd olunması, planlaşdırılması və iştirakı məsələlərində normal və sağlam müxalifətin olması çox vacibdir, həm də zərurətdir. İkincisi, bu il həm də Azərbaycanın azadlıq simvolu olan Əbülfəz Elçibəyin 80 illik yubileyidir. Bu tarixi hadisənin də bu il paralel olaraq dövlət səviyyəsində keçirilməsinin tərəfdarıyıq. Biz əlimizdən gələni edəcəyik, amma əlimizdən çox şeyin gəlmədiyi də aşkardır. Müxalifət təşkilatları da Rəsulzadənin məzarını ziyarət etməklə Cümhuriyyətin 100 iliyini onun məzarının önündə qeyd etsə daha yaxşı olar".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Cümhuriyyət medalı kimlərə verilsin?

## Şirməmməd Hüseynov: "Cümhuriyyət medalını prezidentə vermək lazımdır"

## Nəsiman Yaqublu: "Gördüyüm işləri medal üçün etməmişəm... "

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə medal təsis olunur. Bununla bağlı "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanuna dəyişiklik ediləcək və beləliklə də "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı təsis ediləcək.**





Bu medalla Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin varisləri və Azərbaycan Xalq Cümhuriyyəti irsinin tədqiqində və təbliğində, Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasında və inkişafında, ölkənin ictimai-siyasi həyatında xüsusi xidmətlərinə görə Azərbaycan vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif olunacaqlar.

*Maraqlıdır, bəs Cümhuriyyət medalına kimlər layiq görülə bilər?*

Cümhuriyyətin, M.Ə.Rəsulzadə irsinin öyrənilməsində, təbliğində xidmətləri olmuş **görkəmli alim Şirməmməd Hüseynov mövzu ilə bağlı "Yeni Müsavat"a** danışıb: "Əvvəla, medalla bağlı xəbərim yoxdur. Mən şəxsən özüm ömür boyu medal üçün yaşamamışam. İş görmək lazımdır, medal almaq yox. İndi sağ olsunlar, Cümhuriyyətlə bağlı medal yaradırlar".

"Cümhuriyyət medalına kimlərin layiq görülməsini istərdiniz" sualımıza isə alim bu cür cavab verib:

"Bu Cümhuriyyətə, dövlətə, millətə kim cani dildən işləyirsə, oğru, yalançı, fırıldaqçı deyilsə, bu dövləti qorumaq, möhkəmləndirmək, dünyada tanıtmağa çalışırsa onlara vermək lazımdır. Ən birinci isə bu medalı prezident İlham Əliyevə vermək lazımdır".

**Rəsulzadə irsinin araşdırmaçısı, tarixçi Nəsiman Yaqublu** isə məsələyə bu cür mövqe bildirib: "Gördüyüm işləri medal üçün etməmişəm. Təbii ki, kimə məsləhət bilərlərsə, ona da verəcəklər. Cümhuriyyət dövrünü kifayət qədər araşdıran ziyalılarımız var. Onlar bu yöndə kifayət qədər əziyyət çəkib, kitablar nəşr edib, ortalığa faktlar qoyublar. Bu cür insanların sayı az deyil. Həmin insanlara medal verilməsi mənəvi və hüquqi baxımdan düzgün olardı. Təbii ki, orden və ya medallar keçici bir məqamdır. Həmin medalı kiməsə versələr, o şəxs qəhrəman olmayacaq ki... Əsl qəhrəmanlıq odur ki, millət, vətən üçün çalışsın və ortalığa əsərlər qoysun, tarixi şəxslərin adını yaşatsın, Cümhuriyyətin zəngin irsini bugünkü nəslə çatdırsın və sairə.

Mən Cümhuriyyət haqqında ilk məqaləmi yazanda 1988-ci il idi. Həmin vaxtlar hələ sovet hökuməti var idi. Türkiyəyə, Almaniyaya gedib bu yöndə işlər aparırdım. O vaxt Möhsün Əliyev var idi, bu işləri ilk görən insan odur. O qədər iş gördü, axırda isə ömrü həbsxanalarda keçdi. Mən isə Rəsulzadə haqqında kitab yazanda, Ali Sovetin iclasında bir nəfər polkovnik ciddi şəkildə məsələ qaldırdı ki, "Nəsiman Yaqublu adlı gənc Rəsulzadəni təbliğ edir, bunun qarşısını almaq lazımdır".

Hazırda Cümhuriyyətin yüz illiyi yaxınlaşır. Ondansa əməli iş görülsün. Məsələn, niyə Azərbaycanda Cümhuriyyətlə bağlı beynəlxalq konfrans keçirilməsin? Sizcə, hansı yaxşıdır: sadəcə, kiməsə medal verilməsi, ya beynəlxalq konfrans keçirib, dünyanın aparıcı tədqiqatçılarını cəlb etmək? Mən ikinciyə üstünlük verirəm".

❑ **Xalidə Gəray, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 91 (6980) 27 aprel 2018



# "Təyyarə böhranından sonra çoxları elə düşünürdü ki..."

## **İlham Rəhimov:** "Türkiyə-Rusiya münasibətlərini gərginlik həddində saxlamaq istəyən qüvvələrin cəhdləri boşa çıxmaqdadır"

**Aprelin 26-da Türkiyənin Uluslararası İşbirliyi Platformunun təşkilatçılığı ilə Antalyada "Türkiyə-Rusiya iş adamlarının "Yüksələn Avrasiyada Türkiyə-Rusiya ilişkilərinin gələcəyi" mövzusunda keçirilən konfrans zamanı professor İlham Rəhimov Türkiyənin bir çox media qurumuna müsahibə verdi. Xatırladaq ki, sözügedən tədbirə ev sahibliyi edən, media dəstəyi verən qurumlar arasında "Yeni Müsavat" Media Qrupu da var. Musavat.com xəbər verir ki, müsahibədə "Dünya" qəzetindən Aydın Çaynak, eləcə də "Daily Sabah", "Star" qəzetləri, Anadolu Agentliyindən nümayəndələr iştirak edib.**

Türkiyə-Rusiya münasibətləri, təyyarə böhranından sonra bu iki ölkə arasındakı münasibətlərin düzəldilməsi prosesində İ.Rəhimovun iştirakına, eləcə də Rusiya-Türkiyə münasibətlərinin gələcəyinə dair suallar verilib.

***- Professor, siz Türkiyə-Rusiya münasibətlərinin indiki durumunu necə dəyərləndirirsiniz?***

- Çox yüksək dəyərləndirirəm. Asanlıqla deyə bilərik ki, bu münasibətlər yüksəliş dövrünü yaşayır. Fikir verməsinizsə, iki ölkə arasındakı münasibətlərin istiləşməsi Vladimir Putin hakimiyyətə gələndən sonra başladı. Məhz o, baş nazir olaraq iki ölkə arasında uzun illər davam edən buzları əridərək Türkiyəyə səfər etdi. Bu siyasət onun prezidentliyi dönəmində də davam etdi və bu gün gördüyümüz mənzərə xeyli ürəkaçandır. Prezident Ərdoğanın da bu məsələdə mövqeyi yüksək qiymətləndirilməlidir. Hər iki liderin yaxınlaşma siyasəti artıq öz bəhrəsini verməkdədir. Tarixdə də iki xalq arasında münasibətlərin çox yaxın olduğunu görə bilərik. Hətta aralarında bir neçə dəfə qanlı savaşlar olmasına baxmayaraq... Hakimiyyətlər arasında münasibətlər soyuq olduqda belə, iki xalq iç-içə yaşamını davam etdirib. İki ölkə iş dünyasının zirvə görüşünə ev sahibliyi edən Antalya şəhəri xalqlar arasında isti münasibətlərin simvolu sayıla bilər. Ortaq nikahlar, iş, sənət dünyasındakı münasibətlər rus-türk ilişkilərinin yüksələn xətt üzrə davam etdiyini sübut edir. 2029-cu ildə ticarət həcminin 100 milyard dollara çatdırılması hədəfi var. Buna çatmaq üçün iş dünyası təmsilçilərinin göstərdiyi səylər diqqətəlayiqdir. Görünür, bu səbəbdən də Türkiyə-Rusiya münasibətlərini gərginlik həddində saxlamaq istəyən qüvvələrin cəhdləri boşa çıxmaqdadır.

***- Amerika Birləşmiş Ştatlarının Rusiyaya tətbiq etdiyi embarqolar rus iş adamlarının biznesinə ciddi təsir göstərməkdədir. Siz iş adamı kimi bu embarqolardan nə qədər ziyan çəkirsiniz?***

- Ortaqlarım Rusiya vətəndaşları olduqları üçün ABŞ-ın embarqo siyahısında onların da adı var. Mən Azərbaycan vətəndaşı olduğum üçün "Maqnitski siyahısı"ndan kənaram.

***- Ortaqlarınız hansı fəaliyyətlərinə görə bu siyahıdadırlar?***

- Ümumiyyətlə, bu siyahının hansı əsaslarla hazırlandığını anlamaqda çətinlik çəkirəm. Çünki Rusiyadan o siyahıya elə adamların adı salınıb ki, siyasətdən tamamilə kənardırlar. Sadəcə, kimin 1 milyard dollardan artıq vəsaiti var, adı "Maqnitski siyahısı"na salınıb. Bu, absurddur.

***- Türkiyə iki ölkə arasında münasibətlərdə hansı həssas nöqtələrə diqqət etməlidir ki, yüksələn xətt qırılmasın?***



- Təyyarə böhranından sonra çoxları elə düşünürdü ki, Rusiya-Türkiyə ilişkilərini normallaşdırmaq artıq mümkün olmayacaq. Ancaq iki lider çox dözümlü davranaraq təkcə iki ölkə deyil, bütün region üçün çox önəmli yaxınlaşma qərarı verdilər. Münasibətlərə iki yöndən - siyasi və iqtisadi prizmadan baxmaq gərəkdir. Artıq iqtisadi münasibətlər də həmin yüksələn xəttə siyasi münasibətləri təqib edir. Avropanın qazla təmin edəcək boru xətti ilə 2019-cu ildə işə düşəcək, bundan başqa, atom enerjisi sahəsində işbirliyi, bundan başqa, kənd təsərrüfatı məhsullarının ticarətində yaxınlaşma onu deməyə əsas verir ki, bu prosesi dayandırmaq mümkün olmayacaq. Enerji layihələri ölkələri bir-birinə uzunmüddətli, özü də sıx bağlayan iqtisadi tellərdir, bu ilişkiləri pozmaq faktiki mümkün deyil. Ona görə də yaxın gələcəkdə iki ölkənin iqtisadi münasibətlərinin yalnız dərinləşməsi ilə bağlı proqnoz vermək olar. Siyasi tərəf isə, sözsüz ki, qlobal proseslərə bağlı məsələdir. Ola bilər iki ölkənin hansısa məsələyə baxışı fərqlidir. Bu, təbiidir, ancaq iqtisadi proseslərin bu siyasi gərilmələri də önləyəcəyi düşüncəsindəyəm. Rusiya-Türkiyə arasında qlobal problem olacağı ehtimalı çox azdır.

***- Türkiyənin bu gün Suriya məsələsində tutduğu mövqeni Rusiya necə qəbul edir?***

- Əgər bu siyasət Rusiyanı qane etməsəydi, Kreml mövqeyini ortaya qoyardı. Görünür, atılan addımlarla bağlı razılaşma var. Ümumiyyətlə, mənə görə, Rusiya ilə Türkiyə Suriya məsələsində qarşılıqlı müzakirə əsasında hərəkət etməlidir. Çünki Suriya iki ölkə arasında həssas nöqtədir.

***- Siz iş adamı olaraq Suriyanın yenidən qurulması prosesinə qatılmağı düşünürsünüzmü?***

- Mən tikinti ilə bir o qədər ciddi məşğul deyiləm. Bundan başqa, indi Suriyada yenidənqurma işləri ilə bağlı fikirləşmək çox tezdir. Ola bilər ki, gələcəkdə Suriyada inşaatdan başqa hansısa işlər meydana çıxar və bu, bizim gündəmimizə gələ bilər. Yaxın dönəmdə Rusiyanın iri şirkətləri Suriya ilə enerji müqavilələri bağlayıb. Hələlik Suriyada hər hansı iş qurmaq mənim və ortaqlarımın gündəliyində yoxdur. Unutmayaq ki, ortaqlarım yəhudi əsilli Rusiya iş adamlarıdır. Onların Suriyanın iş dünyasında təmsilçiliyə isti baxacağını yaxın dönəm üçün real saymıram. Bizim şirkət ortaqlığımızın hüquqi əsaslarına görə hər üçümüz - mən, ortaqlarım Qod Nisanov və Zahar İliyev bir məsələ ilə bağlı müsbət qərar verməsək, həmin işin həyata keçirilməsi mümkünsüzdür.

***- Bu gün Amerika Birləşmiş Ştatlarında Rusiyanın son seçkiləri Donald Trampın xeyrinə saxtalaşdırması ilə bağlı hüquqi araşdırmalar davam edir. Rusiyanın, özəlliklə prezident Putinin bu haqda düşüncələrini bizə açıqlaya bilərsinizmi?***

- Bu iddialar tamamilə əsassızdır. Bu fikri prezident Putin dəfələrlə səsləndirib. Rusiyanın seçkiyə müdaxiləsi ilə bağlı iddiaları sübut edəcək bir fakt belə yoxdur. Mən özüm də bu müdaxilənin necə olacağını təsəvvür edə bilmirəm. Əslində, Rusiya üçün Trampın, yoxsa xanım Klintonun seçkidə qalib gəlməsinin heç bir fərqi yox idi. İki qlobal gücün münasibətləri yalnız prezidentlərin kim olmasından asılı məsələ deyil.

***- Uçaq böhranından, Rusiyanın Ankara səfirinin qətlindən sonra Rusiya-Türkiyə münasibətləri dünya üçün çox gözlənilməz axarda yürüdü. Ümumiyyətlə, iki ölkə arasında münasibətlər istiləşən kimi Qərb əks addımlar atır. Sizcə, Qərb münasibətlərin qırılması üçün hansı addımları ortaya ata bilər?***

- Genəl olaraq götürsək, bu gün Rusiyanın da, Türkiyənin də Qərblə münasibətləri aşağı-yuxarı eynidir. Bəlkə, Rusiyaya basqı bir qədər artıqdır. Bir məsələni anlamaq gərəkdir ki, Qərb nə Rusiyanın, nə də Türkiyənin dünyada söz sahibi olmasını istəmir və bunun üçün çalışır. Bu durumda sıxışdırılan tərəf özünə dost, tərəfdaş axtarışında olur. Ona görə də iki ölkənin yaxınlaşmasının tətikçisi həm də Qərbdir.

**❑ Aygün MURADXANLI,**
**Antalya, Bələk**
**"Yeni Müsavat"**



# Qərbin postsovet məkanında yeni inqilab ssenariləri

## Ekspertlər deyir ki, yeni "məxməri inqilab" planları var, amma...

**Ermənistandakı gözlənilməz proseslər Qərbin postsovet məkanında inqilab ssenarilərindən vaz keçmədiyi barədə iddiaları yeniləyib. Ermənistandakı son "məxməri inqilab"dan sonra bu barədə hətta Belarus prezidenti narahatlıqla danışıb. Aleksandr Lukaşenkonun Ermənistandakı hadisələrə münasibət bildirərkən, belə proseslərin ölkəsində baş verməsinin mümkünsüz olduğunu söyləyib.**

**Politoloq Natiq Miri yeni inqilab ssenarilərinin hazırlandığı barədə iddialara inanmır:** "Əgər Ermənistandakı prosesləri nəzərdə tutursunuzsa, burada Qərb dairələrinin iştirakı barədə tutarlı faktlar yoxdur. Çünki proses boyu demək olar, Amerika başda olmaqla, Qərb dünyası səssiz qaldı. Sadəcə, bir neçə dişsiz bəyanatlarla çıxış etdilər ki, bunun hazırkı erməni iqtidarına təsirinin olduğunu demək yersiz olardı. Xalqın təzyiqi ilə Sərkisyan istefaya gedəndən sonra ABŞ Dövlət Departamenti və Avropa Birliyi səviyyəsində Qərb tərəfindən bəyanatlar səslənməyə başladı. Bu da hakimiyyətin dinc yolla təhvil verilməsi ilə bağlı idi. Bununla inqilabçılara, o cümlədən, lider Paşinyana mesaj verildi ki, əgər gələcəkdə maliyyə çətinlikləri barədə əndişə varsa, bu yöndə yeni hökumətlə əməkdaşlıq etməyə hazırıq. Şübhəsiz ki, bunlar inqilabçılara stimul verən bəyanatlar oldu. İstənilən halda Ermənistandakı prosesləri Qərb dünyasının hazırladığını demək doğru olmazdı. Bundan çıxış edərək deyə bilərik ki, hələ də Amerika, Avropa Birliyi və Qərb institutları səviyyəsində postsovet məkanında "Məxməri inqilab"ların başlanması üçün düymə basılmasına heç bir tutarlı əsas yoxdur. Çünki Amerikanın başı hazırda Suriyada baş verən hadisələrə qarışıb. ABŞ-ın hazırkı siyasəti postsovet məkanından daha çox İrana qarşı yönəlib. Hazırda Amerika üçün əsas prioritet məsələ Yaxın Şərq, Suriya və İrandır. Bu baxımdan MDB məkanında inqilablar etmək üçün Qərb hələ düyməni basmır. Ola bilsin ki, gələcəkdə strateji yöndə bu cür planlar qurulsun. Ola bilsin ki, Qərb gedən proseslərin hansısa bir mərhələsində düyməyə basılsın. Ermənistandakı proseslərdən çıxış edərək, ABŞ-ın digər MDB ölkələrində inqilab ssenariləri hazırladığını demək çox yanlış olardı".

**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli** tamamilə fərqli düşünür: "Fakt budur ki, Qərb Rusiyanın ən yaxın müttəfiqi Ermənistanda belə, Rusiyaya qalib gəlməsə də, ona önəmli zərbə endirərək inqilabın baş verməsində dolayısılə iştirak etdi. Nə vaxta qədər müasir dünya var, o vaxta qədər küçə etirazları önəmini itirməyəcək. Var Ağ inqilab, yəni yuxarılardan dəyişikliklər, var saraydaxili çevriliş, var hərbi çevriliş və bir də küçə inqilabı mövcuddur. Küçə inqilablarından Qərb 10 illərdir başqa ölkələrdə istifadə edir. O cümlədən də Rusiyaya qarşı bunu edir. Nəinki postsovet məkanı, Rusiyanın özündə də küçə inqilabından Kremlə qarşı istifadə oluna bilər".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# Orda bir ölkə var uzaqda

Zamin HACI
zaminhaci@gmail.com

*"Küləklər hirsini çəkir içinə,*
*Ətrini içinə çəkir çiçəklər.*
*Özünə qayıdır hər şey, özünə"*
(Ramiz Rövşən)

**Görkəmli demokratiya fədaimiz Hikmət Hacızadə ilə görüşməliydim (Bəyi yadda saxlayın, çünki mövzumuza onun da dəxli olacaqdır). Hikmət bəy şəhərin mərkəz hissəsində yaşayır. Ona ən yaxın metro stansiyası "Sahil"dir, ancaq mən yalnız qatar dayanmadan "İçərişəhər" stansiyasına şütüyəndə qərarımın necə yanlış olduğunu anladım. Qatar "Sahil"dən keçərkən bir qədər yavaşlamışdı, perrona göz gəzdirdim, orda ən azı bir neçə aylıq iş vardı. Deməli, yaxın zamanlarda oranın açılmasına bir quş. Axı bizdə metro tikintisi kosmosa uçmaq qədər ölçülüb-biçilir və hər hansı cupbulu eskalator təmiri adətən 1 ildən çox çəkir. Bizim bir keçid qayırdığımız müddətdə başqa ölkələrdə, yalan olmasın, yeddi stansiya açılır.**

"İçərişəhər"dən çıxıb kor-peşman "Sahil"ə qayıtmaq istərkən nələr çəkdiyimi, necə deyərlər, qarlı dağlar aşaraq, çox ellər dolaşaraq əzablara düçar olmağımı heç yazmıram. Şəhərin o tərəflərində hazır maşın ötüşdürmə yarışlarıdır, kimsə özünün uşaqlıqda maşın oyuncağına həsrət qalmasını bu minvalla yola verir. İkiqat məftil torlar, beton sədlər, tikanlı məftillər, asma dəmir keçidlər... Bircə əli avtomatlı əsgərləri də qüllə başına düzsən hazır sərhəddir. Əslində Bakının o hissələri artıq biz azərbaycanlılar üçün deyildir. Orada bizim nə iş yerlərimiz, nə evlərimiz, nə də əyləncə məkanlarımız qalmışdır. Bakı artıq matryoşka rus oyuncağının bir variantıdır. Çöl - Bayır şəhər var, orada bizim kimi yetim-yesirlər yaşayır. Daha sonra içəri, bahalı zolaq gəlir, burda varlı oliqarxlar, məmurlar kef eləyir. Bir də bunun hamısının içində İçəri şəhər var. Hamam hamam içində, xəlbir saman içində - folklor dilində yazsaq. Ya da görürdün belə olurdu: qəhrəman divi öldürmək üçün yumurtanı qırmalı, içindən çıxan quşu boğmalı, quşun qarnından nə bilim nə çıxmalı... Demokratiya yolumuz həmişə çətin və uzun olmuşdur - elə bayaq adını çəkdiyim Hikmət bəyin bir tərcümə toplusunun adını iqtibas eləsək...

Sözümün canı nədir? Hərdən bizdə "bakılı-kəndli" davası düşəndə mənim qıdığım gəlir. Son günlər yenə bələnçik bir axmaq qırışma düşübdür, səbəbkarı isə metroda plakat-reklam işinə baxan bir zənən xeylağı olmuşdur. Bu deyib metroda basabası kəndlilər yaradır, hamısı kəndi atıb şəhərə doluşubdur, kənd camaatı isə bunu yerin altına soxub çıxartmaq istəmir. Qırğın gedir. Sanki bu ölkənin kəndi və ya şəhəri bizim imiş, xəbərimiz yoxmuş. Əcəb gülməli adamlardır... Kəndə getsən inək saxlayıb kartof əkəsən - hamısı bir şirkətin, bir məmurun inhisarındadır. Mümkünatı yoxdur. Şəhərə də gəlsən - mənzərəni yuxarıda yazdım.

Əgər paytaxt metrosunda basabas olmasını istəmirsənsə, zəhmət çək metronu kənddə də qaz. Bu ideya bir dəfə Şəkidə deputat seçkisinə qatılan Hikmət Hacızadəyə məxsusdur. Hikmət bəy seçicilərlə görüşürmüş, onlar demokratiya, azadlıq, qanun və sairə söhbətlərinə birtəhər qulaq asandan sonra deyiblər ki, a bəy, bunları qoy qırağa, de görək bizə konkret vədin nədir. Deyiblər bax, səndən qabaq burda çıxış edən namizədlərin biri bizə ət verdi, o biri yağ payladı, üçüncüsü yolu yamadı, dördüncüsü söz verdi Şəkiyə qaz çəkəcək və sairə. Bəs sən bizdən ötrü nə edəcəksən? Hikmət bəy aşağı-yuxarı baxır, görür vəziyyət xarabdır, burda konkret vəd lazımdır, Miltondan sitat, Fransız inqilabından rəvayət, nə bilim, İsa Qəmbərdən afyorizmlə ötüşdürə bilməyəcəkdir. Soruşur: "Ay camaat, Şəkidə metro varmı?". Deyirlər yoxdur. Hikmət bəy təntənə ilə deyir: "Bax, məni deputat seçsəniz Şəkiyə metro çəkdirəcəyəm!"

Heyf ki, hökumət bu cür möhtəşəm plana imkan vermədi, bəyi parlamana buraxmadılar. Ancaq məsələ aktualdır. Kəndlini kəndli yerində oturmağa qoymursan, acından şəhərə doluşanda da "paşol" deyib qovursan. Olmaz belə. O cümlədən bakılı İnam Kərimovu kənd təsərrüfatı naziri qoyanda heç biz kəndlilər mıqq elədikmi? Halbuki metrodakı qızın məntiqiylə kəndlinin naziri məhz kəndli balası olmalıydı, palçığın, samanın, yoncanın, qoyun qığının, nə bilim, pambıq kolunun arasında yetişməliydi. Mal peyininin qoxusunu bir kilometrdən, eşşək südünün rəngini min rəngin arasından seçməli idi. Ancaq Strasburqda hüquq oxuyan adamı kəndliyə nazir qoyublar (Yaxşı da ediblər - bunu müzakirə eləmirik). O cümlədən fransız dili müəllimi gərək indi baş nazir olmazdı, repetitor işləyəydi. Deməli, bu söhbətlər dövlətçiliyimizə, kadr islahatlarına da ziddir.

Ümumiyyətlə, "hərə doğulduğu yerə qayıtsın" teması bir az da təhlükəli temadır, çünki adam var xaricdə doğulubdur. Onu neyləyək?



# Kreml Ermənistanla bağlı hərəkətə keçir - mühüm gəlişmə

## Patruşev məxfi şəkildə, bir neçə saatlığa İrəvana səfər etdi; Nalbəndyan və Gevorkyan Rusiyaya çağırıldı; İrəvanda etirazlar səngimir, parlament yeni baş nazir seçmək üçün xüsusi iclas çağıracaq; Paşinyan isə əks-inqilab anonsu verdi

**Ermənistanda etirazlar dünən də davam edib. Müxalifət lideri Nikol Paşinyan bəyan edib ki, yeni hökumət başçısı seçilməyənədək aksiyalar dayandırılmayacaq. O, tərəfdarlarını hakim Respublika Partiyasının hakimiyyətdən tam kənar edilməsinə nail olmayınca itaətsizlik aksiyalarını davam etdirməyə çağırıb. "Biz bu işi axıra çatdırmaq üçün daha bir addım atmalıyıq. İtaətsizlik aksiyası sabah (bu gün - red.) saat 12-də yenidən başlanmalıdır", - deyə o, xalqa müraciətlə bildirib.**

Etiraz aksiyaları Ermənistanın başqa şəhər və rayonlarında da keçirilib. Müxalifətin geri çəkilmək niyyətində olmadığını görən Ermənistan parlamenti isə mayın 1-də xüsusi iclas çağırıb. "Yeni Müsavat" erməni mətbuatına istinadən xəbər verir ki, bununla bağlı Ermənistan parlamentinin sədri Ara Babloyan açıqlama verib. Spiker deyib ki, ölkənin yeni baş nazirinin seçilməsi məsələsi də həmin iclasda həllini tapa bilər.

"Nikol Paşinyanın hakimiyyətə gəlişi Ermənistan üçün fəciəvi nəticələrə gətirib çıxaracaq". Bunu Avropanın Erməni İttifaqları Forumunun vitse-prezidenti, Ermənistan prezidentinin milli təhlükəsizlik üzrə baş məsləhətçisinin sabiq köməkçisi Vladimir Poqosyan deyib (Publika.az). Onun sözlərinə görə, Nikol Paşinyan indi artıq ciddi strateji səhvlərə yol verir və bu səhvlər qaçılmaz nəticələrə gətirib çıxara bilər. Poqosyan hesab edir ki, Ermənistanda bir sıra nazirlər, həmçinin Mərkəzi Bankın başçısı valyutanın ölkədən çıxarılmaması üçün vəzifələrindən kənarlaşdırılaraq həbs edilməli idilər. O, Paşinyanın boş xəzinəylə hakimiyyətə gələcəyini, ölkədə xaos vəziyyətinin yaranacağını iddia edib.

Keçmiş məmurun sözlərinə görə, Paşinyanın hakimiyyətə gəlmək üçün keçmiş prezidentlər Levon Ter-Petrosyan və Robert Köçəryan, həmçinin separatçıların lideri Bako Saakyanla sözləşməyə girdiyi barədə məlumatlar var. Poqosyan bildirib ki, bu üçlük öz hədəfləri üçün Paşinyandan istifadə edir.

Ermənistanda baş verənlərdən Rusiyanın narahatlıq keçirdiyi getdikcə daha aydın görünür. Aprelin 26-sı, səhər saatlarında Ermənistanın baş nazirinin müavini vəzifəsini müvəqqəti icra edən Armen Gevorkyan Moskvaya uçub. Ondan bir gün əvvəl Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan da təcili Moskvaya çağırılıb. Virtualaz.org xəbər verir ki, Nalbəndyanın Moskvaya getdiyini Ermənistan XİN rəsmən təsdiqləməyib, amma nazirin "ezamiyyətdə olduğunu" bildirməklə kifayətlənib. Analitiklərə görə, Moskva Ermənistanda qəfil vüsət alan xalq hərəkatının nəticəsində Serj Sərkisyanın hakimiyyətdə saxlaya bilməsə də, "Qazprom"un adamı Karen Karapetyanın heç olmasa keçid müddətində baş nazir postunu tutacağına ümid edirdi. Lakin Paşinyan hakimiyyətə ultimatum verib və ölkədə artıq hökumətin olmadığını elan edib. Nəticədə Moskvada Ermənistanın nəzarətdən çıxacağına dair narahatlıqlar artıb. Proseslər başlayandan bəri ilk dəfə Putin situasiyaya müdaxilə edib və Ermənistan prezidenti Armen Sərkisyana zəng vurub. Habelə Rusiya səfirliyinin diplomatları Paşinyanla danışıqlar aparıblar. O cümlədən erməni mənşəli rusiyalı oliqarxlar Paşinyana xəbər göndəriblər ki, Karapetyanı da devirməyə qədər gedib çıxmasın. Lakin fanatik Paşinyan bütün bu şərtləri rədd edib.

Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin isə gözlənilmədən, məxfi şəkildə bir neçə saatlıq İrəvana səfər edib. Paşinyan Rusiyanın Ermənistandakı səfiri İvan Volınkinlə görüşünün detallarını danışıb. Axar.az xəbər verir ki, RBK televiziyasına müsahibəsində Paşinyan görüşün öz təşəbbüsü ilə keçirildiyini bildirib.

Ermənistan paytaxtında yaşanan gərgin hadisələr işğalçı ölkənin təmsil olunduğu təşkilatlarla əlaqələrinə də təsir edib. Ermənilər həftə "Rus NATOsu"nun toplantısından da kənarda qalıblar. Musavat.com-un erməni mətbuatına istinadən yaydığı məlumata görə, Ermənistan nümayəndə heyəti Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Qazaxıstanın Almatı şəhərində keçirilən toplantısına qatıla bilməyib.

Bu arada keçmiş baş nazir Serj Sərkisyan Respublika Partiyasının parlament fraksiyasına məktub göndərərək onları görüşə çağırıb. Yayılan məlumata görə, Sərkisyan Respublika Partiyasının deputatları ilə görüşü zamanı partiyanın baş nazir vəzifəsinə irəli sürəcəyi namizədləri müzakirə edib (Axar.az). Erməni mənbələri onun görüşdə baş nazir postuna Karen Karapetyanla bərabər, İrəvan meri Taron Marqaryan və keçmiş prezident Robert Köçəryanın da namizədliyinin irəli sürülməsini təklif etdiyi bildirilir. Sərkisyanın bu təklifi partiyanın deputatları tərəfindən xoş qarşılandığı, Karapetyanın namizədliyini isə respublikaçıların heç də hamısının dəstəkləmədiyi iddia olunur. Sərkisyan partiya sədrliyindən getməyə də hazır olduğunu deyib. Məlumata görə, sədrin dəyişdirilməsi barədə müzakirələrə başlanması qərara alınıb.

*****

İşğalçı ölkədə yaşananların Azərbaycana nələr vəd etdiyi gündəmin əsas suallarındandır. "Azərbaycan indiki şəraitdə siyasi, iqtisadi və hərbi baxımdan Ermənistandan daha güclüdür. Bu da gələcək məsələlər üçün Bakıya çox böyük və vacib zəmin yaradır". Bunu Axar.az-a açıqlamasında **Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov** deyib. Politoloq təzliklə Ermənistanın strateji xəttində bölünmənin gedəcəyini və bununla da İrəvanın siyasətinin dəqiqləşəcəyini açıqlayıb. Sabiq nazir deyib ki, Paşinyanın həm daşnaklarla yaxınlığı var, həm də Levon Ter-Petrosyanla fikirləri üst-üstə düşür. "Azərbaycanın mövqeyinə gəlincə, biz bilirik ki, Ermənistanda hakimiyyəti kim ələ alsa, dərhal populist şüarlarla çıxış edəcək. Bu populist şüarlar isə ilk növbədə Dağlıq Qarabağa aid olacaq və Paşinyan artıq Qarabağ məsələsinə sərt mövqelər tələb edib. Bu da onu göstərir ki, geosiyasi baxımdan Ermənistanın vəziyyəti dəyişməyəcək. İrəvan Moskva ilə indiyə qədər necə bağlı olubsa, bu bağlılıq ən azı təhlükəsizlik məsələlərində bundan sonra da davam edəcək", - deyə T.Zülfüqarov bildirib. Politoloq Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyanın Moskvaya, Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin isə gözlənilmədən, məxfi şəkildə İrəvana səfərinə də münasibət bildirib: "Bu gediş-gəlişlər, təbii ki, texniki məsələlərdir, görünür, hansısa mövqelər dəqiqləşdirilir. Hər halda Azərbaycan indiki şəraitdə siyasi, iqtisadi və hərbi baxımdan Ermənistandan daha güclüdür. Bu da gələcək məsələlər üçün Bakıya çox böyük və vacib zəmin yaradır".

"Qarabağda, qısamüddətli də olsa, daha ağır nəticələrlə müşayiət oluna biləcək silahlı toqquşma olması riski çox yüksəkdir". Bunu isə **ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov** deyib. Hərbi ekspert bildirib ki, Rusiya siyasi-hərbi rəhbərliyi Ermənistanda öz vassalını qoruyub saxlamaq üçün Qarabağ kartından istifadə etməyi də mümkün variantlardan biri kimi işə salmağa hazırlaşır: "Tam ciddi olaraq Azərbaycan siyasi və hərbi rəhbərliyinə müraciət etmək istərdim ki, yaxın bir neçə gündə və həftələrdə son dərəcə ayıq-sayıq olmamız gərəkdir. Moskva Ermənistanda rəhbər seçimi məsələsində öz istəyinə nail olmaqda çox böyük çətinlik çəkdiyinə görə, ola bilsin cəbhədə yaxın saatlarda və günlərdə şiddətli toqquşmalar başlasın".

*Yazı çapa hazırlanarkən Ermənistanda aksiyalar davam edirdi. Nikol Paşinyan etirazçıları diqqətli olmağa çağırıb: "Biz ehtiyatlı olmalıyıq, çünki bəzi qüvvələr əks-inqilaba çalışır. Şəhərdə nömrəsiz avtomobillərin hərəkəti təsadüfi deyil. Onlar bununla əhali arasında narazılıq yaratmağa cəhd edirlər".*

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Ermənistanla bağlı "həqiqət anı" yaxınlaşır

**Ermənistanda hakim rejimə qarşı kütləvi hərəkat ikinci həftədir ki, fasiləsiz davam edir. Xunta başçısı Serj Sərkisyanın baş nazir postundan istefa verməsi ilə ilkin hədəfinə çatan müxalif hərəkat, gözlənildiyi kimi, artıq onun tam məntiqi sonluğa çatmasına, hərəkat lideri, qərbyönlü siyasətçi hesab edilən Nikol Paşinyanın baş nazir təyin olunmasına və Respublika Partiyasını əsas hakimiyyət rıçaqlarından məhrum edilməsinə çalışır. O üzdən hakim qüvvə də dirəniş göstərir.**



# "Lavrov gedir, Qarabağ qayıdır..." - Kremlin ilginc ssenarisi işə düşür

## Ermənistandakı olaylar Rusiyanı iki seçimdən birinə itələməkdədir; Azərbaycan Moskva üçün regionda əvəzedilməz tərəfdaşa çevrilə bilər, əgər...; rusiyalı analitikdən sensasiyalı iddia və proqnozlar...

Ölkədə vəziyyət kritik olaraq qalır. Hər an qan tökülə bilər, çünki prosesləri Rusiya da diqqətlə izləyir və işğalçı ölkənin onun nüfuz və təsir dairəsindən uzaqlaşıb Qərbə sarı getməsində maraqlı deyil.

*****

**Bəs, tutaq ki, Paşinyan baş nazir oldu, bundan sonra proseslər necə inkişaf edəcək? Ermənistanın taleyi, Kremlin taktikası necə olacaq, rus-erməni əlaqələrini, ən önəmlisi, Dağlıq Qarabağ məsələsini hansı perspektiv gözləyir?**

**Rusiyalı tanınmış analitik və tarixçi-alim Oleq Kuznetsov** bu xüsusda hadisələrin iki mümkün inkişaf ssenarisinin ola biləciyini düşünür. "Yeni Müsavat"ın məlumatına görə, bu haqda o, rusdilli vesti.az saytındakı məqaləsində yazıb.

"Birinci variant - inqilabi variant. Serj Sərkisyan öz postunu olduqca bacarıqlı təşkil edilmiş və Amerikayönlü müxalifətin idarə elədiyi xalq kütləsinin görünməmiş təzyiqi altında tərk elədi. Mənfi iqtisadi balansa malik bir ölkə üçün belə kütləvi narazılıq tam qanunauyğundur. Odur ki, heç bir kiçik zəmanət belə yoxdur ki, Sərkisyanın istefasından sonra mitinqlər azalmağa üz tutacaq. Etirazların təşkilatçıları və onların arxasında duran xarici sponsorlar indi əllərində effektli və əla təsir göstərən daxili siyasi təzyiq alətinə malikdir", - deyə analitik qeyd edib.

Onun sözlərinə görə, mitinq kütləsi qarşısında artıq bir dəfə sınan iqtidar ikinci dəfə də sına bilər və tələb edilən konkret siyasətçinin baş nazir olması ilə razılaşar: "Bax, onda, necə deyərlər, "həqiqət anı" başlayacaq və hamı anlayacaq ki, konkret olaraq hansı xarici sponsor Ermənistanda hakimiyyət dəyişikliyini təşkil edib və maliyyələşdirib".

Politoloq ardınca ikinci mümkün ssenaridən yazıb: "İkinci variant - konstitusiya variantıdır, ancaq az ehtimallıdır: həftə sonu üçün mitinq etirazları səngiyir və hazırda dövlət başçısı vəzifələrini yerinə yetirən Karen Karapetyan baş nazir seçilir - hansı ki, bütünlüklə Rusiyanın adamıdır. Onun namizədliyi Rusiyanın, Azərbaycanın və hətta Türkiyənin maraqlarına da cavab verir, nədən ki, hazırkı erməni siyasətçiləri arasında o, ən praqmatik, ən az siyasiləşən biridir, danışıqlara meyillidir və ideoloqlardan azaddır. Karapetyanın hakimiyyət zirvəsində təsdiqlənməsi isə onun hərəkat liderləri ilə nə dərəcədə dil tapmasından asılı olacaq".

Rusiyalı analitikə görə, hazırda Ermənistan Rusiya və ABŞ-ın geosiyasi, hətta geostrateji maraqlarının toqquşduğu meydandır: "Ermənistanda hakimiyyətə Amerikayönlü qüvvənin gəlməsi təkcə Rusiyaya yox, İrana da ciddi mənəvi zərbə olacaq. Yaddan çıxarmaq olmaz ki, İrəvanda sayca ikinci böyük səfirlik ABŞ-a məxsusdur və onun bu ölkədə təsiri çox böyükdür. Odur ki, mənə birinci ssenari daha real görünür, nəinki ikinci".

*****

Deməli, Ermənistanda Rusiyanın "quyruğu"nun tapdanması ehtimalı güclüdür. Nəzərə alsaq ki, işğalçı ölkədə iki Rusiya hərbi bazası, üst-üstə 5 minə yaxın rus hərbçisi var, Ermənistanın Türkiyə və İranla sərhədlərini ruslar qoruyur, bütövlükdə Ermənistan Moskva üçün bölgədə yeganə hərbi qaladır, o zaman Kremlin reaksiyasını çox gözləmək lazım gəlməyəcək. **Bu reaksiya necə olacaq?**

**Oleq Kuznetsov:** "Tamamilə mümkün ehtimal kimi Rusiya təsirinin Ermənistandan vurulub çıxarılması obyektiv olaraq Kremlin Güney Qafqaz siyasəti üçün iki ciddi nəticə doğuracaq: birincisi, erməni lobbisinin Rusiyadakı daxili siyasi proseslərə təsiri kəskin şəkildə azalacaq. Bu isə Rusiya hakimiyyətində iki əsas erməni lobbistinin - Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko və xarici işlər naziri Sergey Lavrovun vəzifədən getməsi ilə nəticələnə bilər.

İkincisi, Azərbaycan Cənubi Qafqaz məkanında Rusiyanın mehriban qonşuluq münasibətlərində olduğu yeganə ölkə kimi qalacaq və Kremlin Cənubi Qafqazda kiminlə dostluq eləməklə bağlı seçimi qalmayacaq. Bu halda ehtimal olduqca böyükdür ki, Moskva Azərbaycanı öz ərazilərini işğaldan azad eləməyə və "Arsax" terrorçu-qondarma dövləti məhv eləməyə stimullaşdıracaq. Bunun ardınca isə Moskva-Bakı-Ankara regional təhlükəsizlik üçbucağı qurulacaq və Güney Qafqaz, nəhayət ki, sabitliyə və təhlükəsizliyə qovuşacaq".

*****

Bunlar, əlbəttə ki, bir tanınmış rusiyalı tarixçi və analitikin proqnoz və gözləntisidir - hansıların ki, reallıqla əlaqəsi kifayət qədər güclü görünür. Onların nə dərəcədə gerçək olacağını isə, yəqin ki, çox gözləmək lazım gəlməyəcək. Hər halda Ermənistandakı proseslər öz finalına doğru gedir...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# ABŞ-ın yeni dövlət katibi Bakıya necə səfir göndərəcək?

## Dünyanın iki nəhəng rəqib ölkəsi Azərbaycanda səfirsizdir

**Azərbaycanda ABŞ-ın və Rusiyanın səfiri hələ də yoxdur. Rusiyanın göndərəcəyi səfirin adı bu yaxınlarda açıqlansa da, hələ ki, məsələ yekunlaşmayıb. Belə ki, Rusiya Dövlət Dumasının MDB, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə komitəsi Mixayil Boçarnikovun Azərbaycana səfir təyin olunmasını təsdiqləyib, lakin ölkə prezidenti hələ təyinat barədə sərəncam verməyib.**



ABŞ-ın səfiri Robert Sekuta isə bir aydır ölkəsinə gedib və Vaşinqton hələ də Azərbaycana səfir təyin etməyib.

Bir sıra ekspertlər hesab edir ki, ABŞ-ın səfir təyinatını gecikdirməsi yeni təyin olunan dövlət katibi Mayk Pompeonun vəzifəsinə təyin edilməməsi ilə bağlıdır. Yaxın zamanlarda səfirin kimliyi məlum olacaq. Yeni dövlət katibi postuna oturacağı gözlənilən M.Pompeonun fəaliyyətə başlamasının Azərbaycanla münasibətlərə necə təsir edəcəyi maraqla izlənməkdədir. Eyni zamanda Azərbaycana göndəriləcək yeni səfirin seçimində Pompeonun necə bir kadra üstünlük verəcəyi də sual yaradır. Azərbaycana göndəriləcək səfirin bu dəfə kəskin mövqeli fiqur olacağı ehtimalı varmı?

**Politoloq Elşən Mustafayev** "Yeni Müsavat"a bildirdi ki, ABŞ-Azərbaycan diplomatik münasibətlərində yeni səfirin təyinatında bu kimi gecikmələrin olması ilk dəfə deyil. Bir neçə dəfə bu hal baş verib və səfir səlahiyyətlərini müvəqqəti işlər vəkili həyata keçirib. Bu prosesin hələ bir az da uzanacağı istisna deyil: "Yeni dövlət katibi Pompeo rəsmi fəaliyyətə başlayandan sonra, yəqin ki, prosesə start veriləcək. Eyni zamanda dövlət katibinin səfirlik üçün müəyyən etdiyi namizədlərin Konqreslə də razılaşdırıması proseduru var. ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayzanın Konqresdə təsdiqinin problemlə üzləşməsi və uzanması da yadımızdadır. Göndəriləcək səfirin kimliyinə və mövqeyinə gəlincə isə, bu, ABŞ-ın Azərbaycan siyasətindən asılı olacaq. Yeni ABŞ xarici siyasət planlarından asılı olaraq, həmin planları həyata keçirtmək imkanlarına malik səfir də Azərbaycana göndəriləcək. O səbəbdən indidən yeni gələcək səfirin mövqeyinin necə olacağı ilə bağlı bir söz demək olmur. Adətən səfirin adı bəlli olandan sonra ilkin proqnozlar vermək olur. Çünki səfirin tərcümeyi-halı, öncələr harada və necə işləməsi və nəhayət diplomatik fəaliyyətinin azacıq araşdırılması ilkin fikirlər söyləməyə imkan verər. Odur ki, hər hansı fikir bildirmək üçün hələ bir müddət də gözləməliyik".

**Siyasi ekspert Yeganə Hacıyeva** isə bildirdi ki, hələ seçkilərdən öncə Donald Trampın prezident seçiləcəyi halda ABŞ xarici siyasətinin kökündən dəyişiləcəyi, ABŞ-ın beynəlxalq münasibətlərində prioriteti dəyişəcəyi, əlaqələrin daha çox iqtisadi münasibətlərin üzərində qurulacağı ehtimal edilirdi: "Çünki yeni prezident adəti üzrə siyasi və ya xüsusi xidmət isteblişmentinə deyil, biznes dairələrə aid idi. Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş direktoru, yeni dövlət katibi Mayk Pompeonun digər ölkələrlə bağlı mövqeyinin necə olmasından asılı olmayaraq, xarici siyasət xəttində balanslaşdırılmış, çoxvektorlu xarici siyasəti yürüdən Azərbaycanla bağlı diqqətə almağa məcbur olacağı bir neçə məqam var. Bu məqamlar Qərb və Rusiya qarşıdurmasının yaratdığı yeni siyasi müstəvidə xüsusi aktualdır. Azərbaycan ABŞ-ın Avropa ilə Asiya arasında mühüm nəqliyyat dəhlizi olan, Rusiya və İranın sərhədlərində yerləşən mühüm partnyorudur. Eyni zamanda ABŞ-ın strateji təhlükəsizlik tərəfdaşları - Türkiyə və İsraillə xüsusi münasibətləri olan partnyoru , qlobal energetika təhlükəsizliyində ABŞ-ın mövqeyini dəstəkləyən güvənli tərəfdaşıdır. Həmçinin Azərbaycanla bağlı Amerika Birləşmiş Ştatlarının iqtisadi, diplomatik və təhlükəsizlik sferalarındakı mövcud münasibətləri inkişaf etdirməsi ABŞ-ın Cənubi Qafqaz regionuna təsirinin artmasına xidmət edən bir addımdır. Sadaladığımız məqamları nəzərə alaraq, düşünmək olar ki, ABŞ-ın Azərbaycana yeni təyin olunacaq səfirinin kəskin mövqedə dayanan, daxili işlərə qarışmağa meyilli fiqur olacağı ehtimalı azdır".

Bir sıra təhlilçilər isə hesab edir ki, dünyada həm strateji durum, həm geopolitik vəziyyət çox mürəkkəbdir və geopolitik qarşıdurma həlledici mərhələyə daxil olub. ABŞ İranı düşmən elan edib, ABŞ-ın Rusiya ilə də münasibətlərinin get-gedə daha da kəskinləşdiyi, Gürcüstan və Ukraynanın NATO üzvlüyünə namizəd dövlət kimi tanınması, Ermənistanda cərəyan edən hadisələr, Azərbaycanın Rusiya ilə İran arasında çox strateji əhəmiyyətli bölgədə yerləşməsi faktorları nəzərə alınsa, Azərbaycana xüsusi diqqət veriləcək. Ona görə də Azərbaycana səfir seçimində bu məsələyə fikir veriləcək. Azərbaycana güclü bir kadrın göndəriləcəyi ehtimal edilir. Çünki gələn səfir üçün də təhlükəsizlik məsələsi ön planda olacaq.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 91 (6980) 27 aprel 2018

# Pensiya Fondunda 2 milyardlıq maxinasiya

## Fondda aparılan yoxlamaların nəticələri birbaşa ölkə rəhbərliyinə məruzə edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində fəaliyyət göstərən Dövlət Sosial Müdafiə Fondundan böyük həcmdə vəsait yoxa çıxdığı aydın olub. Bu barədə "Yeni Müsavat"a daxil olan məlumatda söhbətin bir neçə milyard manata qədər vəsaitdən getdiyi deyilir.**

Bildirilir ki, uzun illər boyu qurulmuş mexanizm əsasında yoxa çıxarılan məbləğ 2-2,5 milyard manata yaxındır. İddialara görə, mexanizm bir neçə ay əvvəl Fondda aparılan yoxlamalar zamanı üzə çıxarılıb. Onun detallarının dəqiqləşdirilməsi, həmçinin qeyd olunan mexanizm üzrə hesablamalar aparılıb. Nəticə o qədər ilginc olub ki, birbaşa ölkə rəhbərliyi məlumatlandırılıb. İddialara görə, sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun yeni kabinetdən kənarda qalmasının ən mühüm səbəbi də məhz bu məsələdir.

Onu da qeyd edək ki, son illərdə Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində ciddi artımların olmaması müntəzəm olaraq müzakirə edilir. Belə ki, gəlirlərin artım tempinin ölkədə açılan yeni iş yerlərinin artım tempindən on dəfələrlə geri qaldığı bildirilir. Fondun hesabatlarında sosial sığorta qeydiyyatına duranların sayında artım əksini tapsa da, gəlirlər arasında dövlət büdcəsindən ayrılan transfertlərin həcmində azalma qeydə alınmayıb. Məntiqlə, sığorta uçotunda duranların sayı artırsa, ona mütənasib olaraq da əməkhaqqından sosial sığorta ödənişləri artmalıdır. Lakin DSMF-nin gəlirlərində qeyd olunan ödənişlərin müvafiq artımı qeydə alınmayıb. Eyni zamanda pensiya təyinatı və ödənişi sistemi hələ də ən çox korrupsiyalaşmış sahələrdən biri kimi tanınmaqdadır. Əhalinin bununla bağlı narazılıqları kifayət qədər çoxdur.




Xatırladaq ki, DSMF-yə 2002-ci ildən bəri S.Müslümov rəhbərlik edib. Yalnız 2013-2016-cı illər arasında qısamüddətli dövrdə Fondun sədri Elman Mehdiyev olub. 2006-cı ildən Fond yenidən S.Müslümovun nəzarətinə keçib - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tabe edtirilib.

DSMF sistemində mənimsəmə, maliyyə qanunsuzluqları faktları Hesablama Palatası və hüquq-mühafizə orqanları tərəfindən zaman-zaman üzə çıxarılıb. Hesablama Palatasının açıqladığı məlumatlardan aydın olur ki, Fondun müxtəlif şöbələrində məcburi dövlət sosial sığorta haqları üzrə proqnozların tam icra edilməməsi, sahibkarlıqla məşğul olan fiziki şəxslər üzrə məcburi dövlət sosial sığorta haqlarının, maliyyə sanksiyalarının hesablanılmasının düzgün həyata keçirilməməsi, əsas fəaliyyət növünün düzgün uçota alınmaması, fiziki şəxslərlə hesablaşmaların düzgün aparılmaması səbəbindən məcburi dövlət sosial sığorta haqlarının az hesablanması faktları qeydə alınıb. Bundan əlavə, aşkarlanan faktlar arasında sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə sosial sığorta nömrələrinin verilməməsi və ya verilmiş sosial sığorta nömrələrinin fərdi uçot bazasına işlənilməməsi səbəbindən yığım hesabına toplanmış vəsaitin müvafiq hesabatlara daxil edilməməsi, şöbələr tərəfindən əmək pensiyalarının təyin edilməsi üçün sənədlərin qəbulu, baxılması və pensiya məbləğinin hesablanılması prosesində qanunvericiliyin tələblərinə tam əməl olunmaması, işləməyən əlil kimi əmək pensiyasını tam məbləğdə alan, lakin faktiki sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə və fiziki şəxslərin işçilərinə artıq pensiya ödənilməsi kimi hallar var.

Ötən illərdə həmçinin Fondun Goranboy və Laçın şöbələrindəki irihəcmli korrupsiya və mənimsəmə faktları üzrə cinayət işi qaldırılıb. S.Müslümovun sədr olduğu dövrdə aparılan araşdırmalar göstərib ki, DSMF Goranboy rayon şöbəsində ilyarımdan az müddətdə mövcud olmayan şəxslərə dair ailə başçısını itirməyə görə əmək pensiyasının təyin edilməsinə əsas verən sənədləri saxtalaşdırılmaqla 310 min 663 manat məbləğində vəsait mənimsənilib. Təxminən eyni faktlar Laçın rayon şöbəsində də aşkarlanmışdı.

Bundan əlavə, son aylarda mətbuatda Sosial Müdafiə Fondunun bir neçə şöbəsində Baş Prokurorluq Yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi tərəfindən yoxlamalar aparıldığına dair məlumatlar yer alıb. Belə şöbələrdən biri kimi Suraxanı rayon şöbəsinin adı çəkilib, yoxlamaların şöbənin sabiq əməkdaşlarının şikayəti əsasında başladıldığı, daha sonra məsələnin böyüyərək Fond və nazirlik rəhbərliyinə qədər uzandığı qeyd olunub. Bütün bunların Fond və tabe olduğu nazirlik tərəfindən təkzib olunmaması isə yayılan məlumatların reallıq ehtimalını qat-qat artırır.

❑ **TURQUT, "Yeni Müsavat"**

# İki nazirlikdə az maaş problemi

## **Qubad İbadoğlu:** "Həm KTN-də, həm SMN-də işləyənlərin əməkhaqlarının artırılmasına ehtiyac var"

**Yeni hökumət kabinetində ən diqqətçəkən təyinatlar kənd təsərrüfatı, həmçinin əmək və əhalinin sosial müdafiəsi naziri postlarıdır. Hər iki sahə dövlət üçün mühüm əhəmiyyət kəsb edir: kənd təsərrüfatı qeyri-neft sektorunun inkişafı, sosial müdafiə və sosial təminat isə dövlətin sosial siyasətinin tənzimlənməsi baxımından. Bu amilləri nəzərə alsaq, hər iki nazirin qarşısında ciddi vəzifələrin durduğunu söyləyə bilərik.**

**İqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlunun** sözlərinə görə, hər iki nazir - İnam Kərimov və Sahil Babayev gəncdir, pozitiv obrazları ilə seçilirlər, adları bu və ya başqa neqativ proseslərdə hallanmayıb: "Hər iki nazirlik həm idarəçilik baxımından, həm əhatə dairəsinə görə, eyni zamanda iqtisadiyyatın prioritetləri nöqteyi-nəzərindən çox önəmli və çətin nazirlikdir. Çünki Azərbaycan iqtisadiyyatında aqrar sektor prioritet təşkil edir. Əsasən iş yerlərinin təminatı nöqteyi-nəzərindən iqtisadi siyasətin əsas hədəflərindən biri də aqrar sahədə məşğulluğun təminatı, bu sahədə məhsul istehsalı sayəsində əmtəə bazarında məhsul bolluğunun yaradılması, xaricdən idxalı əvəz edən yerli istehsalın qurulmasıdır. Amma məsələ burasındadır ki, həm aqrar sektorla bağlı, həm də sosial sferayla bağlı ciddi çətinliklər var. Çətinliklər nədən ibarətdir - aqrar sektorda subsidiyalaşma sahəsində şəffaflığa və hesabatlılığa ciddi ehtiyac var. Yəqin ki, yeni nazirin ən əsas fəaliyyət istiqamətlərindən biri bu olacaq. İkinci mühüm məsələ elmi-texniki, innovativ sahədə dəyişikliklərə ehtiyac var. Daha bir vacib məsələ kadr potensialıdır. Təəssüflər olsun ki, KTN-in kadr potensialı elə də yüksək deyil. Keçmiş partiya nomenklaturasından qalan kadrların yeni, gənc, peşəkar və yüksək potensiallı gənclərlə əvəz edilməsi zərurəti var. Bu baxımdan, yəqin ki, yeni nazir "ASAN xidmət"dəki bir sıra rəhbər şəxsləri nazirliyə dəvət edəcək".




Q.İbadoğlu deyir ki, həm aqrar sektorda, həm də sosial sferada çalışanların əməkhaqqı ölkə üzrə orta aylıq əməkhaqqından xeyli aşağıdır: "Təsəvvür edin ki, sosial müdafiə sistemində sıravi işçilərin orta aylıq əməkhaqqı 220-250 AZN-dir. Kənd Təsərrüfatı Nazirliyinin işçilərində də buna yaxın vəziyyətdir. Bu baxımdan, yeni nazirlərin çətin işlərindən biri də layiqli əməkhaqqı sistemi qurmaqla korrupsiyanın qarşısını almaq olacaq. Hər iki nazirlikdə indiyədək müəyyən korrupsiya elementləri ona görə olub ki, orada çalışanların sosial cəhətdən özünəbəraət hissi formalaşıb. Əmək və Əhalinin Sosial Müdafiəsi sistemində ən böyük problemlərdən biri ünvanlı sosial yardıma ehtiyacı olanların onu ala bilməməsi, ikincisi isə ethiyacı olmayanların ünvanlı sosial yardım almasıdır. Elmi dildə buna giriş və çıxış problemləri deyilir. Bu da ona görə baş verib ki, orada böyük şəbəkə var, o şəbəkə çalışır ki, prosesdən öz mənafeləri naminə yararlana bilsin. Buna görə də düşünürəm ki, ən vacib məsələlərdən biri həm sosial müdafiə sistemində, həm də kənd təsərrüfatı sahəsində dövlət qulluğunda çalışanların əməkhaqqının artırılmasıdır. Ümid edirəm ki, yeni nazirlərin buna nail olmağa imkanları çatacaq.

Qeyri-rasional xərclər aradan qaldırılmalıdır. Məsələn, bu gün Dövlət Sosial Müdafiə Fondunda xidməti maşınların sayı həddindən artıq çoxdur. Bu qədər maşın bir çox nazirliklərdə yoxdur. Onlara qulluq xərcləri kifayət qədər yüksək rəqəmlərlə ifadə olunur. Bunun qarşısı alınmalı, vəsaitlərdən daha qənaətli istifadəyə keçilməlidir".

❑ **DÜNYA, "Yeni Müsavat"**

# Gələn il yeni metro stansiyası istifadəyə veriləcək

**Prezident İlham Əliyev son müşavirədə Bakıda metro stansiyalarının tikintisinin sürətləndiriləcəyini və stansiyaların sayının artırılacağını bildirib.**

Görüləcək işlərlə bağlı "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev "Trend"ə bildirib ki, hazırda bir neçə metro stansiyasının tikintisi davam etdirilir: "Hazırda paytaxtın Ceyhun Səlimov küçəsindəki "Bənövşəyi xətt" üzrə şərti adı "B3" olan metro stansiyası, "Xocahəsən" Elektrik Deposu, "Avtovağzal" stansiyasından "Xocahəsən" Elektrik Deposuna gedən tunel və "Həzi Aslanov-2" stansiyasında tikinti işləri davam etdirilir. Bu stansiyalardan ən birincisi "B3" stansiyası istifadəyə veriləcək. Stansiyada 3 lift və 17 müasir tipli eskalator quraşdırılacaq".

Mətbuat xidmətinin rəhbəri əlavə edib ki, stansiyanın bu il istifadəyə verilməsi gözlənilmir: "Ən birinci açacağımız "B3" metro stansiyasının bu il istifadəyə verilməsi gözlənilmir. Əgər işlər qaydasında davam edərsə, stansiya gələn il istifadəyə verilə bilər".

Qeyd edək ki, Bakı Metropoliteninin hazırda 25 stansiyası, 1 elektrik deposu və 36,6 kilometr uzunluğunda 3 xətti var. "Bakı Metropoliteni Xətlərinin Konseptual İnkişaf Sxemi"nə əsasən, gələcəkdə metropolitenin ümumi şəbəkəsi 3 mövcud - Yaşıl, Qırmızı və Bənövşəyi, həmçinin 2 əlavə yeni xətt - Mavi və Sarı xətlər olmaqla 5 xətdən, 76 stansiyadan, 6 elektrik deposundan və 119,1 kilometr metro xəttindən ibarət olacaq. Perspektivdə 51 yeni stansiyanın inşa edilməsi və 84,3 kilometr uzunluğunda metro xəttinin çəkilməsi nəzərdə tutulub.

YENİ MÜSAVAT
N 91 (6980) 27 aprel 2018

# Akif Çovdarovun yeni məhkəməsi başlayır-təfərrüat

## Sabiq MTN generalının şikayətinə niyə 6 aydan sonra baxılır?

**Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarovun və digərlərinin barəsindəki verilən apelyasiya şikayəti Bakı Apelyasiya Məhkəməsinə göndərilib. Şikayətin indiyədək göndərilməməsinə səbəb Akif Çovdarovun məhkəmənin iclas protokolları ilə tanış olmaq istəyi olub.**



İş yaxın günlərdə Bakı Apelyasiya Məhkəməsində icraata veriləcək. Apelyasiya şikayəti ötən il, noyabrın 11-də verilib. Şikayətin verilməsindən 6 aya yaxın vaxt keçir. Formal səbəb Akif Çovdarovun məhkəmə iclas protokolları ilə tanış olması göstərilir. Bəs, əsl səbəb nədir? Niyə apelyasiya şikayətinə baxılması birdən-birə 6 ay uzadılıb? Azərbaycan məhkəmələrinin praktikasında barəsində məhkəmə hökmü çıxmış şəxsin məhkəmənin iclas protokolları ilə 6 ay tanış olması halı varmı?

**Tanınmış vəkil Cavad Cavadov** deyir ki, qanunda məhkəmənin iclas protokolları ilə tanış olmaq üçün konkret müddət göstərilməyib: "Akif Çovdarov həbsdədir, həbsdə olduğuna görə məhkəmənin iclas protokolları ilə ardıcıl tanış olmaq imkanları məhduddur. Çünki iclas protokolları ilə tanış olmaq üçün onu hər dəfə saxlandığı Bakı İstintaq Təcridxanasında Bakı Ağır Cinayətlər Məhkəməsinə gətirməlidirlər. Eyni zamanda Akif Çovdarovun çoxsaylı maddələr və epizodlar üzrə təqsirləndirildiyini, işin həcmini nəzərə almaq lazımdır. Bütün bunlarla yanaşı belə qənaət formalaşır ki, məhkəmənin iclas protokolları ilə tanış olma müddətinin uzadılması marağı olub. Noyabrın 11-dən aprelin 25-nə qədər məhkəmə iclas protokolları ilə tanış olma ağlabatan müddət anlayışına sığmır. Yəni bu müddəti ağlabatan müddəti adlandırmaq olmaz".

Baş verənlərin Akif Çovdarova məhkəmə sisteminin loyal münasibətdə olmasından qaynaqlanması haqda fikirlər dolaşır. Cavad Cavadov həmin fikirlərin nə dərəcədə həqiqət olması sualına belə cavab verib: "Akif Çovdarovun bu qədər vaxtda onun məhkəmənin iclas protokolları ilə tanış olması belə fikirlər doğura bilər. Azərbaycan məhkəmələrini praktikasında belə bir hala rast gəlməmişəm ki, 5-6 ay məhkəmənin iclas protokolları ilə tanış olmaq üçün barəsində məhkəmə hökmü çıxarılmış şəxsə müddət verilsin. Belə bir halın şahidi olmamışıq. Akif Çovdarovun məhkəmə iclas protokolları ilə tanış olmaq hüququ var, amma praktikada belədir ki, genişhəcmli işlərdə bir qayda olaraq məhkəmənin iclas protokolları ilə vəkillər tanış olur. Lazım olan qeydlər verilir. Akif Çovdarov həbsdədir, onu hər dəfə protokollarla tanış olmaq üçün məhkəməyə gətirirlər. Ola bilər ki, o, hər dəfə 5-6 səhifə protokolla tanış olur və yorulduğunu deyib növbəti dəfə oxuyacağını deyir. Bunu qanun qadağan eləmir. Amma qanunda ağlabatan müddət anlayışı da var. Belə görünür ki, ağlabatan müddət anlayışının sərhədlərini bir qədər geniş götürüblər. Akif Çovdarovun hüquqlarından bir qədər sui-istifadə etməsinə yol verilməsi sezilir".

Belə xəbərlər də dolaşır ki, Akif Çovdarov, sadəcə, Bakı İstintaq Təcridxanasında ona yaradılan şəraitə görə orada maksimum uzun müddət qalmaq istəyir. Mümkündürmü ki, buna görə onun məhkəmənin iclas protokolları ilə tanış olması bu qədər uzanıb?

Cavad Cavadovun suala cavabı belə oldu: "Akif Çovdarov hüquq-mühafizə orqanlarında xidmət edib və belə şəxslər üçün ayrıca - 9 saylı cəzaçəkmə müəssisəsi var. Orada saxlama şəraiti digər cəzaçəkmə müəssisələrindən o qədər də fərqlənmir. Orada fövqəl-imtiyazlar da yoxdur. Sadəcə, kontingent bir qədər fərqlidir, orada saxlanılanlar əvvələr hüquq-mühafizə orqanlarında çalışmış şəxslərdir. Bakı İstintaq Təcridxanasında saxlama şəraitinin 9 saylıdan daha yaxşı olduğunu söyləmək olmaz. O baxımdan ki, orada sərbəstlik bir qədər çoxdur. Təcridxanada şəxs kamerada saxlanılırsa, cəzaçəkmə müəssisəsində bir qədər hərəkət sərbəstliyi var. Akif Çovdarovun Bakı İstintaq Təcridxanasının sanitar-tibb hissəsində saxlanılması ilə bağlı mətbuatda yazılar vardı. Əgər sanitar-tibb hissəsində saxlayırlarsa, orada vəziyyət cəzaçəkmə müəssisəsindən daha yaxşı, daha rahatdır".

Cavad Cavadov Akif Çovdarovun məqsədli şəkildə məhkəmənin iclas protokolları ilə uzun müddət tanış olmasının digər səbəblərinin olmasını da istisna etmir: "Burada hüquqdan sui-istifadə etmə, ləngidilməyə oxşayan vaxt uzadılması var. Bu sezilir. Mümkündür ki, hansısa gözləntiləri var. Məqsəd, məram nədir, bunu söyləmək çətindir".

Xatırladaq ki, oktyabrın 30-da Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi ilə keçirilən prosesdə Akif Çovdarov və digərlərinə hökm elan olunub. Məhkəmənin hökmü ilə Akif Çovdarov 12 il müddətinə azadlıqdan məhrum edilib. Az qala Cinayət Məcəlləsindəki maddələrin yarısı ilə ittiham olunan Akif Çovdarova 12 ilə cəza verilməsi də sıradan bir hal deyil.

Akif Çovdarova Cinayət Məcəlləsinin 145.3 (qanunsuz azadlıqdan məhrumetmə), 179.3.1, 179.3.2 (mənimsəmə və ya israfetmə), 181.3.1, 181.3.2 (quldurluq), 182.3.1, 182.3.2 (hədə-qorxu ilə tələbetmə), 228.4 (qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə), 302.1, 302.2 (gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə əməliyyat-axtarış fəaliyyəti haqda qanunvericiliyi pozma), 311.3.4 (rüşvət alma), 313 (vəzifə saxtakarlığı), 341.2.1, 341.2.2 və 341.2.3-cü (1 qrup şəxs tərəfindən silah tətbiq olunmaqla hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma) maddələri maddələri ilə yekun ittihamlar irəli sürülüb.

Hökmə əsasən, MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq əməkdaşı, polkovnik Səlim Məmmədov 11, nazirliyin sabiq idarə rəisi, mayor Akif Əliyev 5, MTN-in şöbə rəisi olmuş Orxan Osmanov 4 il müddətinə azadlıqdan məhrum olunublar. Məhkəmə Akif Çovdarovun general rütbəsinin alınması ilə bağlı ölkə prezidentinə təqdimat göndərilməsi barədə xüsusi qərar da çıxarıb. Zərərçəkmiş şəxslərə vurulmuş ziyanın ödənilməsinin təmin olunması üçün məhkəmə qərarları əsasında təqsirləndirilən şəxslər Akif Çovdarov, Səlim Məmmədov, Akif Əliyev və Orxan Osmanova məxsus ümumilikdə 33 milyon 466 min manat dəyərində əmlak və pul vəsaitlərinin, o cümlədən 8 milyon 967 min manat dəyərində ticarət və xidmət sahələri, istilikxanalar, balıqçılıq təsərrüfatları və sair əmlak kompleksi, torpaq sahələri, 24 milyon 445 min manat dəyərində fərdi yaşayış evləri, mənzillər, nəqliyyat vasitələri və 37 min manat dəyərində zərgərlik məmulatlarının üzərinə həbslər qoyulub.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Bakıda böyük yarışlar ərəfəsi saxta dollar artır-daha bir dəstə tutuldu

## Əcnəbilər 18900 saxta dolları dəyişmək istəyərkən saxlanılıblar; Yay Avropa Oyunları ərəfəsində də turistləri aldatmaq istəyən dəstə ifşa olunmuşdu

**Aprelin 25-də saat 13:55 radələrində Yasamal rayonu Şərifzadə küçəsində yerləşən "Rabitə Bank"ın "Yasamal" filialında külli miqdarda saxta dolları dəyişmək istəyən əcnəbi ölkə vətəndaşları tutulub.**



Çin Xalq Respublikasının vətəndaşları 1988-ci il təvəllüdlü Chen Vonq Lin, 1963-cü il təvəllüdlü Lin Zhi Fanq və Rusiya Federasiyası, Dağıstan Respublikasının vətəndaşı 1966-cı il təvəllüdlü Rəsulov Məhəmmədrəsul Muxtaroviçi 18900 saxta ABŞ dolları olan əskinazları dəyişmək istəyərkən tutulublar. Onlar maddi sübut ilə birgə saxlanılaraq polis idarəsinə təhvil veriliblər.

"Yeni Müsavat" xatırladır ki, Cinayət Məcəlləsində saxta valyuta hazırlanması 204.1 maddəsində əks olunub. 204.1-ci maddə satış məqsədilə saxta pul, qiymətli dövlət kağızları və ya xarici valyuta, yaxud xarici valyutada ifadə olunan qiymətli kağızları hazırlama, habelə əldə etmə və ya satmanı nəzərdə tutur. Cinayət Məcəlləsinin 204-cü maddəsinə əsasən, bu cür cinayət törədənlər 12 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Yada salaq ki, Azərbaycanda keçirilən 2015-ci il Yay Avropa Oyunları ərəfəsində də Bakıda xarici vətəndaşlardan xeyli saxta dollar aşkarlanmışdı. Belə ki, polis əməliyyat məlumatı əsasında Kamerunda anadan olmuş Belçika vətəndaşları Maput Martial və Hongla Samuel 10 min saxta ABŞ dollarını 5 min ABŞ dollarına satarkən saxlanılıblar. Onların Xırdalan şəhərindəki kirayədə yaşadıqları evdən əlavə 10 min saxta ABŞ dolları, 1 ədəd rəngli printer və müxtəlif kimyəvi maddələr aşkar edilərək götürülüb.

Araşdırmalar zamanı onların Azərbaycanda keçiriləcək Yay Avropa Oyunları qabağı çoxsaylı turistlərin gələcəyini və xarici valyutanın daha çox istifadə olunacağını nəzərə alaraq saxta ABŞ dolları hazırlamaq və dövriyyəyə buraxaraq külli miqdarda gəlir əldə etmək niyyətində olduqları müəyyən edilib. Hər iki şəxs Cinayət Məcəlləsinin 204.3.2-ci (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma, külli miqdarda törədildikdə) maddəsilə ittiham olunublar.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Maput Martial və Hongla Samuel 10 il müddətinə azadlıqdan məhrum edilib.

Kriminal xəbərlərin xronikası onu deməyə əsas verir ki, "Formula-1" yarışlarının başlaması ilə əlaqədar olaraq ölkəyə çoxsaylı turistlərin gəlməsi yenə bəzi fırıldaqçıların "iştahasını artırıb". Məsələn, elə bu günlərdə Bakıda banka saxta dollar verən şəxs hadisə yerində saxlanılıb. Həmin şəxs banklardan birinin Nəsimi rayon filialına yaxınlaşaraq, saxta 300 ABŞ dolları məbləğində pulu dəyişmək istəyib. Bank əməkdaşları pulun saxta olduğunu görüb, polisə məlumat veriblər.

Hadisə yerinə gələn polislər həmin şəxsi saxlayıb, polis bölməsinə aparıblar.

Bəs saxta dolları həqiqisindən ayırmağın yolları nələrdir? Saxta əskinaz ilk növbədə, görünüşünə görə əsl pullardan fərqlənir. Saxta əskinazlarda rəng əsasən solğun olur. Pulun ölçüsü orijinaldan fərqlənir. Bundan başqa, mühafizə elementlərində də fərq hiss edilir.

Əskinazların mühafizə elementləri təkmilləşdikcə saxta əskinaz fırıldaqçıları da texnologiyaları təkmilləşdirirlər. Buna görə bəzən saxta əskinazı adi gözlə müəyyən etmək çətin olur.

Bu zaman xüsusi ultrabənövşəyi işıq altında pulun həqiqiliyini görmək mümkün olur. Belə ki, bu cür şüa əsl pulun gizli nişanlarını göstərdiyi halda, saxta pulda bu, olmur. Müşahidələr göstərir ki, Azərbaycanda daha çox manat və ABŞ dollarının saxtalaşdırılmasına rast gəlinir.

❑ **ORXAN, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 91 (6980) 27 aprel 2018

**Fransa prezidenti Emmanuel Makron ABŞ prezidentini İranla nüvə anlaşmasını saxlamaq üçün yola gətirmək məqsədilə Vaşinqtona səfər etdi. Səfər nəticə verib, ABŞ prezidenti İranla yeni nüvə sazişinin hazırlanmasına razılıq verib. Ancaq BBC-nin xəbərində deyilir ki, Tramp şərt qoyub ki, İranla bağlı narahatlıqları yeni sazişdə əksini tapmayacağı təqdirdə anlaşmadan tamamən çəkiləcək.**



# Trampı İranla düşmən edən üç mühüm səbəb

## ABŞ prezidentinin Tehrana qarşı bu şəkildə inadının arxasında, heç şübhəsiz ki, nüvə məsələsi dayanmır

Trampın şərti isə İranla nüvə anlaşması bu ölkənin nüvə fəaliyyətlərini çərçivəyə almaqla yanaşı, bölgədəki aktivliyinin təsirinin azalmasıdır. Tramp Makronla Ağ Evdə verdiyi brifinqdə bir daha 2015-ci il anlaşmasını sərt şəkildə tənqid edib. Tramp onu da deyib ki, yeni anlaşma onu qane etməyəcəyi təqdirdə mayın 12-də anlaşmadan tamamən çəkiləcək və İrana qarşı sərt iqtisadi sanksiyalar qəbul edəcək.

Konqresdə hər iki palatanın üzvləri qarşısında çıxış edən Makron isə deyib ki, köhnə müqavilə İranın nüvə fəaliyyətinə az da olsa nəzarətə imkan verib, amma yenisinə ehtiyac var. Eyni zamanda o da yeni anlaşmanın İranın ballistik raket proqramı və regional siyasətinə də təsir etməli olduğunu vurğulayıb. Fransa prezidenti həmçinin yeni müqavilənin hazırlanması prosesinə Rusiya və Türkiyənin də daxil edilməsini istəyib. Makron ən azı yeni müqavilə imzalanana qədər qanunvericiləri nüvə müqaviləsindən imtina etməməyə çağırıb.

Xatırladaq ki, BMT TŞ-nin 5 daimi üzvü və Almaniyanın da daxil olduğu "altılıq" ölkələri ilə İran arasında 21 ay davam edən müzakirələrdən sonra İranın nüvə fəaliyyətinin məhdudlaşdırılması, sadəcə, dinc məqsədlər üçün uranın zənginləşdirilməsi proqramına icazə verilməsi və bunun əvəzində İrana qarşı sanksiyaların götürülməsini nəzərdə tutan anlaşma 2015-ci ildə imzalanıb. Bu müqavilə ABŞ-ın ozamankı prezidenti Barak Obamanın ciddi dəstəyi nəticəsində mümkün olub və böyük bir hadisə kimi qarşılanıb. Ancaq Vaşinqtonun bu siyasəti Trampın dönəmində dəyişib. Yeni ABŞ prezidenti İrana qarşı daha sərt məhdudiyyətlərin tətbiq olunması, nüvə fəaliyyətləri ilə yanaşı ballistik raket fəaliyyətləri, o cümlədən İranın Yaxın Şərq regionundakı hərbi-siyasi aktivliyinin qarşısının alınması üçün addımların atılmasını istəyib.

Ötən ilin oktyabrında Tramp anlaşmanın müddətini uzatmaqdan imtina edib və sənədi Konqresə göndərib. Ancaq Avropa Birliyinin aparıcı ölkələri, o cümlədən Rusiya, Çin və AB Trampın bu addımını tənqid ediblər. İran isə ABŞ anlaşmadan çəkiləcəyi təqdirdə uranın zənginləşdirilməsi proqramının davam edəcəyini bildirib.

Fransa prezidentinin səfəri məhz ABŞ administrasiyasını İran məsələsində yola gətirmək məqsədi daşıyır. Yeri gəlmişkən, BBC bu həftənin cümə günü Almaniya kansleri Angela Merkelin də Vaşinqtonu eyni məqsədlə ziyarət edəcəyini bildirib. Merkelin də Trampdan nüvə anlaşmasından çəkilməməsini istəyəcəyi gözlənilir.

Ancaq ikinci bir müqavilə sənədi Trampın dediyi müddəaları özündə əks etdirərsə, güman ki, İranın bunu qəbul etməsi çətin olacaq. Çünki söhbət yalnız İranın nüvə fəaliyyətindən deyil, eyni zamanda raket istehsalı və Yaxın Şərqdəki fəaliyyətlərinin məhdudlaşdırılmasından gedir. İran isə heç bir halda buna getməz. Çünki hətta 2015-ci ildə imzalanmış nüvə sazişinin özü belə İranda "mühafizəkar" camiədə, xüsusən də orduda ciddi etiraza səbəb olmuşdu. İndi isə yeni təklif olunan anlaşma detallarında İranın birbaşa İnqilab Keşikçilərinin nəzarətində olan raket istehsalı və Yaxın Şərqdəki fəaliyyətləri məhdudlaşdırıla bilər. Belə bir anlaşmanın nəinki "mühafizəkar" qanad, hətta Ruhani hökumətinin özünün də razı olması inandırıcı deyil.

Tramp isə inad edir. Əgər Merkel də yola gətirməsə, sazişin özünün taleyi təhlükəyə düşə bilər. Qeyd edək ki, Beynəlxalq Atom Enerjisi Agentliyi və digər uyğun qurumlar İranın nüvə anlaşmasına riayət etdiyini təsdiqləyir. Tehrana qarşı Trampın bu şəkildə inadının arxasında, heç şübhəsiz ki, nüvə məsələsi dayanmır. Trampı İran mövzusunda bu qədər kəskin davranmağa vadar edən bir neçə xüsusi amil var.

Birincisi amil, ABŞ-ın strateji maraqlarıdır. Məsələ ondadır ki, ABŞ-ın Yaxın Şərqdəki maraqları İranla toqquşur. İran son illərdə Yaxın Şərqdə aktiv siyasət yürüdür və istər Suriya olsun, istər İraq, Yəmən, Fələstin olsun, bütün regionda İranın maraqları ABŞ-la toqquşur.

İkinci mühüm amil, məşhur idarə olunan xaos nəzəriyyəsidir. Yaxın Şərqdə İranla gərginlik ərəb ölkələri üçün ciddi təhlükə və narahatlıq yaradır. Yəni Tehran təhlükəsi olmasa, ərəblərin daha güclü himayədara ehtiyacı olmayacaq, eləcə də ən müasir silah və texnikaya. Son 10 ildə region ölkələri 500 milyard dollar dəyərində silahlanmaya pul xərcləyib. Təkcə 2017-ci ilin mayında Trampın Səudiyyə Ərəbistanına səfəri zamanı 110 milyard dollarlıq silah anlaşması imzalanıb. Eyni şəkildə Qətər və Səudiyyə Ərəbistanı arasında böhran yarandıqdan sonra Vaşinqtonun dəstəyinə ehtiyac duyan Qətər hökuməti tez-tələsik 12 milyard dollarlıq qırıcı satışı müqaviləsi imzaladı. Bir mənada bölgədəki gərginlik, İran şəxsində təhlükəli düşmən ABŞ üçün əlverişlidir.

Və nəhayət, üçüncü mühüm amil, İsrail faktorudur. İran İsrailə qarşı gizli savaş aparır, yəhudi dövlətini yox etmək istəyən silahlı qrupları dəstəkləyir. Vaşinqton isə İranın, Trampın dili ilə desək, Aralıq dənizi sahillərinə çıxması, İsrail üçün təhlükə törətməsinə imkan verə bilməz. Bu səbəbdən də Tramp və onun komandası üçün indi Yaxın Şərqdə ən "ideal" düşmən İrandır. İslam Respublikası istənilən halda raket istehsalından və Yaxın Şərqdəki fəaliyyətlərindən imtina etməyəcək. Deməli, ABŞ-a hələ uzun müddət ehtiyac duyulacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# TANAP açılışa hazırlanır

## Ekspert kəmərlə İran qazının nəqlini hələlik real saymır

**Azərbaycanın "Şahdəniz" yatağından ikinci işlənmə mərhələsində hasil olunacaq qazı Türkiyəyə çatdıracaq TANAP kəmərinin iyunun əvvəlinə planlaşdırılan açılış mərasimi baş tutacaq. Bu barədə Azərbaycan prezidenti ilə birgə mətbuat konfransında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan məlumat verib.**




Onu da qeyd edək ki, TANAP artıq texniki qazla doldurulub, onun sınaq işləri tam başa çatmaq üzrədir. Kəmər "Şahdəniz-1" qazı ilə ilin əvvəlindən dolmağa başlayıb. Kəmərin tam layihə gücünə çatması 3 ildən sonra, yəni 2021-ci ilin yayına gözlənilir.

İndiyə qədər TANAP-ın tikintisinə 5,6 milyard dollar xərclənib. Layihə ilə bağlı xarici banklardan 3,75 milyard dollar kredit cəlb edilib. Layihənin ümumi xərcləri 7,99 milyard dollar dəyərində qiymətləndirilir.

Trans-Anadolu Qaz Boru Kəməri Konsorsiumunun baş direktoru Saltuk Düzyolun bu günlərdə mətbuata verdiyi məlumata görə, indiyə qədər layihənin inşaat işlərinin 93 faizi yerinə yetirilib: "Artıq boru kəmərinin 1340 kilometri inşa edilib".

O bildirib ki, bu ilin iyul ayında Türkiyə kəmərlə Azərbaycandan ilk qazı qəbul edəcək: "Azərbaycan qazının Türkiyəyə nəql edəcək BOTAŞ şirkəti illik 6 milyard kubmetr qazı Türkiyəyə çatdıracaq. 2019-cu ilin iyun ayında Trans-Adriatik Qaz Boru Kəmərinə (TAP) qaz verməyə hazır vəziyyətdə olacağıq. Biz bilirik ki, bu vaxta qədər TAP boru kəməri tam hazır olmayacaq. Ancaq bununla belə biz öz işimizi əvvəldən tutub buna da hazır vəziyyətə gələcəyik ".

S.Düzyol qeyd edib ki, gələcəkdə İraqdan gələn qaz da bu boru kəmərinə daxil edilə bilər: "Hazırda boru xətti ilə 16 milyard kubmetr qaz daşınması mümkündür. Sonradan - 2023-cü ildə 24 milyard kubmetr, 2026-cı ildə 31 milyard kubmetr təbii qaz nəqli mümkün olacaq. Onu da qeyd edək ki, artıq uzun müddətdir ki, İranın da TANAP-la qaz ixrac edə biləcəyinə dair fikirlər səsləndirilir.

**İraq və İranın kəmərlə qaz nəql etməsi ehtimalını dəyərləndirən ekspert, Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban** deyir ki, cənub qonşumuzun TANAP-a qoşulması perspektivi, hələ ki, dumanlı görünür: "İranın üzərində sanksiyalar var. Bu ölkənin TANAP-a qoşulması üçün öncə Avropada öz qazına alıcı tapmalıdır. Onunla alqı-satqı müqaviləsi imzalamalıdır. Eyni zamanda müəyyənləşməlidir ki, qaz alıcıya hansı nöqtədən çatdırılacaq: Avropa, yoxsa İran-Türkiyə sərhədində. Bundan sonra nəqletmə vasitəsi kimi variantlar müzakirə oluna bilər ki, onlardan biri də TANAP-dır. Yəni bu, uzun vaxt aparan bir məsələdir. İranın qaz yataqları Fars körfəzindədir. Oradan qazı gətirib Türkiyədə Ərzurum qazpaylayıcı şəbəkəsinə verir. Bu şəbəkə ilə TANAP-ın əlaqəsi yoxdur. İran qazını kəmərə çatdırmaq üçün müvafiq infrastruktur yaradılmalıdır. Bunun üçünsə İranla Türkiyənin razılığa gəlməsi, yaranacaq xərcləri qarşılamaq prinsiplərinin müəyyənləşməsi lazımdır. Bir sözlə, İran qazının TANAP-la ötürülməsi qısa müddətə həll olunası məsələ deyil".

İ.Şabanın sözlərinə görə, İraq qazının TANAP-la nəqlini isə real hesab edir: "İraq qazını nəql etmək üçün Türkiyə müvafiq infrastrukturu yaratmağa hazırdır. Bu baxımdan optimal nöqtənin tapılması çətin olmayacaq".

Son olaraq qeyd edək ki, SOCAR TANAP-dakı payının 7 faizini Türkiyədəki törəməsi olan "SOCAR Turkey Enerji A.Ş" şirkətinə satıb. Mart ayında baş tutan alqı-satqıdan sonra kəmərdə pay bölgüsü belədir: SOCAR - 51 faiz, BOTAŞ - 30 faiz, BP - 12 faiz, "SOCAR Turkey Enerji A.Ş" - 7 faiz.

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 91 (6980) 27 aprel 2018

**Bu gün Azərbaycan paytaxtında "Formula-1" yarışları başlayır. Artıq "Formula-1" Azərbaycan Qran-Prisində iştirak edəcək komandalar şəhərimizdədirlər. Aprelin 26-da onlar tamamlama işlərini görüb, yarış gününə hazırlaşıblar. Bütün trek boyunca müvafiq işlər görülüb, son tamamlama işləri aparılıb.**



# Bakıda "Formula-1" başladı

## Biletlərin 45 faizini xarici ölkə vətəndaşları alıb

Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən musavat.com-a verilən məlumata görə, Filarmoniya, İçərişəhər və Bulvar tribunalarına, həmçinin Abşeron tribunasının "B" və "C" sektorlarına aid biletlərin hamısı satılıb. Qalan tribunalar üçün olan biletlərin də əksəri satılıb.

İndiyədək ümumilikdə 68 ölkədən bilet alınıb və bu biletlərin 45 %-i xarici ölkələrin payına düşür. İlk onluğa Rusiya, Monako, Böyük Britaniya, Ukrayna, Avstriya, Gürcüstan, Hollandiya, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri və Amerika Birləşmiş Ştatları daxildir.

Bu il FIA "Formula-2" Çempionatında 10 komanda yarışır. Hər komandada 2 pilot olmaqla ümumilikdə 20 pilot mübarizə aparır. Builki mövsüm 12 turdan ibarətdir. Hər tur bir Qran-Pri həftəsonunu əhatə edir və həmin həftəsonuda 2 yarış baş tutur.

Artıq FIA "Formula-2" Çempionatının ilk turu keçirilib. 6-8 aprel tarixlərində keçirilmiş ilk turun 1-ci yarışında "Carlin" komandasının pilotu Lando Norris, 2-ci yarışında isə "Russian Time" komandasının pilotu Artem Markelov qələbə qazanıb. Hazırda xal cədvəlində ilk sırada 39 xalla Lando Norris yer alır. Onu 30 xalla Artem Markelov və 28 xalla "Carlin" komandasının pilotu Sergio Setta Camara izləyir. Növbəti tur 27-29 aprel tarixlərində Bakıda keçiriləcək.

F2 pilotları Bakı Şəhər Halqasını birinci yarışda 29, ikinci yarışda isə 21 dövrə vurmalıdırlar. Aprelin 27-si, cümə günü saat 11:00-dan 11:45-dək sərbəst yürüşlər, saat 15:00-dan 15:30-dək sıralanma turu və saat 15:45-də mətbuat konfransı, 28-i, şənbə günü saat 12:00-da birinci yarış və saat 13:20-də mətbuat konfransı və 29-u, bazar günü saat 13:10-da ikinci yarış və 14:15-də sonuncu mətbuat konfransı baş tutacaq.

Xatırladaq ki, ötən il 23-25 iyun tarixlərində Bakıda baş tutmuş sonuncu "Formula-2" turunun ilk yarışında "Pertamina Prema Theodore Racing" komandasının pilotu Charles Lecrerc, ikinci yarışında isə "BWT Arden2 komandasının pilotu Norman Nato qələbə qazanmışdı.

Pilotlar və komanda rəhbərləri 2018 "Formula-1" Azərbaycan Qran-Prisi haqqında fikirlərini bildiriblər. Onlardan bəzilərini təqdim edirik:

"Pirelli" Avtomobil yarışının rəhbəri Mario İzola bildirib ki, ötən illə müqayisədə bu il Azərbaycan Qran-Prisi iki ay tez keçiriləcəyinə görə yarışın fərqli hava şəraitində baş tutacağı gözlənilir:

"Keçən il Azərbaycanda təkər tərkibləri seçimində bir az mühafizəkar davranmışdıq. Yeni təkər reqlamentinin qəbul olunduğu il "medium" təkərlərdən o qədər də istifadə olunmurdu. Bu il isə bolidlərin gücünü artıracaq təkər tərkibi hazırlamışıq.

Odur ki, builki yarışlarda hər üç tərkibdən istifadə olunacağını, Bəhreyn və Çində keçirilmiş son iki Qran-Pridə şahidi olduğumuz kimi bəzi yeni yarış strategiyalarının tətbiq olunacağını düşünürük".

"Mercedes" komandasının rəhbəri Toto Volff söyləyib ki, bu mövsüm qələbə uğrunda amansız mübarizə aparan 3 komanda var:

"Bu mövsüm bu idman növünün ən güclü pilotlarının F1 tarixinin ən sürətli bolidlərində apardıqları mübarizəsinin şahidi oluruq. Bu mövsüm illər keçsə də, azarkeşlərin təbəssümlə xatırlayacaqları əfsanəvi F1 mövsümü olacaq.

Azarkeşlərlə yanaşı biz də olduqca həyəcanlıyıq. Ötən il Ferrari komandasına qarşı gərgin mübarizə apardıq. Bu il daha gərgin yarış gözləyirik. Red Bull və Ferrari komandaları bizə qalib gəlmək üçün bütün gücləri səfərbər edəcəklər.

Bu komandaların həm sürücüləri, həm də bolidləri yüksək səviyyəlidir. Heç də hamı belə bir mübarizənin lehinə deyil, ancaq komandamız belə gərgin yarışları sevir. Bakı yarışı haqqında proqnoz vermək çətindir. İlk dəfədir ki, Azərbaycan Qran-Prisi aprel ayına təsadüf edir. Hava şəraiti ötən illə müqayisədə fərqli olacaq.

Bakı treki sürücülərdən böyük cəsarət tələb edir. Ötən ilin podiumu, məsələn, gözlənilməz oldu. Şəhər treklərini də fərqləndirən cəhət də elə budur".

Red Bull komandasının pilotu Daniel Rikkardonun sözlərinə görə, Monako və Sinqapurdan fərqli olaraq Bakı trekində ötmə üçün daha çox imkan var:

"Ən böyük çətinlik isə tormozlamaqdır. Əyləc nöqtələrinin sayı çoxdur, səhv etmək yolverilməzdir. Bakıda yarışmağın çətinliyi əyləc limitini tapmaqdır.

Ötən il Azərbaycan Qran-Prisində baş verənlər bir çoxları üçün ağlasığmaz idi. Keçən həftə Şanxayda olduğu kimi, komandanın möhtəşəm strategiyası var idi. Yarışın qalibi olacağım ağlıma belə gəlməzdi, amma rəqiblərimin hamısını ötüb keçirdim. Finiş xəttini keçəndə yarışı qələbə ilə başa vurmağıma inana bilmirdim. Gərgin, əyləncəli və unudulmaz bir yarış idi".







Lens Stroll, "Williams" komandasının pilotu:

"Bakı ilə bağlı gözəl xatirələrim var. Ötən il Formula-1 yarışlarında ilk dəfə Bakıda podium çıxdım, odur ki, onu heç vaxt unutmayacağam. Təkcə trek deyil, Bakı özü də gözəl şəhərdir. Bu trekdə yarışmaq olduqca maraqlıdır. Şəhər treki olduğu üçün divarlarla əhatələnib. Səhv etmək yolverilməzdir".

Fernando Alonso, "McLaren" komandasının pilotu:

"Keçən il mövsümün ilk xalını məhz Azərbaycan Qran Prisində qazandıq. Bu həftəsonu da eyni nəticəni təkrarlayacağımızı gözləyirik. Bakı Şəhər Halqası F1 təqvimində yeni olmasına baxmayaraq, artıq F1 pilotları arasında öz rəğbətini qazanıb. Bu, mövsümün ən sürətli şəhər trekidir. Trekin uzunluğu həm bolidləri, həm də pilotları böyük sınağa çəkir. Hər yarış həftəsonundan əvvəl bolidlərimizi diqqətlə yoxlasaq da, Bakıda göstərəcəyimiz performansdan ciddi dəyişiklik gözləmirik. Buna baxmayaraq, bolid haqqında bilik bazamızı artırır və mümkün bütün xalları qazanmaq üçün performansımızı yüksəldəcəyik".

"Vicey Malya" komandanın rəhbəri söyləyib ki, Azərbaycan Qran-Prisi xal qazanmağımız üçün olduqca əhəmiyyətlidir:

"Əlverişsiz şəraitə görə mövsümün ilk yarışlarında nəticə gözlədiyimiz kimi olmadı. Bəhreyn və Çində birinci döngədə baş verən qəzalara görə rəqiblərimizdən geri qaldıq. Yarışın əvvəlində bu qədər mövqe itirirsinizsə, vəziyyəti öz xeyrinizə dəyişmək çətinləşir.

Digər tərəfdən, Avstraliya Qran-Prisindən sonra bolidin performansını artırmışıq. Son iki yarışda nəticələrimizi yaxşılaşdırmışıq".

Qeyd edək ki, yarışı izləmək üçün akkreditasiyadan keçən jurnalistlər arasında "Yeni Müsavat" qəzetinin əməkdaşı da var. Yarış günlərində yenilikləri musavat.com saytından operativ qaydada izləyə bilərsiniz.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

---

# Aprel dərsi, "sürünən" işğal...



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Qanqaraldıcı, kədərli bir tarixin ildönümünü yaşayırıq. 98 il öncə, 20-yə yaxın dövlətin, o sırada ABŞ və Fransanın müstəqilliyini tanıdığı Azərbaycan Xalq Cümhuriyyəti (AXC) bolşevik Rusiyasının hərbi təcavüzü ilə süqut elədi. 27 aprel işğalı bizə maddi və mənəvi planda neçəyə başa gəldi - artıq bəlli. Faciə günümüzün bizə 71 il bayram kimi sırınması da öz yerində.**

Bunca maddi-mənəvi itkilərdən sonra Azərbaycan Respublikası cümhuriyyətin varisi kimi müstəqilliyini bərpa elədi. Amma 100 min kv km yox, cəmi 86.6 min kv km-lik ərazidə: SSRİ-nin tərkibinə 100 min kv km-lə girdik, 86.6 ilə çıxdıq. Aradakı ərazi fərqi rus-erməni hiyləsinin badına getdi. Amma bizə qarşı əsassız torpaq iddiaları, məkr, hiylə bitmədi əfsus ki. Zəngəzurun, Göyçənin ardınca 30 ildir Dağlıq Qarabağın taleyi də karta qoyulub.

Ötən 98 ilin elə birinci ibrət dərsi budur ki, böyrümüzdə erməni ola-ola Rusiyadan bizə heç vaxt dost-tərəfdaş çıxmayacaq! 100 ildir "erməni kartı"ndan əleyhimizə kullanan bir yırtıcı dövlətdən bacardıqca uzaq durmalı, qorunmalıyıq - xüsusən də müstəmləkəçi siyasətin öz aktuallığını itirmədiyi XXI əsrdə.

Bu siyasət indi, sadəcə, rəngini dəyişib, daha modern, daha "legitim" üsullarla zənginləşib. Gerçək belədir ki, indi bir ölkəni işğal eləmək, özündən asılı salmaq üçün vacib deyil ki, ora qoşun göndərəsən, hərbi müdaxiləyə əl atasan. "Yumşaq güc", qeyri-hərbi vasitələrdən istifadə də yetərlidir. Bura ölkənin iqtisadi-maliyyə sferalarını, hətta mədəniyyətini nəzarətə götürmək bəs edir. Rusiyanın Krımı işğal ssenarisindəki kimi, referendum oyunu da kara gələ bilər.

Mənfur qonşularımızın hazırkı durumu bunun parlaq örnəyidir. İşğalçı ölkədə iki həftədir yaşanan qarışıqlığın kökündə, əslinə qalsa, bu reallıq dayanır: Ermənistanın şimal qonşumuzun iqtisadi, siyasi boyunduruğunda olması. Ermənilər bundan, nəhayət, can qurtarmaq, daha dəqiqi, öz ağalarını dəyişmək istəyirlər. Alınacaqmı?

Qəliz məsələdir. Söhbət heç də Qarabağ məsələsində Kremlin İrəvanın acığına Bakıya "yaşıl işıq" yandıra biləcəyindən getmir. Söhbət Moskvanın Ermənistana cddi iqtisadi təzyiq rıçaqlarında gedir. Nəzərə alanda ki, Ermənistan iqtisadiyyatının əsas hissəsinə Rusiya nəzarət edir, öz qazını ermənilərə faktiki su qiymətinə verir, üstəgəl, İrəvanın Moskvaya silahlara görə yüz milyonlarla dollar güzəştli kredit borcu var, Rusiyada öz ailəsinə çörək pulu qazanan 2 milyon erməni əmək miqrantı yaşayır, o halda Ermənistanın "müstəqillik" arzusunun reallıqla əlaqəsi təsəvvür edilər...

Bir xalqı asılı eləmək üçün onun ana dilini öz ölkəsində ikinci dilə çevirmək də neo-müstəmləkəçiliyin başqa formasıdır. Bundan ötrü "5-ci kolon"çuların xidməti əvəzsizdir. Demək, özünün iqtisadi müstəqilliyini və energetik təhlükəsizliyini təmin edən, əsas dilini dövlət dili kimi qoruyub saxlamağı bacaran Azərbaycan qat-qat üstün mövqedədir.

Lakin arxayınçılığa əsas yoxdur. Çünki sadalananlar müstəqilliyin bütün şərtləri deyil. Xüsusən də ölkədə Rusiyanın "5-ci kolon"unun , təsir agentlərinin və rus dilinin əhatə dairəsinin sürətlə genişlənməsi, Bakıda rusca danışıqların artması əndişə doğurur. Buna "sürünən işğal" da demək mümkündür. Onun daha acı nəticə verməməsi üçün gərəkdir ki, millət və dövlət olaraq qazdan ayıq olaq...

Müstəqilliyimizə başqa bir təhlükə mənbəyi hazırda SSRİ xiffəti çəkənlər və bu ovqatı cəmiyyətdə yayan təsir agentləridir. Təbii ki, müstəqillik dövründə doğulan gənc nəsildən belə təhlükə gəlmir. Daha çox vaxtilə sovet pasportu daşımış vətəndaşlarımızın müəyyən kəsimi müstəmləkəçi siyasət üçün yaxşı "material" ola bilər.

SSRİ xiffəti çəkənlərin azlıqda qalması, "sürünən işğal"ın təhlükəli həddə çatmaması üçün isə gərəkdir ki, Azərbaycan idarəçilik baxımından SSRİ-nin mini-forması olmasın. SSRİ-ni pis formada təkrarlamasın. Qat-qat mütərəqqi, sınaqlardan uğurla çıxmış quruluş kimi demokratik idarəçiliyə tapınsın, azad məmləkətə çevrilsin. Zira, azad məmləkətlərdə insan da azad, təsirlərdən uzaq olur.

Dövrümüzdə "yumşaq güc"ə qarşı ən etibarlı immunitet isə iqtisadi güc ola bilər. İsraillin təcrübəsi göstərir ki, dövlətin iqtisadi gücü heç də həmişə onun əhalisinin sayına düz mütənasib deyil.

Müstəqilliyin birinci şərti isə, şəksiz ki, xalqın özgür olmaq istəyi və iradəsidir. Bu varsa, yerdə qalanlar ikinci dərəcəlidir. Vay o günə ki, xalq müstəqillikdən iyrənib boyunduruq xiffəti çəkə...

YENİ MÜSAVAT
N 91 (6980) 27 aprel 2018

# Baş pediatrdan özəl klinikalara ittiham

**Azərbaycanda hər il olduğu kimi, bu il də "Avropa immunlaşdırma həftəsi" keçirilir. Aprelin 23-dən 29-dək keçirilən immunlaşdırma həftəsi çərçivəsində səhiyyə poliklinikaları tərəfindən hər hansı səbəbdən peyvənddən kənarda qalan uşaqlar milli peyvənd təqvimine uyğun olaraq peyvənd edilirlər. Amma o da həqiqətdir ki, immunlaşdırma həftəsi zamanı da bütün uşaqlar peyvəndə cəlb olunmur.**

## Nəsib Quliyev: "Kim deyirsə ki, dövlət xəstəxanalarında vurulan peyvəndlərin keyfiyyəti pisdir, özəl tibb müəssisələrində vurulanlar isə keyfiyyətlidir..."

Bu məsələdə 100 faizlik göstərici əldə etmək mümkün olmur. Əksər hallarda buna səbəb valideynlərin peyvənd vurdurmaqdan imtina etməsidir. Peyvəndlərlə bağlı cəmiyyət arasında yayılan müxtəlif mənfi fikirlər də uşaqların peyvənddən yayındırılması ilə nəticələnir.

Peyvəndlərin zərəri ilə bağlı israilli həkimin iddiası...

Əbəs deyil ki, israilli həkim Lev Levitin bu yaxınlarda peyvəndlərin faydasından çox zərəri olduğu barədə fikirləri də ölkəmizdə birmənalı qarşılanmadı. Yəhudi həkimin sözlərinə görə, uşaqlara peyvənd vurdurmağın heç bir faydası və köməyi yoxdur: "Yaş yarımına qədər uşağa üç, beş valentli vaksinlər də daxil olmaqla, 30-a yaxın peyvənd vurulur. Nəticədə görürük ki, uşaq vurulan peyvəndə qəribə, bəzən də sərt reaksiyalar verir, öskürək, qızdırma, qıcolma ilə müşayiət olunan bu durum bir sıra patologiyalara yol açır. Birdən-birə valideyn fərqinə varır ki, uşağın inkişafı geriləyir, aqressivləşir, danışanda gözümüzə baxmır, başını divara çırpır və s. Valideyn də tapa bilmir ki, səbəb nə ola bilər. Bəlkə vurdurduğunuz peyvəndlərdir? Heç düşünmüsünüz bu haqda? Pediatr isə sakitləşdirir, bir az da səbir edin, gözləyin, hər şey qaydasına düşəcək. Vəziyyət isə pisə doğru dəyişir".



**Bəs peyvəndlərlə bağlı əsl həqiqət necədir? Doğrudanmı, peyvənd uşaqlarda ciddi fəsadlara yol açır? Özəl tibb müəssisələrində vurulan peyvəndlərin qiyməti dövlət tibb müəssisələrində vurulan peyvəndlərdən baha olması keyfiyyət göstəricisidirmi?**

Ailem.az bu suallara aydınlıq gətirmək üçün kiçik bir araşdırma aparıb.

**Azərbaycanın baş pediatrı Nəsib Quliyev** bildirdi ki, kim övladını peyvənd vurdurmaqdan yayındırıbsa, onun bu hərəkətinə heç cür haqq qazandırmaq mümkün deyil: "Onlar şayiələrə inanaraq səhv yol tuturlar. Ona görə də hər bir valideynə məsləhətimiz odur ki, uşaqlarını peyvənddən yayındırmasınlar. Bu məsuliyyət həm də uşaqların məcburi dispanserizasiya haqqında qanununda da əksini tapıb. Valideyn hər hansı bir səbəbdən uşağı peyvənddən yayındırıbsa, bu zaman ondan yazılı izahat tələb olunur. Hər kəs bilməlidir ki, dünyada peyvəndin alternativi yoxdur. Bu günə qədər yer küresində peyvəndi əvəz edən profilaktika icad olunmayıb. "İstəmirəm", "uşaqlarıma peyvənd vurmağa qoymuram" kimi mövqelər uşağa böyük zərər verir".

Həkim deyir ki, Azərbaycanda 11 yoluxucu xəstəliyə qarşı peyvənd olunur və peyvəndlə əhatə 95-97 faiz həddindədir: "Hazırda Azərbaycanda uşaqların peyvəndlə əhatəsi yüksək faizdə davam edir. İmtinalar isə az faiz təşkil edir, 3-5 faiz həddindədir. Elə onun nəticəsidir ki, hazırda Azərbaycanda nə qızılca var, nə məxmərək, nə də difteriya. Bunlar hamısı məhz o peyvəndin nəticəsində əldə olunan uğurlardır".

### Alınan peyvəndlərin qiyməti ucuz başa gəlir

Peyvəndlərin müzakirəyə səbəb olan qiymətləri ilə bağlı məsələyə aydınlıq gətirən mütəxəssis diqqətə çatdırdı ki, peyvənd istehsal edən bütün zavodlar Ümumdünya Səhiyyə Təşkilatının mütəxəssisləri tərəfindən bilavasitə nəzarətdə saxlanılır: "Onların hamısına qarşı tələbat eynidir və beynəlxalq nəzarət var. Ona görə də kimsə deyəndə ki, hansısa peyvənd yaxşıdır, hansısa pisdir, bu, inandırıcı deyil. Yəni bütün bu məlumatlar şayiə xarakterlidir. Peyvəndin qiymətinə gəldikdə isə, Azərbaycan dövləti vaksinləri onu istehsal edən zavoddan 100 min dozalarla topdansatış qiymətinə və əvvəldən bağlanan müqavilə əsasında alır. Ona görə də alınan peyvəndlərin qiyməti pərakəndə satışlar, tək dozalılar satılan yerlərlə müqayisədə 5 dəfədən, 10 dəfəyə qədər ucuz başa gəlir. Tutaq ki, özəl tibb müəssisəsi vaksini bir dozalı alıb gətirir istifadə edir, qurtaranda yenə alıb gətirir. Bu bir dozalıq vaksinlər də onlara çox baha qiymətə başa gəlir. Amma dövlət onu flakonlarda 10 doza, 20 doza alır. Həm də birbaşa istehsalçıdan alır. Bu da qiymətdə 5 dəfədən artıq fərq edir. Kim deyirsə ki, dövlət xəstəxanalarında vurulan peyvəndlərin keyfiyyəti pisdir, özəl tibb müəssisələrində vurulanlar keyfiyyətlidir, bu, çox xoşagəlməz fikirlərdir və əsassızdır".

### Özəl kilinikalar şayiə yayır ki, pul qazansınlar

"Bunlar gülüş doğuran və reklam xarakterli şayiələrdir. Bunu isə özəl tibb müəssisələri edir ki, gedib onlarda peyvənd etdirsinlər, onlar da pul qazansın. Azərbaycana gələn peyvənd preparatları dünyanın ən məşhur zavodlarında istehsal olunur. Fransadan, Belçikadan, İtaliyadan, Rusiyadan, Hindistandan gəlir. Vaksinin istehsal yerinin keyfiyyətlə əlaqəsi yoxdur. Hər yerdə tələbat eynidir. Çünki vaksin istehsal edən zavod, yalnız öz ölkəsi üçün deyil, bütün dünya üçün peyvənd istehsal edir. Tələbat da hər yerdə eynidir. ÜST-də vaksinlə bağlı ayrıca strateji nəzarət qrupu var. Onların lisenziyası olmasa, heç bir zavod nə peyvənd istehsal edə bilər, nə də satışa çıxara bilər", - deyə N. Quliyev qeyd edib.

### Azərbaycanda peyvənddən kənarda qalan uşaqlar var

**Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva** isə peyvəndlərlə bağlı mətbuata açıqlamasında bildirib ki, Azərbaycanda vaksinlə idarəolunan xəstəliklərə yoluxma halları qeydə alınmır: "Azərbaycanda qızılcaya yoluxma halları yoxdur. Ukraynada isə peyvəndləmə səviyyəsi aşağı olduğundan, insanlar ondan imtina etdiklərindən qızılca xəstəliyi alovlanıb. Azərbaycanda peyvənddən kənarda qalan uşaqlar var. Buna görə də belə uşaqlar xaricə gedərkən onlar xəstəliyə yoluxa bilərlər. Bu səbəbdən valideynlər çox diqqətli olmalı, uşaqlarını peyvənd etdirməlidirlər".

A.Əliyeva bildirib ki, 2014-cü ildən vaksin preparatları Azərbaycana UNICEF xətti ilə gəlir. Ölkəyə daxil olan vaksinlər Ümumdünya Səhiyyə Təşkilatının təhlükəsizlik və effektivlik standartlarına cavab verir. Ölkə ərazisinə daxil olan və özəl tibb müəssisələrində istifadə olunan vaksinlər Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzində qeydiyyatdan keçirilir.

### Statistikanın köməyi ilə faktlara baxış

Roush və yoldaşlarının JAMA-da dərc edilmiş peyvəndlərin istifadəsinin tarixi haqqında məqaləsində isə ABŞ-da peyvəndlərin istifadəsinin xəstəliklərin görülmə sıxlığı və fəsadları üzərində təsirini göstərən cədvəl belədir.

Difteriya: Rutin peyvənd praktikası 1928-1943-cü illər arasında aparılmışdır. Peyvənd kampaniyasının təsirinin başlanmasından əvvəl ABŞ-da ortalama olaraq ildə 21 000 insan difteriya ilə xəstələnir, bunlardan 1 822-si vəfat edirmiş. Peyvənd kampaniyası sayəsində artıq ABŞ-da difteriya halları və dolayısı ilə difteriyaya bağlı ölüm heç görülmür.

**Qızılca:** Rutin peyvənd kampaniyası 1963, 1965 və 1968-ci illərdə aparılmışdır. Bundan əvvəl ortalama olaraq illik yarım milyon insan qızılca xəstəliyinə tutulur, bunlardan 440-ı vəfat edirmiş. İndilərdə isə ABŞ-da ortalama olaraq ildə 55 hadisə qeydə alınmasına baxmayaraq, bu xəstəlikdən ölüm halları heç görülməmişdir.

**Poliomyelit:** Rutin peyvənd proqramı 1955-ci ildən başlamışdır. Kampaniyadan əvvəl ABŞ-da həm kəskin, həm də paralitik poliomyelit sayı ortalama olaraq ildə 36 000 hadisə olmuşdur. Bunlardan 3 000 nəfərə yaxın insan itirilmişdir. Peyvənd kampaniyasından sonra isə poliomyelit tamamilə ortadan qaldırılmışdır.

1961-1972-ci illər arasında ABŞ-da hər 4 milyon beş yüz əlli min poliomyelit peyvəndindən ancaq 1-i fəsad vermişdir.

Bundan əvvəl isə ortalama olaraq ildə 3 000 insan poliomiyelit xəstəliyi ucbatından itirilirdi.

Araşdırmaya əsasən məlum olur ki, peyvəndlərin faydası zərərlərindən çoxdur, özü də dəfələrlə. Hazırda adıçəkilən yoluxucu xəstəliklərin kütləvi hal almaması cəmiyyətdəki əksər vətəndaşların peyvəndlərdən yayınmamasının müsbət nəticəsidir. Buna görə də hansısa şayiələrə inanaraq, peyvənddən imtina edərək, uşaqlarınızın həyatını təhlükəyə atmağa dəyməz.

# "Çudo Peçka" məhkəməsi davam edir

## "Çudo Peçka" və "ÇP Aqro" MMC-lərinin təsisçisi Çingiz Cəlilovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib

**Musavat.com xəbər verir ki, işə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əhməd Quliyevin sədrliyi ilə baxılıb. Prosesdə "Bank Standard"ın eksperti Elgün Səfərov şahid qismində ifadə verib. O, bildirib ki, bankla Ç.Cəlilov arasında 2007-ci ildən müqavilə bağlanılıb. Şahid qeyd edib ki, bankdan götürülən kreditlərlə bağlı ekspert rəyi hazırlayıb: "Rəyə əsasən, götürülən kreditlərdən 13 milyon 962 min manat çatışmazlıq olub. Həmin bu məbləğ də təqsirləndirilən şəxsə aiddir".**

Xatırladaq ki, Baş Prokurorluq iş adamının həbsi ilə bağlı rəsmi açıqlama yayıb. Məlumatda bildirilir ki, müxtəlif hüquqi və fiziki şəxslərin adından bankdan kredit kimi aldığı külli miqdarda vəsaiti bankın vəzifəli şəxsi ilə birgə qulluq mövqeyindən istifadə etməklə təyinatından yayındıraraq şəxsi ehtiyacları üçün mənimsəyən şirkət rəhbərinin qanunsuz əməlləri barədə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.

Keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə müəyyən edilib ki, "Çudo Peçka" və "ÇP Aqro" MMC-lərinin təsisçisi Cəlilov Çingiz Asim oğlu "Bank Standard" QSC Kommersiya Bankının İdarə Heyətinin sədri olmuş Kriman Səlim Eldaroviçlə qabaqcadan razılaşmaqla əlbir olaraq həmin dövrdə banka müxtəlif mənbələrdən, o cümlədən xarici və daxili investorlardan və depozitlərdən daxil olmuş külli miqdarda pul vəsaitləri hesabına 21 milyon 874 min manat məbləğində krediti bankın Müşahidə Şurasının razılığı olmadan dəyəri süni olaraq artıq qiymətləndirilmiş əmlakları girov qoymaqla özünün, yaxın qohumlarının və qohumluq münasibətində olduğu, eləcə də rəhbərlik etdiyi cəmiyyətlərdə işləyən ayrı-ayrı şəxslərin adlarına guya bağ evinin alınması, mənzil təmiri, torpaq alınması və bu kimi digər təyinatlarla rəsmiləşdirilməsinə nail olmuş, daha sonra qeyd olunan kredit müqavilələri əsasında banka guya külli miqdarda kredit borcu olduğu görüntüsünü yaradaraq bir neçə dəfə restrukturizasiya (kreditin və ya onun ödənilməsi şərtlərinin dəyişdirilməsi) etdirməklə mənimsədiyi 13 milyon 962 min manat pul vəsaitini Səlim Krimanla öz aralarında bölüb.




Ç.Cəlilovun qeyd edilən kredit məbləğlərini bankın vəzifəli şəxsləri ilə əlbir olaraq öz qulluq mövqeyindən istifadə etməklə təyinatından yayındırmaqla şəxsi ehtiyaclarına xərcləməsinə şübhələr üçün əsaslar yarandığından ona Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə və ya israf etmə, yəni təqsirkara etibar edilmiş özgə əmlakını talama) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

**İlkin MURADOV,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 91 (6980) 27 aprel 2018




Cümə söhbətləri

# O, gələcək. Biz hazırıqmı?

**Bismillәhir-Rahmәnir-Rahim! Dinimizin әlamәtdar günlәrә xüsusi münasibәti var. Bu günlәr vasitәsilә insanlar dinimizin hәqiqәtlәrini daha yaxşı dәrk edir, mübarәk İslamın bәrәkәtlәrinә vara bilirlәr. Bu gün çox әlamәtdar bir tarixi yaşayırıq. Bu, Zәmanә Sahibi Hәzrәt Mehdi Sahib-әz-Zamanın (ә.f) mövludu günüdür. Bu, bir tarixdir ki, ruhәn, zehnәn ona hazırlaşmaq lazımdır. İnsan gәrәk öz daxili alәminin mövludda olan bütün keyfiyyәtlәrlә hәmahәng olmasına diqqәt yetirsin.**



**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçәrişәhәr Cümә mәscidinin imam-camaatı**

Uca Allah o durumdan saxlasın insanı ki, Peyğәmbәr (s) vә Әhli-Beytinin (ә) mövludları günü sadәcә bir tarix olsun insan üçün, insan bu fәzilәtlәr çeşmәsindәn bәhrәlәnmәmiş bir durumda olsun.

## Zәmanә Sahibinin (ә.f) mövludu

Hәzrәt Mehdinin (ә.f) mövludu günü bizә bir mühüm mövzunu xatırladır. Vә bu xatırlatma, Zәmanә Sahibinin (ә.f) hal-hazırda qeybdә olması ilә xüsusi sәciyyә kәsb edir. Hәzrәt Mehdinin (ә.f) bizә xatırlatdığı vә zәmanәmizin, günümüzün әn mühüm bir mәsәlәsi var: Hәzrәt Mehdinin (ә.f) qeybdә olduğu zaman, bir insan o Hәzrәti (ә.f) nә dәrәcәdә xatırlayır? Nә dәrәcәdә gerçәkdә bu qeybi dәrk edir vә zühura hazırlaşır? Zәmanә Sahibinin (ә.f) qeybdә olduğunu zamanda öz İlahi tәklifini, öz insani vәzifәsini yerinә yetirirmi? Fәrәcin intizarında hәqiqәtdә ola bilirmi?

Yoxsa tәqvimdә gözә dәyәndәn-dәyәnә, mövluddan-mövluda onun yadına düşür İmam (ә.f)? Quran ayәlәrindә onun gәlişinә işarәlәri eşidәndә, hәdislәrdә Mövlanın (ә.f) mübarәk adına rast gәlәndәmi mömin xatılayır onu, yoxsa gündәlik hәyatını intizara uyğun qurur?

Hәqiqәt budur ki, hәr bir inanclının Hәzrәt Mehdinin (ә.f) qeybi dövründә hәqiqi müntәzir olma vәzifәsi var. Vә intizarda olmağın necәliyini, keyfiyyәtini o amil müәyyәn edir ki, insan bu vәzifәnin dәrinliyini nә dәrәcәdә dәrk edir.

## İnsan hәyatı boyu nәyisә gözlәyir...

İnsan hәyatı boyu gözlәmәlәrdәdir. Xoş vә narahatedici gözlәntilәri olur hәr bir insanın. Ailә qurmaq gözlәntisi, uşağın dünyaya gәlmәsi, böyümәsi, mәktәbә getmәsi gözlәntisi vә s. Bir başqası tәhsil alır. Onun gözlәntisi odur ki, tәhsilimi başa vurum, filan işә gedim vә s. Hәr bir konkret halın vә hadisәnin gözlәntisi, bu gözlәnti obyektinin mәramından asılı olmayaraq, insanın davranışında bir ümumi cәhәti müәyyәn edir. Bu ümumi cәhәt - insanın öz davranışını az vә ya çox miqdarda gözlәmә obyektinә uyğun tarazlamasıdır. Yәni, gözlәntinin mühümlüyündәn asılı olaraq, bu, gözlәyәnin fikirlәrindә, rәftarlarında, davranışında, hәtta ruhi-mәnәvi durumunda, emosional-psixoloji vәziyyәtindә öz sәthi vә ya dәrin әksini buraxır.

Bu baxımdan әn simvolik vәziyyәt - imtahan gözlәntisindә olan tәlәbәnin misalıdır. Әgәr tәlәbә mәsuliyyәtlidirsә, imtahan vermәk onun üçün әhәmiyyәt kәsb edirsә, onun gündәlik hәr bir işindә bu gözlәnti sezilәcәkdir. Yox, әgәr o, tәsadüfi, mövsümi bir tәlәbәdirsә, adının haradasa getmәsi, ona tәlәbә deyilmәsi xatirinә ali mәktәbә gedib-gәlirsә, onda vәziyyәt tam başqa cür olacaq. Belәsinin gözlәntisi dә statusuna uyğun olacaq.

İnsan öz hәyatı boyu nәyisә gözlәyir. Kiçik vә böyük şeylәri. Birisi metroda qatar gözlәyir - bu da gözlәntidir. Digәri bu zaman uşağının dünyaya gәlmәsini gözlәyir - bu da gözlәntidir. Üçüncüsü isә verdiyi imtahanın nәticәsini gözlәyir. Bir başqası isә onillәr boyu çәkdiyi elmi zәhmәtlәrin, eksperiment vә sınaqların yekununu gözlәyir. Bunlar da bir gözlәntidir.

Yaxud hәcc mәrasimini yerinә yetirmәyin gözlәntisindә olan insan. O, axtarış aparır ki, hansı karvanla getsә, münasib şәrtlәrlә öz ziyarәtinin keyfiyyәtli yerinә yetirә bilәr. Yol yoldaşı axtarır özünә, sәfәr azuqәsini hazırlayır. Nigarançılığı var, düzmü edib seçimini, nәyisә daha yaxşı etmәk olmazdımı vә s.

Ticarәtçi hansısa iş qurur. Qurduğu işin bәhrәsini gözlәyir. Buna uyğun da gözlәntilәri var. Müәllim öz hazırladığı şagirdlәrin ali mәktәbә daxil olmasını, әmәyinin bәhrә vermәsini gözlәyir.

İnsan hәyatı boyu nәyinsә intizarını çәkir. Hәr kәs üçün bu, yaxın bir hissdir. Dünyada baş verәnlәrә dә baxsaq, görәrik ki, millәtlәr, ölkәlәr dә nәyisә gözlәyir. Tәrrәqqi gözlәyir, islahat gözlәyir, dәyişiklik gözlәyir, firavanlıq gözlәyir insanlar. Siyasәtçilәr, iqtisadçılar, tәhlilçilәr dә bu gözlәntiyә uyğun prqnozlar edir, proqramlar tәrtib edir, vәdlәr verirlәr.

İnsanın daxilinә aid bir hissdir bu. Hәr bir insan bu gözlәnti hissinә uyğun özünü hәmahәng edir.

## Yaxın 30 ildә dinә maraq fövqәl dәrәcәdә artacaq

Mübarәk bir mövludu yaşayırıq. Vә bu mövluddan apara bilәcәyimiz әn böyük bәhrә - intizar mövzusudur. Bir yoxlamalıdır özünü insan, sınaqdan keçirmәlidir. Bu mövlud sahibinin ki, hәr bir inancın onun ardıcılı olmaq iddiasındadır, nә dәrәcәdә gәlişinin intizarındadır? İnsanın hәyatı nә dәrәcәdә bu intizara uyğunlaşdırılmışdır? Hәyatın müxtәlif vәziyyәt vә hallarında özünü göstәrirmi bu gözlәnti, bu intizar? Halәti, durumu, vәziyyәti, әmәli uyğundurmu onun intizarına? Yoxsa, Allah elәmәmiş, onun bu intizar iddiası nәsә bir növbәtçi mәsәlәyә çevrilmişdir?

Mümkün deyil ki, insan müntәzir olsun, intizarçı olsun, amma bu hal onun hәyatında öz әksini tapmasın. Nә qәdәr onun başı qarışıq olsa da, güzaran üçün nә qәdәr ora-bura qaçsa da, özü ilә bağlı mövzuları diqqәtdәn yayındırmamalıdır insan.

Müasir dünyamızda, bәşәrin çatdığı müәyyәn tәrәqqiyә rәğmәn, müәyyәn uğura rәğmәn bir mәsәlә var ki, insanlar özlәri ilә bağlı suallara cavab tapa bilmir. Axır dövrlәrdә isә elm vә texnikanın inkişafı o hәddә çatıb ki, insan amili әsaslı surәtdә azalmağa doğru gedir. Bu mәsәlә ilә bağlı bir neçә rәqәmә nәzәr salaq.

Elmi-futuroloji tәdqiqatlar onu göstәrir ki, әgәr dünyanın tәrәqqisi bu kimi davam etsә, artıq yaxın 15-20 ildә informasiya sistemlәri vә elektron konstruksiyalar o qәdәr inkişaf edәcәk ki, insanlar sәsli texnologiyalar vasitәsilә maşın vә avadanlıqları idarә edә bilәcәklәr vә bu, artıq kütlәvi hal әldә edәcәk. Nәticәdә menecmentdәn, idarәetmәdәn tutmuş, hәyatın bir çox digәr sәhnәlәrinәdәk başdan-ayağa dәyişikliklәr baş verәcәk. Belә proqnoz edirlәr ki, insanların hәyatı ümumilikdә elә dәyişәcәk ki, texnoloji imkanlar artıq hәr kәsin birbaşa istifadәsinә qәdәr gәlib çıxacaq.

Amma bütün bu zahiri tәrәqqiyә rәğmәn, insanlar arasındakı konfliktlәrin dәrinlәşәcәyi dә proqnozlaşdırılır. 2030-40-cı illәrdә anlaşılmazlıqların vә konflikt vәziyyәtlәrin zirvә hәddә çatması proqnozlaşdırılır. İnsanların münasibәtlәrindә çox ciddi böhranların yaşanacağı gözlәnilir. Bunun nәticәsindә insanlarda vәziyyәtin yenidәn dәyәrlәndirilmәsi baş verәcәk. İnsanlar mәnәvi vә psixoloji böhranlardan qurtulmaq üçün inanc mövzusuna fövqәl diqqәt edәcәklәr. Bu baxımdan, inancın rolu vә yeri tamamilә yeni bir vәziyyәtә gәlәcәk. İnanc bәşәrin hәyatında yenidәn әsas vә mәrkәzi yerlәrdә olacaq.

## Müntәzirin vәzifәsi

Bu, bir tәdqiqatlardır ki, onların hansısa dini tәәssübü olan insanlar aparmayıb. Sırf texniki vә texnoloji yanaşmalar nәticәsindә meydana çıxan proqnozlardır bu. Mәlum olur ki, elmin, texnikanın vә texnologiyanın möhtәşәm surәtdә inkişafına, bugünkü vәziyyәtә nisbәtәn böyük keyfiyyәt sıçrayışı etmәsi ilә bәrabәr, insanın mәnәvi-psixoloji rahatlığı tәmin olunmayacaq, eqzistensial sualları cavablandırılmayacaq. İnsan itәcәk bu tәrәqqinin içindә. Bir dә ayılacaq ki, bu texniki inkişaf prosesinin xırda bir dişçiyi qәdәr rolu yoxdur onun bu hәyatda. Belә vәziyyәt düşünәn insanın öz axtarışlarını daha dәrindәn, daha sәylә aparmasına gәtirib çıxaracaq. Nәticә etibarilә, bu axtarışlar bәşәrin inanc mövzularına hәddәn ziyadә diqqәtli olmasına sәbәb olacaq.

Belә vәziyyәt inanc әhlinin üzәrinә xüsusi mәsuliyyәt qoyur. Әmәldә inancını yaşatmaqla bağlı. Bәşәrin mәnәvi axtarışlarını cavablandırmasına yardım etmәklә bağlı. Hәqiqәtdә müntәzir olmaqla bağlı. Sözdә intizarçı yox, şüarda intizarçı yox, hәyatının hәr bir sәhnәsindә intizar çәkәn, İmamı (ә.f) gözlәyәn olmaqla bağlı bir şәrәfli vәzifә gәlir hәr bir müsәlmanın üzәrinә.

Bu, bir әmәli mövzudur. Bu, ya var, ya yoxdur. Mövluddan-mövluda öz missiyasını xatırlamaq gәrәkimәz müntәzirә. Müntәzir odur ki, hәr tarixlә, hәr mövludla bağlı hәqiqәtlәri özündә daşısın, mövlud yiyәsinin idealları, baxışları ilә öz daxili alәmini hәmahәng etsin. Özünü daima yoxlasın ki, nә qәdәr uzlaşır, nә qәdәr uyğunlaşır onun durumu müntәzirlik mәfhumu ilә? Müntәzirliyә iddialı olan insanın belә bir vәzifәsi var: Mövlanın (ә.f) gәlişini hәqiqәtdә gözlәmәk vә bu gözlәntiyә uyğun hәyat sürmәk.

## Qeyb vaxtı çәtin dindarlıq

Qeyd etdik ki, bәşәr qarşısında duran әn böyük tәhlükәlәrdәn biri - insaniyyәtin itirilmә tәhlükәsidir. Tәrәqqi çox yaxşı bir şeydir, amma bir şәrtlә ki, insan özünü itirmәsin. Zira, insan özünü itirdikdә, onda bu tәrәqqi kimin üçündür? Tәrәqqinin hәdәfindә insan durmursa, onda nәyә lazımdır o? Bu baxımdan aparılan tәdqiqatların nәticәsindә müәyyәn edilmәsi ki, bәşәriyyәtin tәrәqqisi onun inanca doğru üz tutması ilә nәticәlәnәcәk - çox simvolik vә әlamәtdardır.

Amma inanclı insan gәrәk bu gün dә öz missiyasını unutmasın. Hәzrәt Mehdinin (ә.f) qeybdә olduğu dövrdә, o Hәzrәtin (ә.f) zühurunun gerçәklәşdirilmәsi yolunda gәrәk bütün sәylәrini etsin. Doğru yaşasın, düzgün әmәl etsin. İslam Peyğәmbәri (ә) Hәzrәt Mehdinin (ә.f) qeybdә olduğu dövrdә ona sadiqliyini saxlayanların hәqiqәtdә az olmasına işarә edәrәk, buyurmuşdur: "Mәni haqq olaraq Göndәrәnә and olsun ki, o, (İmam Mehdi (ә.f)) qeybdә olanda onun İmam olması әqidәsindә möhkәm duranlar qırmızı kükürddәn dә az tapılarlar".

Hәr bir müsәlmana aid bir mәsәlәdir bu. Bu dönәmdә Zәmanә Sahibinә (ә.f) möhkәm bağlı olmaq. Möhkәm etiqada malik olmaq. Gerçәk mәnada müntәzir olmaq. Vücudi böhranlardan müntәzir kimi çıxmaq.

Böyük İslam Peyğәmbәri (s) buyurur: "Mәnim ümmәtimin әn üstün işi - fәrәc (İmam Mehdinin (ә.f) zühuru) intizarında olmaq vә Allahdan onun baş vermәsini istәmәkdir".

Diqqәt edәk: buyrulur "әn üstün işi". Deyilmir "әn üstün işlәrindәn bir". Deyilmir "vacib vәzifәlәrindәn biri", "әn fәzilәtli mövzulardan biri". Deyilir ki, işlәrin tacıdır bu. Bu, varsa, namaz da var, oruc da var, dinin digәr mәsәlәlәri dә var. Bunsuz digәr dini vacibatlar mühüm bir tәrkibdәn, müәyyәnedici mahiyyәtdәn mәhrumdur.

## Fәrәcin intizarı - әn böyük qurtuluşdur

İmam Sәccaddan (ә) nәql edirlәr: "Fәrәcin intizarını çәkmәyin özü әn böyük qurtuluşdur".

Gözlәmәyin özünün bir şirinliyi var. İnsan bir xoş şeyi gözlәdikdә, bu gözlәmә prosesinin özü ona müsbәt emosiyalar verir, onu müsbәt işlәrә doğru yönәldir, rәftarlarında xeyirxah edir. Amma fәrәcin intizarı bir başqa şirinlikdir. Bu, bir qurtuluşdur. İnsan fәrәcin - Hәzrәt Mehdinin (ә.f) zühurunun hәqiqi müntәziri olduqda, bu zühuru tezlәşdirәn işlәr görür. Onun dünyagörüşü İlahi dünyagörüşü olur. Onun әmәllәri zühuru tezlәşdirmәk sәyi ilә yüklәnir. Hәqiqi müntәzirin durumu tam ibadәtli bir durum olur. Vә onun üçün bu intizar ibadәtә çevrilir, bütün qәlbini, vücudunu kamilliyә yönәldәn bir ibadәtә. Bu durum insan üçün әn böyük bir vücudi qurtuluşa çevrilir...

Nәdir hәqiqi intizar? Yәqinlik! Necә bir insan sübhün intizarındadır ki, Rәbbi ilә sübh namazında münacat quracaq vә yәqinliklә, әminliklә bilir ki, sübh açılacaq, necә ki, bir kәs әminliklә bilir ki, günәş çıxacaq - buna uyğun da işlәrini qurur, elәcә dә hәqiqi müntәzir İmamın (ә.f) gәlişinә әmindәn dә әmindir vә işlәrini bu әminliyә uyğun qurur. Davranışı bu müddәaya uyğundur onun.

İmam Museyi-Kazım (ә) buyurur: "Fәrәc intizarında olmağın özü açılışdır".

Hәzrәt Mehdinin (ә.f) mübarәk gәlişiylә düyünlәr açılacaq, bәşәriyyәt ağ günә çıxacaq. Zülmәtlәr işıqlanacaq, qaranlıqlar çәkilәcәk. İntizarda olmağın özü insanın daxilini zülmәtdәn tәmizlәyir.

## Buludun arxasından nurlandıran Günәş...

İmam Cәfәr Sadiqdәn (ә) nәql edirlәr: "Kim bu iş sahibinin (İmamın zühurunun) intizarını çәkәn halda ölsә, Qaimlә (Hәzrәt Mehdi (ә.f) ilә) birlikdә onun xeymәsindә olmuş kimidir». Sonra İmam Sadiq (ә) bir qәdәr dә şiddәtlәndirәrәk, buyurur: lXeyr! Bәlkә hәtta Allah Peyğәmbәrinin (s) yanında qılınc çalan şәxs kimidir".

Müntәzir bütün hәrәkәtlәrilә, bütün rәftarlarıyla Peyğәmbәrin (s) yanında olan insan kimidir, Peyğәmbәrin (s) yanında qılınc çalan kimidir.

Hәzrәt Mehdinin (ә.f) özü intizarda olanlar barәdә belә buyurur: "Mәn qeybdә olan zaman mәndәn bәhrәlәnәn, Günәş buludun arxasında gözlәrdәn gizlin olanda ondan bәhrәlәnәn kimidir.

Ulduzlar göy әhlinin әmin-amanlığının amili olduğu kimi, mәn dә Yer әhlinin әmin-amanlıq amiliyәm".

Günәş buludun arxasında olanda, insanlar mәgәr ondan bәhrәlәnmir? Әlbәttә ki, bәhrәlәnir. Günәşin öz görünmәsә dә, onun hәrarәti, işığı, enerjisi tәzahür olunur. Vә Mövla (ә.f) gözlәrdәn gizli olduğu dövrdә onun nurundan bәhrәlәnәnlәrin misalı da belәdir. İmam (ә.f) qeybdә olanda hәr an öz nurunu bәşәriyyәtә tәqdim edir. Böyük ustadlardan biri buyurmuşdur: "Ümumilikdә Zәmanә Sahibi (ә.f) insanla Rәbb arasında vücudi vasitәdir". Necә ki, Günәş vasitәdir Yerә işıq vermәkdә, enerji vermәkdә, o cür dә Hәzrәt Mehdi (ә.f) vasitәdir hәr bir insana ki, Rәbbinә bağlanmaq üçün bәhrәlәnmәk istedadı, bәhrәlәnmәk qabiliyyәti var. Әmin-amanlıq axtaran gәrәk Hәzrәt Mehdiyә (ә.f) bağlansın, onun nurundan bәhrә aparsın.

## İstedadların açılacağı gün

Bәşәr övladı öz imkanlarının çox cüzi hissәsini açmışdır. Hәzrәt Mehdinin (ә.f) zühuru ilә insanların bütün istedadları açılacaqdır. İmam Cәfәr Sadiq (ә) buyurur: "Qaimimiz (Hәzrәt Mehdi (ә.f)) qiyam edәn zaman Allah Tәala ardıcıllarımızın görmәk vә eşitmәk hiss qabiliyyәtlәrini o qәdәr genişlәndirәr ki, onlarla Qaim arasında bağlantı vasitәsinә ehtiyac qalmasın. Onlarla söhbәt edәr edәr (Qaim) vә onlar onu eşidәr vә görәrlәr".

Digәr hәdisdә İmam Sadiqdәn (ә) nәql edirlәr: "Elm 27 hissәdir. Hәr nә ki, peyğәmbәrlәr gәtiriblәr - 2 hissәdir. Vә bu günә qәdәr insanlar o 2 hissәdәn artığını bilmirlәr. Qaimimiz qiyam edәndә o 25 hissәni dә gәtirәr vә insanlar arasında yayar. Vә o 2 hissәni әlavә etdikdәn sonra, yaydığı (elm) 27 hissә olar".

Allah Tәala cәmi iman әhlinә әmәllәrin tacı olan hәqiqi müntәzirlik durumunu, bәndәlik tofiqatını nәsib etsin! Amin!

YENİ MÜSAVAT

Son səhifə

N 91 (6980) 27 aprel 2018

# Körpə uşağı düz tutsan, ağlamağı kəsəcək



İnsanlığın başlanğıcından bəri ağlayan uşaqları susdurmaq valideynlər üçün ən böyük problem olub. Zaman keçdikcə hərə öz uşağına və özünə uyğun bir texnika seçərək, bu işin öhdəsindən gəlib. Kaliforniyanın Santa Monika şəhərindəki uşaq xəstəlikləri mütəxəssisi, həkim Robert Hamilton bildiyimiz hər şeyi unutduracaq bir texnika ilə bütün uşaqları susdurur.

30 illik uşaq həkimi təcrübəsi olan həkim Robert Hamilton hesab edir ki, uşaqları doğru formada tutmaqla ağlamağını kəsmək olar. Hamilton çox kiçik bir toxunuşla ağlayan bütün uşaqları susdurur. Həkim Hamilton 30 ildir bu peşəni icra edir və yeni doğulan uşaqlar məsələsində çox həssasdır. Ağlayan körpələri susdurmaq üçün inkişaf etdirdiyi üsulu isə “The Hold”, yəni “tutuş” adlandırır. Həkim Hamilton öncə körpənin sağ qolunu onun sinəsinə doğru qıvırır. Daha sonra digər qolunu sıxır və bir əli ilə körpənin hər iki qolunu sinəsinə çatacaq şəkildə, boynunun tam altından tutur. Və son olaraq körpənin yançaq qismindən xəfifcə sallayaraq, ağlayan bütün körpələri susdurur.



## Qadın biznesə başlamaq istəyirsə...

Biznesə başlamaq üçün qadına kişi ilə müqayisədə iki dəfə az resurs lazımdır. Sahibkar fəaliyyətini öyrənən “Global Entrepreneurship Monitor”un məlumatlarına əsasən, 2015-ci ildə ABŞ-da qadınlara öz biznesinə başlamaq üçün kişilərlə müqayisədə iki dəfə az vəsait lazım olub- orta hesabla 10 min dollar.

Tədqiqatın həmmüəllifi, Babson Universitetinin professoru Donna Kelli qeyd edir ki, şirkəti işə salmaq lazım olanda qadın-sahibkarlar daha enerjili olurlar. ABŞ üzrə statistikaya görə, biznes açan qadınların, demək olar ki, yarısı işə 10 min dollardan az büdcə ilə başlayıb. Araşdırma onu da göstərib ki, iş quran qadınlar öz ailə üzvlərinə kişilərdən daha çox arxalanırlar.

Qadınların biznes seçimi də fərqlidir. Zərif cinsin nümayndələri daha çox müştəriyə yönələn biznes, ticarət müəssisəsi və xidmətləri yaratmağa meyilli olurlar. Məsələn, əl işlərindən ibarət məhsulların satışı ilə məşhur “Etsy” onlayn-platformasından bildiriblər ki, bu resursda satıcıların əksəriyyəti - 86%-i qadınlardır. Nəhayət, araşdırmalar göstərir ki, qadınlar adətən biznesə 35-44 yaşadək başlayır, kişilər isə 25-34 yaşlarında.

# Banka qoymaqla uşağı arıqladırlar



150 kilo ağırlığında olan və heç cür çəki verə bilməyən 11 yaşındakı çinli uşağın ənənəvi Çin tibbinin üsulları ilə arıqlayacağı açıqlandı. Çinin Changchun şəhərindəki bir xəstəxanada müalicə olunan 11 yaşlı Li Hang aralarında “banka müalicəsi”, atəş terapiyası və akupunkturun da olduğu müxtəlif müalicələrdən keçirildi. Nadir rast gələnən Prader-Villi sindromuna yaxalanan Hanq yeməkdən əl çəkə bilmir, öyrənməkdə çətinlik çəkir və sürətli kökəlmədən əziyyət çəkir. Çinin Harbin şəhərindən müalicə məqsədilə Changchundakı xəstəxanaya gətirilən balaca uşağa 3 yaşından bəri Prader-Willi sindromu diaqnozu qoyulub. Amma 4 yaşı olanda onun çəkisi 43 kiloya çatıb. Bu isə onun Çindəki eyni yaşlı uşaqlarla müqayisədə iki dəfə kök olması anlamına gəlir. Balaca uşağın 10-dan artıq problemi üzə çıxıb. Bunlar arasında şişmanlıq, yüksək qan təzyiqi, qaraciyər yağlanması kimi xəstəliklər də var. Hanq ötən mart ayında 167 kiloya çatanda isə ailəsi ona dieta tətbiq edib və idmana yazdırıb. Amma bu, hər hansı fayda verməyib. Mədəsindən də əməliyyat keçirən Hanq cərrahi müdaxilə nəticəsində 143 kiloya düşdü, amma qısa müddət sonra 150 kiloya qədər artdı. İki ay öncə xəstəxanada müalicə altına alınan Li Hangın keçən müddət ərzində 15 kilo verdiyi açıqlanıb.




**QOÇ** - Yaxşı olar ki, günün əsas hissəsini mənzil şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, açıq havada olmaq müəyyən qədər uğursuzluq gətirə bilər. Dinə zidd hərəkətlərə yol verməyin.

**BUĞA** - Artıq sizin Zodiak işarəniz hakim olduğu üçün hamıdan enerjili olacaqsınız. Maliyyə planlarınızın reallaşması sürətlənəcək. Həmkarlarınızla aranızda yaranmış soyuqluğu dəf edin.

**ƏKİZLƏR** - Maddi problemləriniz olsa da, işlə bağlı heç bir çətinliyiniz olmayacaq. Ulduzlar gələcək planlarınızı məxfi saxlamağı məsləhət görür. Hətta ən yaxın adamlarınıza belə sirr açmayın.

**XƏRÇƏNG** - Mövcud gərginlikdən qurtulmaq üçün uzaq səfərə çıxmağınız məsləhətdir. Çünki həm fiziki, həm də zehni cəhətdən çox yorulmusunuz. Sevgi münasibətlərində səmimi olun.

**ŞİR** - Bir çox yeniliklərin şahidi olacaqsınız. Bununla yanaşı, uğurlu sövdələşmələr aparmaq, banklarla işləmək üçün şanslarınız artacaq. Himayənizdəki uşaqların qayğısına qalın.

**QIZ** - Qarşınızda maraqlı bir təqvim durur. Bu səbəbdən də fürsətinizi fövtə verməyin. Sevdiyiniz adamlarla bir yerdə olun. İşgüzar münasibətlərdə ölçülü-biçili davranmağı da unutmayın.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvimi məhəbbət istiqamətinə yönəldin. Çünki gün ərzində ən yüksək ovqatı məhz sevgidən alacaqsınız. Nahardan sonra müəyyən qədər işlə məşğul olmaq olar.

**ƏQRƏB** - Ətrafınızdakı insanların sizə münasibətinin dəyişməsi işlərinizə hopan gərginliyi azaldacaq. Xüsusən də saat 15-dən sonra şəxsi işlərinizdə irəliləyişlər və şanslar baş verəcək.

**OXATAN** - Təzə xəbərlər yolunuzu gözləyir. Ürəyinizcə olan və gələcəyiniz üçün böyük önəm daşıyan təkliflər də ala bilərsiniz. Bir sözlə, bu təqvim taleyinizdə əsaslı dönüş yarada bilər.

**OĞLAQ** - Neçə gündən bəri yığılmış gərginliyiniz ümumi ovqatınızı aşağı salacaq. Odur ki, ciddi işlərə girişməyə dəyməz. Səhhətinizi qoruyun. Axşama yaxın maraqlı adamlarla görüşləriniz olmalıdır.

**SUTÖKƏN** - Göy qübbəsi yalnız səfərlər üçün uğurlu təqvim yaşayacağınızdan xəbər verir. Doğmalarınıza, yaxınlarınıza baş çəkməyə dəyər. Hətta pulunuz olmasa belə, bir qədər borc götürün.

**BALIQLAR** - O qədər də uğurlu gün deyil. Bir tərəfdən səhhətinizlə bağlı problemlər, digər tərəfdənsə qarşılıqlı münasibətlərdə anlaşılmazlıqlar ovqatınızı poza bilər. Təmkinli olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Yaddaşı geri qaytarmaq üçün gündə 3 stəkan qəhvə....



Alimlərə görə, gündə 3 stəkan qəhvə içmək yaddaşsızlıq riskini azaldır. Türkiyənin “Milliyyet” qəzetinin xəbərinə görə, ölçülü miqdarda qəhvə içmək beyində alzheimera bağlı zəhərli toksonlərin yaranmasına mane olur. Mütəxəssislər illərdir qəhvənin sağlamlığa ziyanlı olub-olmadığını araşdırırlar. Bu yaxınlarda aparılan bir araşdırma isə sübut edib ki, qəhvə hamilə qadınların uşaqlarını itirməsinə və infarktlara səbəb olur.Bundan başqa, anksiyete, mədə yanması və menapozda görülen istilənmə hissi də kofe ucbatından baş verir. Amma yeni araşdırma digər bütün araşdırmaları da təhlil edərək, yeni bir nəticə ortaya çıxarıb. Bununla paralel, Avropanın ən böyük 6 qəhvə şirkətinin analizinə görə, qəhvə və parkinson və digər nevroloji xəstəliklərin də qarşısını alır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.